# İrəvanı sülhdən yayındıran həm də kənar müdaxilələrdir



**Azərbaycan–Ermənistan münasibətlərinin tənzimlənməsində maraqlı olmayan, prosesdə hər zaman öz mənfəətlərini düşünən bəzi Qərb ölkələrinin, xüsusilə Fransanın canfəşanlığına baxmayaraq, iki dövlət sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında saziş layihəsinin razılaşdırılması istiqamətində irəliyə doğru hərəkət etməkdədirlər.**

Bunun ən mühüm göstəricisi oktyabrın 24-də Tatarıstanın paytaxtı Kazan şəhərində keçirilən XVI BRICS Sammiti zamanı Azərbaycan Prezidenti və Ermənistan baş naziri arasında görüşün keçirilməsi oldu. Görüş hər hansı vasitəçinin iştirakı olmadan baş tutması ilə diqqəti cəlb etdi. Yeri gəlmişkən, qeyd edək ki, görüşə hər iki ölkədən olan məhdud tərkibdə nümayəndə heyəti də qatılmışdı.

*(ardı 3-cü səhifədə)*




Xalq qəzeti
Xalqın qəzeti!
№ 243 (30647) 3 noyabr 2024-cü il, bazar
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Çağrı Mərkəzi fəaliyyətə başladı



Səhifə ⇨ 9

# Azərbaycanın Yerdənkənar fəaliyyətinin təməlqoyma günü

### *Ölkəmiz kosmik sənayenin yaradılmasında da sanballı uğurlar qazanıb*



**Bu qeydlərimizə həmin tarixi gündən indiyədək ölkəmizdə kosmik sənayenin inkişafını göstərən nailiyyətimizi sadalayarkən nədən başlayaq? Qabardılmalı məqamlar istənilən qədərdir. Yer orbitinə telekommunikasiya peyklərimizin çıxarılmasını da qabarda bilərik, Azərbaycanın beynəlxalq aləmdəki kosmik ailənin üzvü kimi tanınmasını da, ötən il ölkəmizdə 74-cü Beynəlxalq Astronavtika Konqresinin keçirilməsini də...**

Təbii ki, bunların hamısı elmi-texniki nailiyyətdir. Ancaq mən bu sətirləri cənab Prezidentin 2008-ci ilin noyabrında imzaladığı sərəncamdan sonrakı ən böyük mənəvi uğurumuzu yada salmaqla başlamaq istəyirəm. Belə ki, 44 günlük İkinci Qarabağ müharibəsində rüsvaycasına məğlub olan, son iki əsrdə yaratdığı bütün mifləri darmadağın edilən Ermənistanın üzdə olan siyasətçilərinin əksəriyyəti öz dövlətlərini qınayarkən Azərbaycanın müxtəlif uğurlarını yada salırdılar. Nikol Paşinyana müxalifətdə olan bir deputat isə demişdi:

"Əliyev (onlar sanki Azərbaycan Prezidentinin adını çəkməkdən belə, qorxurlar) kosmosa rabitə peyki göndərmək üçün milyonlar xərcləyəndə bizim dövlət başçılarımız milyonlar toplamaqla məşğul idilər. İndi Əliyev Bakıda oturub kosmosdakı imkanları ilə Ermənistanın bütün hərbi texnikasını görür".

*(ardı 2-ci səhifədə)*

# Naxçıvana yol: Ermənistan razıdır, yoxsa...

### *Ararat Mirzoyanın bildirdiklərinə sözardı*



**Ermənistanın Xarici işlər naziri Ararat Mirzoyan ölkə parlamentindəki çıxışında vurğulayıb ki, Azərbaycan İrəvanın regional kommunikasiyaların açılması təklifini "yarı rəsmi" təsdiqləyib. "Yarı rəsmi"nin nə demək olduğu anlaşılmasa da, Mirzoyanın fikirləri maraq doğurmaqdadır. O, eyni zamanda, bildirib ki, haqqında söz açdığı məsələdən müəyyən müsbət atmosferin formalaşdığını göstərmək üçün danışır. Əslində, prinsip etibarilə, nəyinsə nümayişinə, ümumən, nümayiş məntiqinin özünə ehtiyac duyulmamalı, konkretlik olmalıdır. Ancaq...**

Beləliklə, Cənubi Qafqazda nəqliyyat kommunikasiyalarının region ölkələrinin suverenlikləri əsas götürülməklə, onların qanunlarına uyğun fəaliyyət göstərməsinin vacibliyi üzərində dayanan A.Mirzoyan fikrini qüvvətləndirmək üçün əlavə edib ki, hər şey qarşılıqlılıq və bərabərlik prinsiplərinə söykənməlidir. Onun sözlərinə görə, yaxın gələcəkdə Ermənistan Azərbaycanla təkcə nəqliyyat kommunikasiyalarının blokdan çıxarılması məsələsində deyil, həm də hazırda razılığa gəlinməsi mümkünsüz digər mövzularda da işi davam etdirəcək.

*(ardı 3-cü səhifədə)*

# Okampoların "ağıllanma mövsümü" başlanıbmı?



Səhifə ⇨ 4

# Daşnakların piketi

### *Yoxsa Paşinyan iqtidarının "kukla teatrı"*




**Əvvəlcədən də məlum idi ki, Ermənistandakı daşnaklar COP29-la əlaqədar şivən qoparacaqlar. Çünki planlaşdırdıqları hərəkətin anonsunu vermişdilər. Özü də bunu bəyanat yayaraq etmişdilər.**

"Daşnaksütyun" partiyası bəyanatında Azərbaycanın Qarabağda, guya, etnik təmizləmə apardığını, bölgə ermənilərini zorla yurd-yuvalarından didərgin saldığını, erməni mirasını məhv etdiyini və sair bu kimi cəfəngiyyatları sıralamışdı. O da məlum idi ki, planlaşdırılan aksiya BMT-nin İrəvandakı ofisinin qarşısında təşkil olunacaqdı. Etirazçılar oradan Ermənistan xarici işlər nazirliyinin binasına və ATƏT-in artıq canını tapşırmış Minsk qrupunun həmsədrləri olan Rusiyanın, ABŞ-nin və Fransanın səfirliklərinə yürüş edəcəklər. Deyildiyi kimi də oldu. Ancaq bir fərqlə. Daşnaklar mitinq yox, xırda piket keçirdilər.

Erməni milli identikliyini daşıyan siyasi qruplaşma kütləvi toplantı təşkili üçün adam tapa bilmir. Biabırçılıqdır. Hərçənd, başqa tərəfdən yanaşsaq, bunu pozitiv cəhət kimi qiymətləndirmək olar. Çünki "Daşnaksütyun" terrorçu qruplaşmadır. Bu qruplaşmanın mitinq keçirməyə sosial bazasının olmaması təqdirəlayiqdir. Belə düşünmək olar ki, Ermənistanda terroru mübarizə vasitəsi kimi görənlərin sırası seyrəlib.

Hər bir halda, "Daşnaksütyun"un fəalları Bakıda bu ay keçiriləcək COP29-la bağlı Azərbaycana qarşı beynəlxalq miqyasda başlanmış qarayaxma kampaniyasına "töhfələrini verdilər". Nüfuzlu toplantıya qatılacaq ölkələri Azərbaycana təzyiq göstərməyə səslədilər. Əlbəttə, biz belə hallara "it hürər, karvan keçər" atalar məsəli prizmasından yanaşırıq. Ona görə İrəvan küçələrində düzənlənən piket bizə təəccüblü gəlmədi. Onların dünyanın müxtəlif bölgələrindəki prototiplərinin anti-Azərbaycan "fəaliyyətlərinə" də qətiyyən təəccüblənmirik. Belə həyasızlıqlara, bir növ, öyrəncəliyik.

Bəli, Ermənistanın hakim dairələri də Azərbaycanda saxlanılan və hərbi əsir kimi təqdim edilən şəxslərlə bağlı məsələni aktiv şəkilə müzakirə etməkdə, müxtəlif beynəlxalq tribunalara daşımaqdadırlar. Deyə bilərik ki, mövzu erməni siyasi trendinə çevrilib. Məsələ, həmçinin ona yanaşanların necə fəaliyyət göstərmələrinə, hansı metodları işə salmalarına qiymət ritorikasını da aktuallaşdırır. Bu mənada daşnakların, necə deyərlər, "imtahandan kəsildiklərini" söyləmək mümkündür. Görünür, onlara şərait yaradan Ermənistan iqtidarı cəmiyyətə həm də bunu göstərmək istəyirmiş.

Xaricdəki ermənipərəstlərin haqqında söz açdığımız trendə qoşulduqlarını söyləyə bilərik. Onlar da nəticə qazana bilmirlər. Məqsəd isə bəllidir – ölkəmizi işğalçı qiyafəsində göstərməklə, COP29-a evsahibliyimizə kölgə salmaq, beynəlxalq aləmin bizə qarşı sanksiya siyasəti yeritməsi üçün zəmin hazırlamaq. Əsir kimi göstərilən şəxslər mövcud trayektoriyadakı alətlərdir. Alətləri işə salan, eyni zamanda, daşnakların timsalında, obrazlı desək, kuklaları oynadan isə baş nazir Nikol Paşinyan administrasiyasıdır və bu hal sözügedən administrasiyanın təmsilçilərinin Azərbaycanla sülhdən danışdıqları bir vaxtda yaşanır. Deməli, ortada riyakarlıq əməli var.

Bəli, indiki halda deyilə bilməz ki, rəsmi İrəvanın terrorçu "Daşnaksütyun" partiyasının çıxardığı oyunbazlığa aidiyyatı yoxdur. Çünki hər iki cinah ənənəvi anti-Azərbaycan mahiyyətli tezislər səsləndirir və bu səbəbdən məsələ Ermənistan dövləti kontekstində qiymətləndirilməlidir. Hələ hazırda daşnakların ölkənin parlamentində yer almalarını vurğulamırıq. Hərçənd, əli minlərlə dinc Azərbaycan və Anadolu türkünün qanına batmış, dünyanın müxtəlif ölkələrində türk diplomatlara qarşı terrorlar reallaşdırmış bir qurumun gizli və aşkar təmsilçilərinin Ermənistanın ali qanunverici orqanında oturmaları, bütövlükdə, ölkənin terrorçu xislətindən xəbər verir.

Düzdür, baş nazir Nikol Paşinyan administrasiyasının təmsilçiləri daşnaklardan fərqli olaraq, Qarabağdakı keçmiş separatçı rejimin rəhbərlərinə azadlıqla bağlı hansısa tələb səsləndirmirlər. Ancaq ikincilər birincilərin ölkəmizə nifrət məsələsində gizlətdiklərini, ört-basdır etdiklərini aşkarca üzə çıxarır. Bir el misalında deyildiyi kimi, dəvəquşu başını qumluğa salır, elə bilir əndamı görünmür. İndiki halda, Paşinyan iqtidarı kimi...

***XQ-nin analitik qrupu***

Tərəqqi yollarında

# Azərbaycanın Yerdənkənar fəaliyyətinin təməlqoyma günü

(əvvəli 1-ci səhifədə)

**Son illər ölkəmizdə qeyri-neft sektorunun inkişafı ilə əlaqədar həyata keçirilən dövlət proqramları və əməli tədbirlər iqtisadiyyatın diversifikasiyası və yeni sənaye sahələrinin inkişafı üçün geniş imkanlar açmışdır. Azərbaycan Respublikasının Avropa və Asiya qitələri arasında əlverişli coğrafi və iqtisadi məkanda yerləşməsi iqtisadi və informasiya təhlükəsizliyinin əsas komponentlərindən olan telekommunikasiya peyklərinin hazırlanması və orbitə çıxarılmasını zəruri edir.**

**Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında Prezident sərəncamından**

**4 noyabr 2008-ci il**

Yeri gəlmişkən, dövlət başçımız özü də düşmən üzərindəki möhtəşəm Zəfərdən sonrakı çıxışlarından birində bu barədə danışmış, bəzi faktları açıqlamışdı.

Prezident İlham Əliyevin gənc müstəqil dövlətimizə rəhbərlik etdiyi dövrün uğurları çoxdur. Onlardan biri də bizim beynəlxalq aləmdəki "kosmik ailə"nin üzvü kimi nüfuz qazanmağımız və ötən payız Bakıda 74-cü Beynəlxalq Astronavtika Konqresinin keçirilməsi oldu. Həmin gün dünya astronomlarının və kosmos mütəxəssislərinin ürəyi



həqiqətən Bakı ilə döyünürdü. Dünya mətbuatı bu tədbiri kosmosun və Azərbaycanın adına layiq şəkildə işıqlandırdı. Hətta kosmosdan da dövlət başçımıza, Bakıya, paytaxtımızın qonaqlarına salamlar göndərildi.

Əslində, astronomiya elmi ilə məşğul olmaq, kosmosa maraq göstərilməsi bizim üçün o qədər də yeni məsələ deyil. Çünki hələ yüz illər qabaq böyük mütəfəkkir Nizami Gəncəvinin əsərlərində Günəş Ay, planetlər və ulduzlar haqqında xeyli material vardır. Nizaminin vəfatından təxminən əlli il sonra isə başqa bir mütəfəkkirimiz – o dövr üçün məlum olan elmlərin demək olar ki, hamısında uğurlar qazanmış Nəsirəddin Tusi Marağa rəsədxanasını yaratmış və astronomiya elminə Avropa alimlərindən xeyli əvvəl mühüm töhfələr vermişdir. Təsadüfi deyil ki, UNESCO 2009-cu ili "Marağa rəsədxanası ili" adlandırmışdı.

Həmin tendensiya sonrakı əsrlərin hamısında davam etdirilmiş, hətta Şamaxı şəhərində də Asiyanın mükəmməl texniki bazaya malik olan rəsədxanalarından biri tikilmişdir. Nəhayət, ötən əsrin 70-ci illərində Azərbaycana rəhbərlik edən Heydər Əliyev konkret olaraq bu istiqamətdə və elmi şəkildə əsaslandırılmış dövlət siyasətini müəyyənləşdirməyə nail olmuşdur. Elə həmin siyasətin nəticəsi idi ki, 1973-cü ildə 24-cü Beynəlxalq Astronavtika Konqresi məhz ulu öndərin rəhbərliyi ilə Bakıda müvəffəqiyyətlə keçirilmiş və dünya alimləri tərəfindən yüksək qiymətləndirilmişdir. Ancaq bütün bunlar astronomiya elminin təbliği və kosmosun öyrənilməsi istiqamətində atılan addımlar idi.

Ölkəmizdə kosmik sənayenin yaradılması istiqamətində ilk addım isə bilavasitə Prezident İlham Əliyevin uzaqgörənliyi nəticəsində –2008-ci ildə atılmışdır. Dövlət başçımız həmin il noyabrın 4-də "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında" sərəncam imzalamış, sonrakı il avqustun 17-də isə "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı"nı təsdiqləmişdir.

İndi bu sahədəki uğurlarımızın tarixçəsinə nəzər salanda görürük ki, biz 16 il əvvəlki məlum sərəncamın icrası nəticəsində kosmik ailənin fəal üzvlərindən birinə çevrilmişik. Həmin sənədin icrası prosesində – Telekommunikasiya peykinin hazırlanması, orbitə çıxarılması, idarə olunması və istismar işlərinin həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 3 may tarixli Sərəncamı ilə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin tabeliyində "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti ("Azərkosmos" ASC) təsis edilmişdi. İlk telekommunikasiya peykinin orbitə çıxarılması üçün ölkəmizin öz orbital mövqeyinin əldə edilməsi məqsədilə, 2010-cu ilin 25 may tarixində İstanbul şəhərində ilk telekommunikasiya peykinin Malayziya hökumətinə məxsus orbital mövqeyə çıxarılmasını və "Measat" şirkəti ilə birgə istifadəsini nəzərdə tutan müqavilə imzalanmışdı.

2010-cu ilin 27 may tarixində ABŞ-nin "Orbital Sciences" şirkəti ilə telekommunikasiya peykinin istehsalına dair razılaşma, 2010-cu ilin 5 noyabr tarixində isə Fransanın "Arianespace" şirkəti ilə ilk telekommunikasiya peykinin "Ariane-5ECA" raketdaşıyıcısı ilə orbitə çıxarılmasını nəzərdə tutan müqavilə imzalanmışdı. Nəticə olaraq, "Azerspace-1" telekommunikasiya peyki 8 fevral 2013-cü il tarixində Bakı vaxtilə saat 01.36-da üzərində üçrəngli Azərbaycan bayrağı olan raketdaşıyıcı ilə orbitə buraxılmış və kosmodromdan qalxdıqdan 33 dəqiqə sonra raketin gövdəsindən ayrılmış, fəzaya buraxıldıqdan 34 dəqiqə 56 saniyə sonra isə orbitdə yerini tutmuşdu. Bu faktı bir də ona görə tam təfsilatı ilə yada salırıq ki, dünya alimlərinin Azərbaycan dövləti üçün yeni olan bir sahədəki ilk addımının uğurla nəticələndiyi barədə söylədiklərinin qürurunu təkrarən yaşayaq.

Onu da xatırladaq ki, 2013-cü il fevralın 8-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Azerspace-1 peykinin idarə olunduğu "Azərkosmos" ASC-nin yeni inzibati binası – Əsas Yerüstü Peyk İdarəetmə Mərkəzinin açılışında iştirak etmişdilər. Bu faktı isə dövlət başçımızın həmin gün böyük fəxrlə səsləndirdiyi "məmnunam ki, burada çalışan mütəxəssislərin əksəriyyəti azərbaycanlı gənclərdir" – ifadəsinin qürurunu təkrar yaşamaq üçün xatırladırıq.

Sonrakı proseslər hamıya məlum olduğu üçün təfsilata varmır, yazını dövlət başçımızın Bakıda keçirilən "74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimindəki çıxışından iqtibasla tamamlayırıq: "Azərbaycan on il əvvəl beynəlxalq kosmik ailənin üzvü olub. Bu gün ikisi telekommunikasiya, biri isə Yer səthinin müşahidəsi peykinə malik olaraq biz Azərbaycanda kosmik sənayenin inkişafını davam etdiririk. Onu da bildirim ki, bu üç peyk azərbaycanlı mütəxəssislər tərəfindən idarə olunur və onlar təkcə Azərbaycana deyil, 45-dən artıq ölkəyə xidmət göstərirlər... Bakıda keçirilən bu konqres ölkəmizin kosmik sənaye, müasir texnologiya və innovasiya sektorlarının inkişafına və onun müasirləşdirilməsinə mütləq yeni təkan verəcəkdir. Müasirləşdirilmə sözü bizim gələcəklə bağlı baxışımızı, gündəliyimizi və planlarımızı səciyyələndirir".

***İttifaq MİRZƏBƏYLİ***

# Adamı gözügötürməyənlər də az deyilmiş...

## *Söhbət Kaliforniya ermənilərinin hesabına senator olmağa çalışan konqresmendən gedir*

**"Amerika Erməniləri Milli Komitəsi (ANCA) Kaliforniya ştatından ABŞ Senatına namizəd, demokrat Adam Şiffi dəstəkləməkdən qürur duyur". Ermənipərəstliyi ilə Azərbaycanda da "populyarlıq" qazanmış A.Şiffin seçkiqabağı təşviqat kampaniyasının təşkilatçısı rolunda çıxış edən ANCA-nın bu şüarlarla bəzədilmiş plakatları hazırlayaraq yayması heç də təsadüfi deyil. ANCA bütün erməniləri və onların Kaliforniya ştatındakı müttəfiqlərini məhz Şiffə səs verməyə çağırmaqla əsl niyyətini ortaya qoyub. Əslində, hər şey "iki vur iki" qədər sadə və aydındır.**



1960-cı il təvəllüdlü, yəhudi əsilli Adam Bennett Şiff amerikalı siyasi xadim, 2001-ci ildən Demokratlar Partiyasından Konqresin üzvü, 2019-cu ildən isə Kəşfiyyat Komitəsinin sədri olub. 2023-cü ilin yanvarında bu postdan uzaqlaşdırılan ermənipərəst A.Şiff seçkidən-seçkiyə erməni lobbisinin dəstəyinə ümid edib. Konqresdəki karyerası fiaskoya uğrayan Şiff indi Kaliforniyadakı erməni lobbisinin köməyi ilə Senata yol tapmağı hədəfləyib. ANCA-nın haylara çağırışı onun bu istəyini gerçəkləşdirməyə hesablanıb.

*

Amma ANCA-nın "X" sosial platformada təşviqat paylaşımına verilən rəylər həmin Kaliforniya ermənilərinin heç də hamısının üzdəniraq konqresmeni dəstəkləmədiyindən xəbər verir. Onlardan bəzilərini oxucuların nəzərinə çatdıraq.

"RafiwithoneF" imzalı istifadəçi yazır: "Bilirəm ki, o, güclü siyasətçidir, yaxşı münasibətlərimiz var və biz əməkdaşlığı davam etdirmək istəyirik…"

Seçici, professor Cipollino bu şərhə imza atıb: "Mən Adamın əleyhinə səs verəcəm. Çünki Kaliforniya pisdir, sizsə axmaqsınız".

Özünü "pis erməni" kimi təqdim edən digər izləyici ANCA-nın başbilənlərinə maraqlı sual ünvanlayır: "Axı niyə ona səs verməliyəm? Sadəcə ona görə ki, hər il hesabat yazır? Mən beysbolçuya səs verəcəm".

Michael-Oj adlı "X" istifadəçisi isə Adamın konqresmen kimi fəaliyyətini tənqid edib: "Şiff Ermənistanın xeyrinə əlverişli şeylər danışa bilər. Amma siz valideynlər, eyni zamanda, uşaqlarınızın məktəbdə kütləvi iyrəncliyin və deqradasiyanın təbliğinə imkan verdiyinə görə ona etirazınızı bildirməlisiniz. Yox, biz onu dəstəkləməyəcəyik. Çünki Adam Senatda erməniləri təmsil etməyəcək".

"Azərbaycana sanksiya tətbiq edən və ya Artsaxı tanıyan mənasız qanun layihələrinin müəllifinə niyə səs verməliyik?". Bunu da erməni əsilli seçici Armen Morian yazıb.

*

İndi isə Adam Şiffin Konqresdə "yaddaqalan qanunvericilik fəaliyyəti"nin bəzi epizodlarına nəzər salaq. Keçən ilin fevral ayında ABŞ Prezidenti Co Baydenin Konqresin hər iki palatasına illik müraciəti zamanı ermənilərin veteran lobbisti Adam Şiff Ağ ev sahibini dinləmək üçün "DQR-in ABŞ-dakı daimi nümayəndəsi" Avetisyanı dəvət etmişdi. O, bununla düşünürdü ki, Bayden və Dövlət Departamenti, eləcə də ABŞ-dakı və dünyadakı erməni diasporunun nümayəndələri Avetisyanın qanunverici orqanda olmasını Konqresin "sülh tərəfdarı olmasının güclü siqnalı" kimi dəyərləndirəcəklər. Fəqət, ermənipərəst konqresmenin "bu mesajı" Konqresin divarlarını aşa bilmədi. Çünki, tarixin arxivinə göndərdiyimiz "dqr"ın psevdo-diplomatının mövcudluğu kimin vecinə olmalı idi ki?! Əslində, bu hərəkəti ilə beynəlxalq hüquqa saymazyanalıq göstərən amerikalı qanunverici Şiff həmkarlarını ərazi bütövlüyünü və suverenliyini bərpa edən və postmüharibə dövrünün sülh gündəliyinin müəllifi olan Azərbaycana qarşı "təsirli sanksiyaların" tətbiqinə çağırırdı. Təbii ki, onun bu sərsəm planı baş tutmadı.

Başabəla konqresmenin erməni lobbisinin "sifarişli müştərisinə" çevrildiyi şübhə doğurmur. Şiff hər fürsətdə Azərbaycanın ünvanına böhtanlar yağdırır, Ağ evi Ermənistanı dəstəkləməyə çağırır. İntəhası, ABŞ-da Şiff kimi özlərini əzabkeş ermənilərin, "məzlumun haqqının müdafiəçisi" sayanların adları indi ən çirkin əməllərdə, korrupsiyada hallanır. Adam Şiffin və ermənipərəst digər konqresmenlərin Azərbaycanın işğal olunmuş ərazilərində yaradılan qondarma rejimin yubileyi münasibətilə "təbrik məktubları" göndərmələrini də unutmamışıq. Uzun illər Birləşmiş Ştatlar Konqresində erməni lobbisinin qatı müdafiəçisi Frank Pelloni, Adam Şiff, Robert Dold, Bred Şerman kimi konqresmenlər, Barbara Bokser və Robert Menendes kimi senatorlar, eləcə də digərləri erməni lobbisinin pulu hesabına Azərbaycana qarşı qərəzli sifarişlərin icraçıları idilər. Onların bəziləri pis əməllərinin cəzasını çəkir, digərləri isə eyni aqibətlə üzləşəcəkləri günü gözləyirlər.

***İ.HƏSƏNQALA***
***XQ***

Zəfər marafonunun 37-ci günü

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Şanlı Vətən müharibəsi otuzillik işğala son qoyan parlaq Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər yürüşü Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.**

# Vətən müharibəsinin xronikası: 2 noyabr



• Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq, Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ, Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndlərini işğaldan azad edib. Bu barədə Prezident İlham Əliyev özünün "Twitter" hesabında bildirib.

• Prezident İlham Əliyev Türkiyənin keçmiş Baş naziri Binəli Yıldırımın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Qonaqları salamlayan Prezident İlham Əliyev deyib: "Çox sağ olun ki, gəlmisiniz. Biz bunu çox yüksək qiymətləndiririk. Bu, növbəti həmrəylik təzahürüdür. Əziz qardaşım, cənab Prezident dediyi kimi, Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu dönəmdə də birliyimiz daha da möhkəmləndi. Bildiyiniz kimi, indi Vətən müharibəsi gedir, yaxşı nəticələr var, bir çox şəhərlər, kəndlər işğalçılardan azad edilib. Demək olar ki, hər həftə Azərbaycan xalqına bu haqda məlumat verirəm. Bu gün də yeni kəndlərin işğaldan azad edilməsi xəbəri veriləcəkdir. Artıq ilkin məlumatlar gəlibdir. İnşallah, sona qədər bu haqlı davamızı davam etdirəcəyik, işğalçıları torpaqlarımızdan qovacağıq".

Dövlətimizin başçısı sözlərinə əlavə edərək Türkiyənin ilk saatlardan Azərbaycanın yanında olduğunu bildirib və qardaş ölkə rəhbərinin hər zaman Azərbaycanı dəstəklədiyini vurğulayıb: "Bu, çox önəmli bəyanatlar idi və bizə əlavə mənəvi dəstəyin göstərilməsi bir daha Türkiyə–Azərbaycan birliyinin təzahürüdür".

Prezident İlham Əliyev Binəli Yıldırıma müraciətlə qeyd edib ki, biz sizinlə bərabər bu tarixi birlikdə yaşamışıq. Yaxşı bilirik, nə qədər böyük səylər göstərildi ki, Türkiyə və Azərbaycan bir–birinə daha da yaxın olsun. Çox önəmli layihələrin, sizin də rəhbərlik etdiyiniz Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinin həyata keçirilməsi onların sırasında mühüm yer tutur. Bundan sonra digər layihələr də olacaq. İnşallah, bundan sonra da uğurlu işbirliyimiz davam edəcək.

Qəbulda Binəli Yıldırım deyib: "Təbii ki, Türkiyə olaraq biz Azərbaycanın bu haqlı mübarizəsində əvvəldən bəri daim onun yanındayıq. Dahi şəxsiyyət Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarını o gündən indiyədək davam etdiririk. Bilirik ki, Dağlıq Qarabağ məsələsində Siz yerdən göyə qədər haqlısınız. Çünki Azərbaycan bu müharibədə öz torpaqlarını işğalçılardan təmizləyir.

Azərbaycan 27 ildir davam edən bu işğala son qoyur, öz ərazilərinin azad olunmasını təmin edir. Buna görə Azərbaycan gecə–gündüz böyük vətənpərvərlik nümunəsi göstərərək hər gün qəhrəmanlıq dastanları yazır. Buraya gələrkən bir qədər əvvəl yenə bir xəbər oxudum, bir təyyarə məhv edilib".

Daha sonra Milliyətçi Hərəkət Partiyasının parlamentdəki fraksiyasının rəhbəri Cəlal Adan MHP-nin sədri Dövlət Baxçalının adından Prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.

• Noyabrın 1-i gün ərzində və 2-sinə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif silahlardan, o cümlədən artilleriya və raketlərdən atəşə tutub. Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, döyüş əməliyyatları əsasən cəbhənin Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edib.

Müdafiə olunan düşmən bölmələri cəbhənin bəzi istiqamətlərində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilib. Düşmənin silah,



sursat, ərzaq ehtiyatları tükənmək üzrədir. Avtomobil və digər hərbi texnika üçün ehtiyat hissələri çatışmır.

Sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 10 ədəd müxtəlif tipli topu, 3 ədəd sursatla dolu yük maşını və 5 ədəd digər avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.Hazırda qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

• Noyabrın 1-də gün ərzində Ermənistan-Azərbaycan dövlət sərhədinin Zəngilan rayonu sahəsində Ermənistan silahlı qüvvələrinin bölmələri hücum etməyə cəhd göstərib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, düşmən bu istiqamətdə bir sıra əlverişli yüksəklikləri ələ keçirmək məqsədilə minaatanlardan və müxtəlif iri çaplı silahlardan istifadə etməklə bölmələrimizin mövqelərini atəşə tutub.

Düşmənin hücuma keçmək niyyəti bölmələrimiz tərəfindən vaxtında aşkar edilib və həyata keçirilən uğurlu əməliyyat nəticəsində qarşı tərəf ciddi itkilərə məruz qalıb. Döyüş nəticəsində canlı qüvvə sarıdan 30-dək itki verən düşmən, Ermənistan ərazisinə çəkilməyə məcbur edilib.

Bölmələrimizin şəxsi heyətinin sayıqlığı nəticəsində mövqelərimizə havadan hücum edən düşmənin Su-25 döyüş təyyarəsi də məhv edilib.

• Ermənistan silahlı qüvvələrinin dörd ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, bir ədəd "KUB" zenit-raket kompleksi, daimi dislokasiya məntəqəsi, səngər və atəş mövqelərində yerləşən canlı qüvvəsi dəqiq zərbələrlə məhv edilib.

• Müdafiə Nazirliyi torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə iştirak edən qəhrəmanlarımızın göstərdikləri şücaətlər barədə videoçarx paylaşıb.

***XQ***

# Naxçıvana yol: Ermənistan razıdır, yoxsa…

(əvvəli 1-ci səhifədə)

Onu da bildirək ki, Ermənistanın Mirzoyanın dili ilə təsəvvürü yaradılmış yeni təklifinin təfərrüatları açıqlanmır. Ancaq baş nazir Nikol Paşinyanın ötən həftə Kazanda keçirilmiş BRICS sammiti zamanı bildirdiklərinə nəzərən, bəzi məqamlara aydınlıq gətirmək mümkündür. Nikolun sözlərindən gəlinən qənaət budur ki, Ermənistan Naxçıvana yol baxımından İranın Azərbaycana təklif etdiyi mexanizmin eynisinə razıdır. Əslində, Paşinyan əvvəllər də oxşar mövqe ilə çıxış etmişdi. İndi isə o, ölkəsinin sözügedən yolda sadələşdirilmiş mexanizmin təminatına hazır olduğunu qabardır. Ola bilər, A.Mirzoyan Bakının məhz bu təklifə müsbət reaksiyasının "yarı-rəsmi" mahiyyət daşıdığını önə çəkir.

***

Qeyd edək ki, Azərbaycan Naxçıvana yol məsələsində 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanat məntiqini əsas götürür. Daha doğrusu, bəyanatın 9-cu bəndini. Həmin bənddə isə göstərilir ki, Ermənistan Naxçıvana yolun maneəsizliyinə təminat verməlidir. Rəsmi Bakının mövqeyi ondan ibarətdir ki, sözügedən yolda heç bir gömrük və sərhəd nəzarəti olmamalıdır. Ermənistan rəhbərliyi isə həmişə ölkənin ərazi bütövlüyü və suverenliyi klişesinə söykənərək, etirazını bildirib, üstəlik, "Dünyanın kəsişməsi" ideyasını ortaya atıb. Bu ideya isə ölkəmizin Naxçıvana yola nəzərən irəli sürdüyü "Zəngəzur dəhlizi" təşəbbüsünə zidd mahiyyət daşıyır, Ermənistanı regional kommunikasiyaların açar fiquruna çevirir. Bakının durumla razılaşmayacağı bəllidir.

Bu səbəbdən Azərbaycan rəhbərliyi hələ 2022-ci ildə Naxçıvana Ermənistan vasitəsilə yol məsələsini gündəmdən çıxardı və İran variantının üzərində dayandı. Bununla əlaqədar anonsu Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev verdi. O, 2022-ci ildən sonrakı bir sıra açıqlamalarında da məsələ barədə söz açdı. Nəinki söz açdı, hətta nikbinlik yaratdı. Söhbət Bakı ilə Tehran arasında imzalanmış Anlaşma Memorandumu məsələsindəki nikbinlikdən gedir.

Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov isə "3+3" regional məşvərət formatının bu il oktyabrın 18-də İstanbulda




keçirilmiş görüşü zamanı bildirdi ki, ölkəmiz birgə layihələrin Naxçıvanı da əhatə etməsinə, xüsusilə İrandan keçərək, Şərqi Zəngəzur iqtisadi rayonumuz ilə muxtar respublikanı birləşdirən kommunikasiyaların tezliklə tamamlanmasına ümidvardır. Mövcud prizmadan da yanaşsaq, hazırda A.Mirzoyanın dediklərində təəccüb payı var.

İstənilən halda, Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən nəqliyyat kommunikasiyaları üçün sadələşdirilmiş gömrük rejiminə dair məsələnin maraq kəsb etməsi mümkündür. Axı, söhbət "Zəngəzur dəhlizi" layihəsinin reallaşmasından gedir. O layihədən ki, onu 44 günlük müharibədən sonra məhz Azərbaycan irəli sürmüşdü. Yəni, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatı həm də mövcud kontekstdə dəyərləndirmişdi. Ermənistanın buna qarşı çıxdığını isə artıq vurğuladıq.

Onu da deyək ki, rəsmi İrəvanın Naxçıvana yolla bağlı razılaşmaları pozması presedenti də var. Bunun sübutu üçün Azərbaycan, Rusiya və Ermənistanın baş nazirləri müavinlərinin birgə işçi qrupunun fəaliyyətinə diqqət yetirmək mümkündür. Rusiya tərəfinin açıqladığına görə, sözügedən qrupun iclasında Naxçıvana yol baxımından Ermənistanın yurisdiksiyası nəzərə alınmaqla, nəqliyyat tranziti ilə bağlı razılıq əldə olunmuşdu, ancaq son anda Ermənistan onu pozdu və beləliklə, üçtərəfli formatın fəaliyyəti dayandı.

Deməli, hazırda Mirzoyanın nikbinliyi bu baxımdan da təəccüblü sayılmalıdır. O zaman sual olunur: Görəsən, Ermənistan rəhbərliyinin baxışında nə dəyişib?

Qeyd edək ki, Ermənistanın Naxçıvana yolda sadələşdirilmiş gömrük və sərhəd rejiminin tətbiqinə razılıq verməsi də konstruktivlik təminatı, zəmanət və təhlükəsizlik deyil. Baxmayaraq ki, Paşinyan və komandasının üzvləri təhlükəsizliyə zəmanət verəcəklərini vurğulamaqdan yorulmurlar. İrana gəldikdə isə işğalla üzləşdiyimiz illərdə Azərbaycan vətəndaşları İslam Respublikasının ərazisindən keçməklə, rahat şəkildə Naxçıvana gediş-gəliş gerçəkləşdiriblər. Keçmişin təcrübəsi Bakı və Tehran arasında etimad formalaşdırır.

Yeri gəlmişkən, Azərbaycan hazırda İran ərazisindən keçəcək və Zəngilanın Ağbənd kəndindən başlayaraq, ölkəmizin digər ərazilərini Naxçıvanla birləşdirən alternativ nəqliyyat dəhlizi üzərində işləyir. İranlıların "Araz yolu" adlandırdıqları bu layihənin təfərrüatları bir müddət əvvəl Tehranda hər iki ölkənin dəmir yolu administrasiyası təmsilçilərinin iştirakı ilə reallaşmış danışıqların da mövzusu olub. Görüşdə tərəflər digər məsələlərlə yanaşı, konkret olaraq, Ağbənd stansiyasını Ordubadın Salam Məlik stansiyası ilə birləşdirəcək yeni dəmir yolu marşrutu ətrafında müzakirə apardılar. "Azərbaycan Dəmir Yolları" QSC-nin rəisi Rövşən Rüstəmov bildirib ki, İran ərazisindən keçəcək optimal marşrut, əsasən, razılaşdırılıb, hazırda Araz çayı üzərindən körpülərin yerləşdirilməsinə və dəmir yolu xəttinin marşrutuna dair danışıqlar yekunlaşır.

Deməli, Naxçıvana gedən qatarın yola düşmə vaxtının bir qədər də yaxınlaşdığını söyləyə bilərik. Bu durum yaşansa, müasir müstəqillik illərində Ermənistanın ikinci dəfə regional tranzitdən kənarda qaldığını görəcəyik. Nəzərə alaq ki, birinci dəfə İrəvan işğalçılığına görə "Bakı-Tbilisi-Ceyhan" əsas ixrac neft-boru kəmərinin imtiyazından uzaq düşdü, indi də bu. Nəzərə alaq ki, birinci dəfə Ermənistan Rusiyanın hesabına dolanırdı, indi ölkə Qərbin patronajlığı altındadır və aydındır ki, ikinci birincini saxlamaq üçün pul xərcləmək istəmir. Həm də ona görə ki, Ermənistanın investisiya imkanları yox dərəcəsindədir. Təbii sərvətləri də həmçinin.

***

Bəli, birinci dəfə udan Gürcüstan oldusa, görünür, ikinci dəfə İran udacaq. Hazırda yaşananlar avantürizmin, Azərbaycanla yola getməməyin İrəvanı düçar etdiyi acınacaqlı durumun, dalan aqibətinin ilkin simptomlarıdır. Böyük ehtimalla, İranla başlanılmış iş yarımçıq qala bilməz. Bəs rəsmi Bakı İrəvana şans verəcəkmi? Yaxud şans verəcəksə, bu, hansı tərzdə olacaq? Mirzoyanın açıqlaması, istər-istəməz, sadaladığımız suallar ətrafında düşünməyə vadar edir.

Əsas sual isə budur: Naxçıvana həm İran, həm də Ermənistan ərazisindən yol ola bilərmi? Görəsən, ikinci variant, birincinin əhəmiyyətini azaltmayacaq ki? Əlbəttə, razıyıq ki, məsələlər vurğuladığımız qədər sadə təbiətə malik deyil. Heç şübhəsiz, mürəkkəb məqamlar da var və olacaq. Hər bir halda, Azərbaycan diplomatiyasının prosesdən uduşlu çıxdığını deyə bilərik. Çünki İranla razılaşmanın hazırkı irəliləyiş sürətinə baxsaq, artıq Naxçıvana quru yolunun Ermənistanın razılıq ritorikasından uzaq düşdüyünü söyləmək mümkündür. Yəni, yol istənilən halda açılacaq.

***

Digər tərəfdən, Naxçıvana yol, həm də qlobal nəqliyyat marşrutunun tərkib hissəsidir, mühüm daşımaların keçəcəyi nöqtədir. O zaman həmin daşımaların həcminin artacağını düşünmək mümkündür. Məhz bu mümkünlük Ermənistana şans, ölkəmizə isə təminat verir. Əvvəla, İrəvan Bakının şərtlərini qəbul etmək məcburiyyətindədir. Böyük ehtimalla, Mirzoyanın açıqlaması bunun göstəricisidir. İkincisi, İran variantı özü qlobal marşrutun təhlükəsizlik təminatıdır. Əgər hər iki layihə gerçəkləşsə, həm İrandakı anti-Azərbaycan qüvvələr, həm də Ermənistandakı başıpozuq avantüristlər razılaşmalı olacaqlar. Beləliklə, region üçün əməkdaşlıq ənənəsi formalaşacaq ki, bu isə uzunmüddətli sülh və sabitlik, habelə, davamlı iqtisadi inkişaf baxımından vacibdir.

Sonda onu da deyək ki, başlıca məsələ Azərbaycan vasitəsilə Naxçıvana, oradan Türkiyəyə və Qərbə, ölkəmizin ərazisindən Rusiyaya daşımaların həyata keçirilməsi, Xəzər dənizi ilə Mərkəzi Asiya dövlətlərinin birbaşa nəqliyyat əlaqəsinin yaradılmasıdır. Bu, regiona ənənəvi bağlılıq amilini əsas götürən Türkiyə üçün sərfəlidir. Amma həddindən artıq optimizm üçün, kifayət qədər, əsas yoxdur. Birincisi, Rusiyanın və İranın anti-türk dairələrinin aktivləşməsi amili var. İkincisi, Qərbin haqqında söz açdığımız məsələyə reaksiyasını da unutmamalıyıq.

Qərbin, konkret olaraq, ABŞ-nin Naxçıvana yolun İrandan keçməsinə qarşı çıxdığını bilirik. Ənənəvi imperiya ambisiyaları bir kənara qoyulsa, Moskvanın və Tehranın barəsində söz açdığımız ikili marşrutdan faydalanma imkanları böyükdür. Deməli, Ermənistan rəhbərliyinin mövqeyi ölkənin özü baxımından həlledici olmalıdır. İrəvan pul qazanmaqla, ələ baxan olmaq, avantürizmə çevrilmək arasında seçim etməlidir. Bu, Azərbaycanın Naxçıvana yol məsələsindəki şərtini qəbul etməkdən asılıdır. Daha dəqiq desək, barəsində danışdığımız sərhəd və gömrük nəzarəti olmayan yolun təminatından.

Bir vacib məqam da var. Söhbət xəyali ikili marşrut ideyasının Qərb cəbhəsinə təsirindən gedir. Prinsipcə, ortada Avropanı qane edəcək durum var. Axı Şərqin ucuz malları ona doğru yön alacaq. Bəs ABŞ? Hadisələr qeyd etdiyimiz səmtdə inkişaf etsə, itirən yalnız Birləşmiş Ştatlar olacaq. Proqnozlaşdırmaq mümkündür ki, Avropanın qlobal tranzitdən qazanacağı üstünlük şəraitində Vaşinqtonun ona təsir rıçaqları zəifləyəcək. Axı, deyəsən, hadisələr həm də buna doğru gedir.

*Ə.CAHANGİROĞLU*
*XQ*

# İrəvanı sülhdən yayındıran həm də kənar müdaxilələrdir

(əvvəli 1-ci səhifədə)

Digər tərəfdən, nəzərə almaq lazımdır ki, iki ölkə lideri arasında görüşlər xeyli vaxtdır keçirilmirdi. Daha doğrusu, Kazan görüşü Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyan arasında son 8 ay ərzində baş tutan ilk görüş idi. Daha əvvəl ölkə liderlərinin iyulun 18-də Londonda keçirilən Avropa Siyasi Birliyinin IV Sammiti və oktyabrın 8-də isə Moskvada Müstəqil Dövlətlər Birliyi Dövlət Başçıları Şurasının iclası çərçivəsində görüşmək imkanları olsa da, bu, alınmamışdı.

Kazan görüşündən bir gün sonra – oktyabrın 24-də həm Azərbaycan Prezidenti İlham Əliyev, həm də Ermənistan prezidenti Vaaqn Xaçaturyan "Ermənistan və Azərbaycan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistanla Azərbaycan arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın birgə fəaliyyəti haqqında Əsasnamə"ni təsdiq etdilər.

Prosesdə irəliləyiş əldə olunduğunu iki ölkənin xarici işlər nazirlərinin son açıqlamaları da təsdiqləyir. Oktyabrın 31-də Ermənistan parlamentində çıxış edən xarici işlər naziri Ararat Mirzoyan deyib: "Ehtiyatlı nikbinliklə demək istəyirəm ki, yaxın gələcəkdə biz razılaşdırılmayan bir və ya iki bənd üzrə razılığa gələ biləcəyik. Beləliklə, tam razılaşdırılmış sülh müqaviləsi əldə edəcəyik".

Yeri gəlmişkən, qeyd edək ki, digər bir mühüm məqam Ermənistanın Türkiyə ilə münasibətlərinin normallaşması istiqamətində müəyyən addımların atılmasıdır. Sentyabr ayında keçirilən BMT Baş Assambleyasının 79-cu sessiyası çərçivəsində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Nikol Paşinyan arasında görüş baş tutmuşdu. Görüş Nyu–Yorkdakı Türk evində keçirilmiş və Paşinyanın əleyhdarları onu "Ərdoğanın ayağına getməkdə" ittiham etmişdilər. Aşkar görünür ki, İrəvan Ankara ilə münasibətləri də qaydaya salmağa çalışır. Elə A.Mirzoyanın açıqlaması da bundan xəbər verir: "Ermənistan Türkiyə ilə dinamik və müsbət dialoq aparır. Heç kəsə sirr deyil ki, Türkiyə Ermənistanla münasibətlərin normallaşması prosesini Ermənistan–Azərbaycan prosesi ilə əlaqələndirir. Fikrimizcə, bu o qədər də konstruktiv yanaşma deyil. Ermənistan Türkiyə ilə ilkin şərt olmadan dialoq aparır.

O, yaxın gələcəkdə Ermənistan–Türkiyə münasibətlərində irəliləyiş olacağına nikbinliklə yanaşmışdı. Qondarma "erməni soyqırımı"nın beynəlxalq səviyyədə tanınması məsələsinin Ermənistan xarici işlər nazirliyinin gündəliyində olub-olmaması ilə bağlı suala Mirzoyan belə cavab vermişdi: "Bu məsələ Ermənistanın xarici siyasət gündəmində prioritet deyil. Tarixin faciəvi dəliklərini, "erməni soyqırımı"nı öyrənmək və ya bunu bir nömrəli prioritet etmək, əlbəttə ki, XİN-in gündəliyi deyil".

Bu çərçivədə xarici işlər naziri Ceyhun Bayramovun oktyabrın 31-də Böyük Britaniyanın Avropa, Şimali Amerika və dənizaşırı ərazilər üzrə dövlət naziri Stiven Dauti ilə telefon danışığı zamanı səsləndirdiyi fikirlər diqqəti cəlb edir. C.Bayramov qarşı tərəfi Azərbaycanın bölgəmizdə dayanıqlı sülhün təsis edilməsi üzrə baxışları, bu istiqamətdə atılan praktiki addımlar, habelə Ermənistanla sülh prosesi barədə ətraflı məlumatlandırıb. Azərbaycanın təşəbbüskarı olduğu sülh sazişi üzrə danışıqlar prosesində ciddi irəliləyişin olduğu, ümumilikdə, layihənin razılaşdırılması üzrə iş aparıldığı, eyni zamanda, Ermənistan konstitusiyasında ölkəmizə qarşı ərazi iddialarının prosesdə əsas maneə təşkil etdiyi diqqətə çatdırılıb.

Nəhayət, bu istiqamətdə atılan son addım noyabrın 1-də iki ölkə arasındakı sərhəddə Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi altında Dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın onuncu görüşünün keçirilməsidir. Görüşün yekunlarına dair mətbuat üçün açıqlanan məlumatda bildirilib ki, tərəflər növbəti mərhələdə delimitasiya işlərinin həyata keçirilməsi üçün sərhəd xəttinin sahələrinin hissələrinin ardıcıllığı məsələsi ətrafında fikir mübadiləsi apardılar. Tərəflər delimitasiya işlərinin görülməsinin qaydası üzrə müvafiq təlimatların layihələrini müzakirə edirlər. Həmçinin, növbəti görüşün keçirilməsinin tarixinin və yerinin işçi qaydada müəyyən edilməsi barədə razılıq əldə olunub. Komissiyaların görüşü başa çatdıqdan sonra Ş.Mustafayev və M.Qriqoryan ayrıca olaraq nəqliyyat kommunikasiyası məsələlərini müzakirə ediblər.

Göründüyü kimi, xarici müdaxilələr olmasa, Azərbaycan və Ermənistan bütün məsələlər, o cümlədən sülh sazişi üzrə də



razılaşmanı çox yaxında başa çatdıra bilərlər. Sülhə gedən yol məhz sərhəddə hər hansı vasitəçinin iştirakı olmadan görüşlərin keçirilməsi ilə başlayır. Sərhədlərin müəyyənləşdirilməsi sülh sazişinin razılaşdırılmasına töhfədir.

Amma Fransa kimi dövlətlər prosesi pozmaq istiqamətində fəaliyyətlərinə bir an da fasilə vermirlər. Elə Fransanın Ermənistandakı səfiri Olivye Dekotininin bir neçə gün öncə "Hetq" media qurumuna müsahibəsində Azərbaycan əleyhinə bir sıra iddialar səsləndirməsi də bunun göstəricisidir. Bu müsahibə ən adi diplomatik etiket qaydalarına əməl etməyi bacarmayan səfirin Ermənistan–Fransa münasibətlərindən daha çox Azərbaycan əleyhinə qarayaxma kampaniyasına köklənməsinin yeni bir nümayişi oldu. O, Qafan rayonundakı Aşağı Hand (haylar Nerkin Hand deyirlər – S.H.) kəndinin bir hissəsinin Azərbaycan tərəfindən tutulduğunu iddia edib: "Biz bunu görürük və bu vəziyyət sakinlər üçün böyük çətinliklər yaradır. Azərbaycanlıların yenidən zərbə endirə biləcəyi ilə bağlı təhlükəsizlik problemi var".

Buna baxmayaraq, səfir siyasi gediş edərək ölkələr arasında başlanmış demarkasiyanın tərəfdarı olduqlarını bildirib. Deyib ki, delimitasiya prosesi Alma-Ata Bəyannaməsinə əsaslanmalıdır.

ABŞ isə Azərbaycan və Ermənistanın sərhədlərin delimitasiyası ilə bağlı prosedur qaydaları rəsmiləşdirmək qərarını alqışlayıb. Bu barədə Dövlət Departamentinin sözçüsü Metyu Miller "X" platformasındakı hesabında yazıb. Onun sözlərinə görə, bu qərar davamlı dialoq vasitəsilə tərəqqinin mümkün olduğunu nümayiş etdirir: "Biz regionda təhlükəsizlik və rifah naminə davamlı və layiqli sülhə nail olmaq üçün hər iki tərəfin fəaliyyətini dəstəkləyirik".

**Politoloq Yeganə Hacıyeva** XQ-yə açıqlamasında bildirdi ki, noyabrın 1-də keçirilən görüş sayca onuncu olsa da, məhz dövlət sərhədinin müəyyənləşməsinin əsasnaməsinin müəyyən olunmasından və müəyyən edilmiş əsasnamənin hər iki ölkədə yüksək səviyyədə təsdiqlənməsindən sonra keçirilən ilk görüş idi.

Onun sözlərinə görə, əsasnamə 2024-cü il avqustun 30-da imzalanmışdı. Bunun ardınca, yəni sentyabrın 26-da Ermənistan konstitusiya məhkəməsi komissiyaların işi haqqında əsasnamə (reqlament) layihəsinin ölkənin əsas qanununa uyğunluğunu tanımışdı: "Məlum olduğu kimi, Ermənistan parlamentinin təsdiqindən sonra ölkə prezidenti də sənədi təsdiqlədi. Azərbaycanda da buna bənzər proses getdi. Ermənistanla eyni gündə – oktabrın 24-də Azərbaycan Prezidenti əsasnaməni təsdiqlədi. Yəni, bu əsasnamə, əslində, Ermənistanla Azərbaycan arasında dövlət sərhədinin müəyyənləşməsinin ilk ikitərəfli legitim sənədidir. Buna qədər 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli razılaşma və onun əsasında formalaşmış ikitərəfli komissiyanın müəyyən təkliflər, razılaşmalar və kompromislər əsasında həyata keçirdiyi fəaliyyətlər var idi. İndi isə konkret sənəd var. Həmin sənəd məhz reqlament qaydalarını, prosessual qaydaları tənzimləyir".

Y.Hacıyeva bildirdi ki, noyabrın 1-də komissiyaların görüşü başa çatdıqdan sonra iki ölkənin baş nazirlərinin müavinləri ayrıca olaraq nəqliyyat kommunikasiyaları məsələlərini müzakirə ediblər. Azərbaycan özü nəqliyyat kommunikasiyalarının açılması məsələsini sülh sazişindən çıxarmışdı: "Bunun üçün bir sıra əsaslar var idi. Ən birincisi əsas Azərbaycan tərəfinin beynəlxalq hüquqa hörməti idi. Çünki kommunikasiyaların keçdiyi ərazilər beynəlxalq hüquqa görə Ermənistanın suveren əraziləri hesab olunur. Ermənistanın suveren əraziləri üzərində qərarın İrəvan tərəfindən verilməsi Azərbaycanın beynəlxalq hüquqa hörmətinin növbəti dəfə nümayişi



idi. Baxmayaraq ki, üçtərəfli bəyanatda İrəvanın Zəngəzur dəhlizinin açılması ilə bağlı öhdəlik və məsuliyyəti qeyd edilib".

Müsahibimiz onu da bildirdi ki, daha çox irəliləyiş nəqliyyat kommunikasiyalarının açılması ilə bağlıdır. Çünki rəsmi İrəvan bunda maraqlıdır. Nəqliyyat kommunikasiyalarının açılması həm də iqtisadi layihədir. Bu layihələrdən əldə ediləcək gəlirlər bu gün Ermənistan üçün çox vacibdir.

Bundan sonrakı mərhələdə sərhədin hansı hissəsində delimitasiya prosesinin aparılmasının gözlənildiyinə dair sualımıza cavab olaraq Y.Hacıyeva qeyd etdi ki, mübahisəsiz və mübahisəli ərazilər var. Qarşı tərəfdə müəyyən dairələr Qazax rayonunun anklav kəndlərini və Sədərək rayonunun Kərki kəndini mübahisələndirmək istəyir. Amma bu ərazilərdə dövlət sərhədinin müəyyən edilməsinin prosessual qaydaları təsdiqlənib. İndi sadəcə olaraq, bu qaydaların həyata keçirilməsinə nəzarət lazımdır ki, proses, ümumilikdə, irəli getsin və iki ölkə arasında sülhə aparan yolda növbəti irəliləyiş kimi dəyərləndirilsin.

*Səxavət HƏMİD*
*XQ*

# Okampoların "ağıllanma mövsümü" başlanıbmı?

## *Yaxud Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş ermənipərəst prokurorunun etirafının səmimiyyət dozası barədə*

**Azərbaycan əleyhinə çoxsaylı hesabatları, yalan və həqiqəti təhrif edən bəyanatları ilə tanınan Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş prokuroru Luis Moreno Okamponun maraqlı etirafı Ermənistanda gündəmə çevrilib. Bu, həmin Okampodur ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasını – COP29-u boykot çağırışı ilə çıxış etmişdi. Uzun illər ermənipərəst, ikiüzlü fəaliyyəti ilə Şərə xidmət edən argentinalı hüquqşünasın bu jesti müəyyən suallar doğurub. Doğrudanmı eks-prokurorun vicdanı oyanıb və onun kimilərin "ağıllanma mövsümü" başlanıb?**



Mətləbə keçək. Alman jurnalistin suallarını cavablandıran zaman Luis Okampo ilk dəfə olaraq Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı faktını açıq şəkildə etiraf edib. Adı yerli mediada haqlı olaraq avantürist, rüşvətxor, erməni lobbisinin muzdlu xidmətçisi kimi hallanan BCM-nin keçmiş prokuroru Luis Moreno Okamponun jurnalistin "Artsax Respublikası"nın legitimliyi barədə verdiyi suala gözlənilməz cavabı isə hayları əməlli-başlı heyrətləndirib. O, müzakirə predmeti olan ərazilərdə tarixən azərbaycanlıların üstünlük təşkil etdiyini vurğulayıb: "Ermənistanın torpaqları da Azərbaycan ərazisi olub və bu həqiqətdir. Ermənistan Azərbaycana məxsus əraziləri işğal edib. Doğru olanı budur".

Azərbaycan əleyhinə çoxsaylı bəyanat və qərarların, qərəzli hesabatların müəllifi, adı korrupsiya qalmaqallarında keçən keçmiş baş prokuror, hüquqşünas Luis Moreno Okampo, deyəsən, gec də olsa özünü "vicdan testi"ndən keçirmək qərarına gəlib. Amma hələlik bu qənaətə gəlməyə tələsməməliyik. Çünki adı dəfələrlə qalmaqallarda hallanan argentinalı hüquqşünasın bu açıqlaması Azərbaycana deyil, erməni sponsorlarına ünvanladığı ismarıc kimi qəbul edilməlıidir. Bəli, o, ilk dəfədir ki, Ermənistanın Azərbaycan torpaqlarını uzun müddət işğalda saxladığını etiraf edib. Görünür, rüşvətxor hüquqşünas əlinə düşən növbəti fürsəti qaçırmaq istəmir və erməni lobbisindən daha çox pul qoparmaq fikrinə düşüb. Bu istəyi təmin edilməyəcəyi təqdirdə Okampo Ermənistanı işğalçı dövlət adlandırmaqda davam edəcək. Axı, indi, o, Bakıda həbsxanada saxlanılan separatçıların, hərbi cinayətkarların azad olunması üçün başladılan kampaniyanın ön sıralarında yer almalıdır.

* * *

BCM-nin eks-prokurorunun sentyabrın 13-də İrəvanda keçirdiyi mətbuat konfransında həmin adamların azadlığa buraxılması məsələsinin COP29 sammitinin gündəliyinə daxil edilməsinin vacibliyi barədə avantürist bəyanatı səsləndirəndə məhz qonorarının həcminin artırılmasını hədəflədiyi şübhə doğurmamalıdır. Qarabağdan könüllü köçüb getmiş erməniləri "etnik təmizləmə qurbanı" kimi qələmə verən Luis Okampo yeni açıqlaması ilə həm də özü-özünü ifşa edib. Çünki Ermənistanın Azərbaycan ərazilərini işğal etdiyini söyləyən argentinalı hüquq alverçisi bununla Qarabağdan köçənlərin də həmin işğalda iştirakını etiraf etmiş olur.

İlk baxışda Luis Moreno Okamponun etirafı gözlənilməz və maraqlı mövqe dəyişməsi effekti sayıla bilər. Amma bu dönüşün səmimiyyət dozasının hansı miqdarda olduğu yaxın vaxtlarda üzə çıxacaq. Bugünədək erməni lobbisinə sidq-ürəklə qulluq edən, vicdanı ilə bərabər məsləyini də "hərraca qoyan" BCM-nin keçmiş prokurorunun "gecikmiş etirafı" nədənsə yadımıza dahi Üzeyir Hacıbəyovun "O olmasın, bu olsun" filmindəki ziyafət səhnəsini saldı. Qeyri-ixtiyari beynimizdə Rüstəm bəyin qonaqlara üzünü tutaraq söylədiyi "Məşədi İbadla qohumluğu özüm üçün..." sözlərinə qəzetəçi Rza bəyin "pul dağarcığı hesab edirəm" gizli replikası ilə Okamponun "sensasion" açıqlaması arasında paralellər aparıldı. Etiraf edək ki, eks-prokurorun bu açıqlamasını nəinki Azərbaycanda, hətta Ermənistanın özündə heç kəs gözləmirdi. Axı, Ermənistan–Azərbaycan münaqişəsinin tarixi kökləri və səbəbləri barədə kifayət qədər məlumatlı olmasına baxmayaraq, Okampo azı son dörd ildə Xankəndidəki xunta rejiminə aşkar dəstək verməklə hay sponsorlarının Azərbaycanı ləkələmək sifarişlərini sədaqətlə icra edib. Deməli, rüşvətxor hüquqşünası maraqlandıran heç də erməni məsələsi deyil. Onun üçün pul ermənidən daha qiymətlidir və etirafın Bakıda keçiriləcək COP29 ərəfəsində edilməsi təsdadüfi sayıla bilməz.

Ümumiyyətlə, Luis Okamponun peşəkar fəaliyyətində anti-Azərbaycan xətti xüsusi çəkiyə malikdir. Məsələn, o, uzun müddət, həm də davamlı olaraq "Qarabağda erməni soyqırımı" yalanını təbliğ edib. 2023-cü ilin yayında Okampo indi Bakıda həbsxanada məhkəmənin hökmünü gözləyən separatçı rejimin liderlərindən biri, hərbi cinayətkar Araik Arutyunyanın sifarişi ilə "Qarabağda soyqırımı" hesabatını tərtib edib. Bundan bir qədər sonra, həmin ilin dekabrında "Dağlıq Qarabağ xalqının soyqırımı haqqında" adlı ikinci hesabatını dərc etmişdir. Qeyd edək ki, sifarişli hesabatlarda Qarabağdakı "humanitar fəlakət"lə bağlı saxta məlumatlar toplanılmaqla yanaşı, həmçinin Azərbaycana qarşı qara piar hücumları da öz əksini tapıb.

* * *

Luis Okamponun və erməni lobbisinin ciddi səylərinə baxmayaraq, bu iki çirkin hesabat gözlənilən uğuru qazanmadı. Üstəlik, beynəlxalq hüquq üzrə aparıcı mütəxəssis, tanınmış ekspert, "Temple Garden Chambers" hüquq firmasının məsləhətçisi Rodney Dikson tərəfindən darmadağın edildi. R.Dikson Okamponun hesabatlarında irəli sürdüyü iddiaların qərəzli və yanlış olduğunu sübuta yetirdi. Onun fikrincə, Moreno Okamponun hesabatda göstərdiyi fakt və arqumentlər əsassız və saxtadır, başdan-ayağa qeyri-dəqiqliklə doludur. "Azərbaycanın Qarabağ bölgəsində soyqırımı törədilir" kimi mülahizələrin tamamilə əsassız olduğunu sübuta yetirən Dikson onu da qeyd etdi ki, Okamponun gəldiyi nəticə faktlara açıq seçmə üsulunun, qərəzli yanaşmanın bəhrəsidir. Buna baxmayaraq, bədnam keçmiş prokuror erməni lobbisinin "himayəsində" qalmaqda davam etdi, anti-Azərbaycan fəaliyyətindən əl çəkmədi.

Son vaxtlar isə COP29 ərəfəsində dünya ermənilərinin Azərbaycan əleyhinə təbliğat tezislərini yaymaq, qarayaxma kampaniyasını genişləndirmək üçün "icarəyə götürdüyü" əsas təbliğat ruporu məhz Okampodur. Oxuculara xatırladaq ki, ermənipərəst şəbəkə məlum kampaniyaya cari ilin iyununda başlayıb və sistematik olaraq ölkə və beynəlxalq təşkilatları, dünya ictimaiyyətini COP29-u boykot etməyə çağırır. Kampaniyanın əsas məqsədi ölkəmizin nüfuzunu aşağı salmaq, BMT-nin nüfuzlu iqlim sammitinin Bakıda keçirilməsinin qarşısını almaq, bu tədbirdən Azərbaycana siyasi təzyiq vasitəsi kimi istifadə etməkdir. Bakıda istintaq altında olan erməni əsilli hərbi cinayətkarların azad edilməsinə nail olmaq isə xüsusi paraqrafda yer alır. Cəmi bir ay bundan əvvəl onun yalanlardan ibarət cızmaqaralarla dolu "Müharibə və yaxud ədalət məhkəməsi: cəzasızlığın sona çatdırılması" kitabı dərc olunub. Başdan-ayağa erməni terrorizmi və separatizminin qoxusu gələn həmin nəşrdə bir il əvvəl tarixin arxivinə göndərdiyimiz keçmiş "DQR"-ə açıq dəstək nümayiş etdirilir.

Və bütün bunların fonunda Luis Okampo tərəfindən, ilk baxışda, gözlənilməz etiraf edildi: Ermənistan Azərbaycan ərazilərini işğal edib. Amma onun etirafının ardını gətirməyə, bugünədək hazırladığı və dövriyyəyə buraxdığı hesabat və bəyanatları erməni lobbisinin puluna görə etdiyini söyləməyə cəsarəti çatmadı. Axı, onun özü də yaxı bilir ki, "qurban" adlandırdığı şəxslər, əslində, işğalçılar idi. Bunu demir. Ona görə də Okamponun etirafı ilə bağlı illüziyaya qapılmağa dəyməz. Təcrübə göstərir ki, pula satılanlar daha çox pul xatirinə əvvəlki sözlərindən, inanclarından əl çəkməyə hazırdırlar. Yoxsa, Okampo "səxavətli" erməni lobbisi üçün istifadə müddəti başa çatmış məhsula, "dəfnə yarpağı"na çevrildiyini anladığından bəsirət gözünü açıb həqiqətin üzünə baxmağa qərar verib? Buna inanmaq çox çətindir...

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi



**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq:**

– Okamponun bu günə qədər kor və kar olduğuna inanmıram. Tamamilə əminəm ki, o, həqiqəti lap əvvəldən bilib. Çünki bu səviyyədə olan hüquqşünas və siyasətçilər reallığı bilməyə məcburdurlar. Sadəcə olaraq, nəyinsə müqabilində bildiyi reallığı qəbul və həzm etmək istəmir. Hesab edirəm ki, indi onun narazılığının səbəbi Azərbaycanın öz torpaqlarını azad etməsidir. Və bunu özümüz, kənardan heç bir kömək istəmədən həyata keçirmişik. Bu baxımdan Okamponu başa düşmək olar. O, çox güman ki, bu xarakterli açıqlamaları ilə kimlərinsə diqqətini özünə cəlb etməyə çalışır. Yəni, daha zəngin dairələrin nəzərinə çatdırmaq istəyir ki, hələ də onların, ermənilərin tərəfindədir. Bunun üçün də hesabına köçürülən məbləğin miqdarını artırmaq məqsədini güdür.

Həmin Okampodan bir məsələni aydınlaşdırmasını xahiş etmək lazımdır. O, Azərbaycan tərəfindən Ermənistanın hansı torpaqlarının işğal edildiyini xəritədə göstərsin. Desin hansı şəhər, kənd və məntəqələr bizim nəzarətimizdədir? Böyük ehtimalla Okampo bunun həqiqət olmadığını yaxşı bilir. Əgər həmin əraziləri göstərə bilsə, başqalarının da əlinə əlavə fakt vermiş olar. Axı, o, mövcud olmayan faktı necə ortaya çıxara bilər? Ona görə də ermənipərəst hüquqşünasın bu cür açıqlamalarına inanmağı sadəlövhlük sayıram.




# Gürcüstan parlamenti prezidentsiz də ilk iclasını keçirəcək

**Gürcüstanda keçirilən parlament seçkilərindən 8 gün keçib. Parlamentin ilk iclasının tarixi isə məlum deyil. Qanuna görə, Mərkəzi Seçki Komissiyası seçkilərin nəticələrini rəsmən təsdiqlədikdən sonra ölkə prezidenti yeni parlamentin ilk iclasının tarixini təyin etməlidir. Amma Prezident Salome Zurabişvili müxalifətə dəstək verdiyindən bunu etmək istəmir. Bəs indi nə etmək lazımdır? Bu və digər məsələlərə Gürcüstan Azərbaycanlıları Ağsaqqallar Şurasının sədri İsak Novruzov aydınlıq gətirirdi.**

**– "Gürcü Arzusu–Demokratik Gürcüstan"ın apardığı siyasəti seçicilər dəstəklədilər. Bu parlament seçkilərində qələbənin əsas səbəblərindən biri oldu. Yeni seçilən deputatlar arasında azərbaycanlılar da var.**

– Gürcüstanda XI çağırış parlament seçkilərində 19 siyasi partiya iştirak etdi. Bu seçkilər müharibənin və sülhün taleyinin həll olunduğu bir növ referendum idi. 1 milyon 120 min soydaşımız "Gürcü Arzusu"nun təklif etdiyi siyasəti dəstəklədi. Seçicilər sülhün lehinə seçim etdilər. Çünki onlar Rusiyaya qarşı ikinci cəbhənin açılmasını, Ukraynaya könüllü döyüşçülərin göndərilməsini, Gürcüstanın Rusiyaya qarşı sanksiyalara qoşulmasını istəmirdilər. Təzyiqlərə baxmayaraq, Gürcüstan hakimiyyəti ölkənin maraqlarını qoruya bildi. Unutmayaq ki, Rusiya hərbçiləri Tbilisidən cəmi 40 kilometr məsafədə yerləşir.



Bundan başqa, iqtidar Qərbin təzyiqi ilə "Xarici təsirin şəffaflığı haqqında" Qanundan da imtina etmək istəmir. Hətta, bu, Avropa İttifaqına inteqrasiyanı çətinləşdirsə belə. "Gürcü Arzusu"nun apardığı bu siyasət seçicilər tərəfindən dəstək gördü və parlament seçkilərində qələbənin əsas səbəblərindən biri oldu.

Yeni parlamentdə azərbaycanlılar da təmsil olunurlar. Mənim təmsil olunduğum "Gürcü Arzusu"dan 2 nəfər qanunverici orqana seçilib. İnanıram ki, Zaur Dərğallı və Savalan Mirzəyev parlamentdə azərbaycanlıları layiqincə təmsil edəcəklər. Müxalifət partiyalarından isə Oqtay Kazımov parlamentə üzv seçilib.

**– Gürcüstan Prezidenti Salome Zurabişvili müxalifətə dəstək verir. O, parlament seçkilərində total saxtakarlıq olduğunu bildirdi.**

– Əlbəttə, Salome Zurabişvili haqsızdır. Gürcüstanda parlament seçkilərinin elektron qaydada keçirməsinin tərəfdarlarından biri də dövlət başçısı idi. O deyirdi ki, parlament seçkilərində heç bir saxtakarlığa yol verilə bilməz. Müxalifət partiyaları da eyni fikirdə idilər. Amma seçkidə iqtidar partiyası qalib gəldikdən sonra, dövlət başçısı fikrini dəyişərək müxalifətə haqq qazandırdı, onların xeyrinə damışmağa başladı. O, seçkilərdə total "saxtakarlığın" baş verdiyini iddia edərək MSK-nın nəticələrini tanımadığını bildirdi. Bununla da o, müxalifətlə birləşərək ölkədə gərginliyin yaranmasının faktiki iştirakçısı oldu.

Baş Prokurorluq prezidenti ifadə verməyə çağırsa da, Zurabişvili bundan imtina etdi. Dəstəklədiyi müxalifət partiyaları da prokurorluqla əməkdaşlıqdan imtina etdilər. Onların saxtalaşdırma ilə bağlı bütün ittihamları isə dezinformasiyadır. "Gürcü Arzusu"nun liderləri hər gün brifinqlər keçirir, hər bir ittihamla bağlı şərhlər verirlər. Bu vaxta qədər Gürcüstan Prokurorluğu, Daxili İşlər Nazirliyi və Xüsusi İstintaq Xidməti seçkiqabağı dövrdə və səsvermə günü törədilmiş cinayətlərlə bağlı 47 cinayət işini araşdırır. Bunlar xırda qanun pozuntularıdır.

Mənim fikrimcə, Prezident neytral mövqedə qalmalı idi. Əslində, Salome Zurabişvilinin istintaqa deməyə sözü yoxdur. O, məyus olub, 6 il müddətinə prezident vəzifəsində qalmaq istəyirdi, lakin ümidləri puç oldu. Hazırda çıxış yolu axtarır. Onun vəzifəyə gəlməsində "Gürcü Arzusu" əsas rol oynamışdı. Amma sonda başqa yolu seçdi. Artıq bu dəstəyi də itirib.

Salome Zurabişvilinin haqsız olduğunu sübut edən başqa faktlar da var. Məsələn, Qərb müşahidəçilərinin hesabatları seçkilərin legitimliyini bəyan edib. Avropa siyasətçiləri tərəfindən Gürcüstan vətəndaşlarına seçkiqabağı hədə-qorxuları isə yalnız səsverməyə təsir etmək cəhdi idi. Onların cəhdi də uğursuzluğa düçar oldu. Sonda "Gürcü Arzusu"nun qələbəsini etiraf etməli oldular. Bu da Salomeni çıxılmaz vəziyyətə saldı.

Onun bir çıxış yolu var; Baş prokurorluğa dediklərini təsdiq edən faktlar təqdim etməlidir. Çünki konkret ittiham irəli sürüb.

**– Prezident yeni parlamentin ilk iclasının tarixini elan etməlidir. O, müxalifətin mövqeyini dəstəklədiyindən bu, real görünmür.**

– Qanunda qeyd olunur ki, Mərkəzi Seçki Komissiyası seçkilərin nəticələrini rəsmən təsdiqlədikdən sonra, ölkə prezidenti yeni parlamentin ilk iclasının tarixini təyin etməyə borcludur. Bu, rəsmi nəticələr elan edildikdən sonra on gün ərzində baş tutmalıdır. Əgər prezident iclasın tarixini təyin etməsə, konstitusiyanı pozmuş olacaq.

Parlamentin prezidentsiz iclas keçirməsinə heç nə mane olmur. Yəni prezidentsiz belə, parlament toplaşacaq. Bunun üçün iclas salonunda 150 deputatın 76-sı iştirak etməlidir. İqtidar partiyasının isə 89 deputatı var.

Qanunverici orqanın işinə mane olmaq cəhdlərinin qarşısı isə qanuna uyğun şəkildə alınacaq. Vəziyyət gərginləşərsə, təhlükəsizlik qüvvələri parlamentin qarşısındakı küçəni etirazçılardan asanlıqla təmizləyə və hakim partiyanın deputatlarının parlamentə rahat daxil olması üçün təhlükəsizlik dəhlizi yarada bilər.

**– Parlamentə daxil olan 4 müxalifət bloku və partiyadan 3-ü noyabrın 4-də Tbilisinin mərkəzində etiraz aksiyası keçirmək niyyətindədir. Müxalifət bununla nəyə nail olmaq istəyir?**

– Birləşmiş müxalifət bu yaxınlarda keçirilən toplantısında mitinq keçirmək qərarına gəlib. Etiraz aksiyası noyabrın 4-nə, bazar ertəsi gününə planlaşdırılıb və Tbilisidə parlamentin binası yaxınlığında keçiriləcək. Onlar hakim partiyanın 53,93 faiz səs qazandığı parlament seçkilərinin qeyri-legitim kimi tanınmasını və yeni seçkilərin təyin olunmasını tələb edirlər. Bu, əslində, siyasi subyektlərin hazırladığı təxribatdır. Onların bu planı açıq şəkildə dövlət çevrilişi və inqilabi proseslərin inkişafı əlamətlərini ehtiva edir. Düşünmürəm ki, müxalifət seçicilərin ölkədə sabitliyi pozmasını dəstəkləsinlər. Ukraynada etiraz aksiyalarının sonunda nə ilə nəticələndiyini çox yaxşı anlayırlar. Bu gün Ukraynanın düşdüyü vəziyyət çox acınacaqlıdır.

Bundan başqa, keçmiş baş nazir Giorgi Qaxariyanın "Gürcüstan naminə" partiyasının iclasda iştirak etməməsi müxalifətlə birliyin olmamasından xəbər verir. Müxalifətin etiraz aksiyaları ilə nəyəsə nail olacağı mümkün deyil.

**– Parlament seçkilərinin nəticələri borçalıların həyatına necə təsir göstərəcək?**

– Kvemo–Kartlidəki seçicilərin əksəriyyəti Gürcüstanın müstəqilliyinə səs verdilər. Müxalifət bu bölgədə bir neçə dəfə insident törətsə də, istəyinə nail ola bilmədi. Borçalılar sülh, əmin-amanlıq içində yaşamaq, ölkənin siyasi, sosial-iqtisadi həyatında fəal iştirak etmək istəyirlər. Parlament seçkiləri onlara bu imkanı verir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Milli Ədəbiyyat Muzeyində yubiley görüşü

**Noyabrın 1-də Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin yaradılmasının 85 illiyi tamam olub. Bu münasibətlə mədəniyyət naziri Adil Kərimli muzeydə olub, kollektivlə görüşüb.**



Muzeyin direktoru, Milli Məclisin sədr müavini, akademik Rafael Hüseynov mədəniyyət ocağının tarixindən söz açıb. Qeyd edib ki, muzey dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 800 illik yubileyinə hazırlıq ərəfəsində Azərbaycan SSR Xalq Komissarları Sovetinin 1939-cu il 1 noyabr tarixli qərarı ilə yaradılıb. Lakin II Dünya müharibəsi səbəbindən muzeyin açılışı 1945-ci il mayın 14-də olub.

Akademik bildirib ki, xalqımızın bütün ədəbiyyat tarixini ən qədim zamanlardan müasir dövrə qədər özündə əks etdirən yeganə ədəbiyyat muzeyi olan bu müqəddəs söz sarayı artıq bir əsrə yaxındır ki, Azərbaycan xalqının mədəniyyətinin, zəngin ədəbi irsinin təbliğatçısı olmaq kimi şərəfli missiyanı həyata keçirir. Bu gün muzeyin müasir dünya standartlarına cavab verən, yenidən qurulmuş, tam kompüterləşdirilmiş, innovativ vasitələrlə zənginləşdirilmiş ekspozisiyasında Azərbaycan ədəbiyyatının inkişaf mərhələləri öz əksini tapıb.

Mədəniyyət naziri Adil Kərimli bildirib ki, Milli Azərbaycan Ədəbiyyatı Muzeyi milli dəyərlərimizi yaşadan bir ocaqdır: "Muzeyin yaranma tarixi Nizami Gəncəvinin adı ilə bağlı olsa da, o, Azərbaycanın zəngin ədəbiyyat tarixini və bütövlükdə qeyri-maddi mədəni irsini özündə ehtiva edən böyük bir mərkəzdir. Muzey uzun illər Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində fəaliyyət göstərərək böyük bir dəst-xət qoyub. Muzeyin hazırda Mədəniyyət Nazirliyi sistemində olması bizim üçün xüsusi əhəmiyyət daşıyır".

Nazir 85 illik yubiley münasibətilə muzeyin kollektivini təbrik edib, fəaliyyətlərində uğurlar arzulayıb.

**Qabil ƏLİYEV**
**XQ**

# XİN-nin Serbiyaya başsağlığı

**Azərbaycan Xarici İşlər Nazirliyi Novi Sad şəhərində baş vermiş faciəvi hadisə nəticəsində 14 nəfərin ölümü ilə əlaqədar Serbiyaya başsağlığı verib. Bu barədə müvafiq paylaşım nazirliyin "X" sosial şəbəkəsində yerləşdirilib.**

"Novi Sadda baş verən, çoxlu sayda insanın ölümü və yaralanması ilə nəticələnən faciə ilə əlaqədar dərindən kədərləndik. Həlak olanların ailələrinə və yaxınlarına, dost Serbiya xalqına və hökumətinə dərin hüznlə başsağlığı veririk, xəsarət alanların tezliklə sağalmasını diləyirik", - paylaşımda yazılıb.

# İspaniyada ən dəhşətli daşqın



**İspaniyanın nəqliyyat naziri Oskar Puente ölkədə güclü daşqınlara səbəb olan fırtınanın yaratdığı fəlakətin miqyasının krallıq tarixində misli görünmədiyini bildirib.**

Nazir mediaya müsahibəsində bu fəlakətin ölkə tarixində misli görünməmiş hadisə olduğunu deyib. Onun sözlərinə görə, təbii fəlakətdən bütün Valensiya əyaləti zərər çəkib. Puente ümid etdiyini bildirib ki, maksimum iki həftə ərzində Madrid və Valensiya arasındakı sürətli qatar xəttində hərəkəti bərpa etmək mümkün olacaq.

İspaniya hakimiyyəti təbii fəlakətdən zərər çəkmiş bölgələrə yardım üçün yüzlərlə əsgər göndərib. Daxili İşlər Nazirliyi isə daşqınların ən çox ziyan vurduğu ərazilərə 4,5 minə yaxın mülki qvardiya və polis əməkdaşı yerləşdirib.

Son məlumata görə, Valensiyada daşqınlar nəticəsində 200-dən çox insan həlak olub, itkin düşənlərin axtarışı hələ də davam edir. Hakimiyyət orqanları ölənlərin sayının artacağını istisna etmir.

**XQ**

# Müdafiə naziri "Mərakeş Aviaşou 2024" sərgisində



**Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun Mərakeşə işgüzar səfəri davam edir. Mərakeş Krallığının Hökumət Başçısı yanında Milli Müdafiə Administrasiyası üzrə səlahiyyətli naziri Abdellatif Ludiyinin dəvəti ilə bu ölkədə işgüzar səfərdə olan general-polkovnik Zakir Həsənov "Mərakeş Aviaşou 2024" sərgisinin təntənəli açılış mərasimində iştirak edib.**

Çıxışlardan sonra "Mərakeş Aviaşou 2024" sərgisi ziyarət olunub.

General-polkovnik Z.Həsənov dünyanın aparıcı beynəlxalq şirkətlərinin təmsil olunduğu sərgidə təqdim edilən hərbi aviasiya, qlobal aeronavtika və kosmik sənaye innovasiyaları ilə tanış olub.

Dünən başa çatan sərgi çərçivəsində müdafiə sənayesindəki texnoloji yeniliklər, davamlı strategiyanın inkişaf etdirilməsi, pilotsuz uçuş aparatlarının təkmilləşdirilməsi və digər mövzularda panel müzakirələr aparılıb.

# Londonda Azərbaycan–Türkiyə qardaşlıq mərasimi

**Azərbaycanın Britaniyadakı səfirliyində 8 Noyabr - Zəfər bayramı ərəfəsində Azərbaycan-Türkiyə qardaşlıq axşamı təşkil olunub.**



Tədbirdə Türkiyənin Britaniyadakı səfiri Osman Koray Ertaş, Türkiyə səfirliyinin əməkdaşları, Azərbaycan və Türkiyə icmasının nümayəndələri, Şimali Kipr Türk Cümhuriyyətinin Britaniyadakı nümayəndəsi Çimen Keskin, həmçinin fəxri qonaq qismində Britaniya parlamentinin İcmalar Palatasının deputatı Nesil Çalışkan iştirak edib.

Səfir Elin Süleymanov çıxış edərək qarşıdan gələn 8 Noyabr - Zəfər bayramı münasibətilə həmvətənlərimizi təbrik edib. 29 Oktyabr - Cümhuriyyət Günü münasibətilə Türkiyə icmasının nümayəndələrini də təbrik edən səfir Azərbaycan və Türkiyə xalqlarının bir ailə olduğunu vurğulayıb.

Türkiyənin Britaniyadakı səfiri Osman Koray 8 Noyabr - Zəfər bayramı münasibətilə Azərbaycan icmasını təbrik edib. Qardaşlıq hisslərinin Azərbaycan və Türkiyə xalqının ürəyindən gəldiyini və bu duyğuların təbii olaraq davamlı şəkildə nəsildən-nəslə keçdiyini deyən səfir bu qardaşlığın əbədi və sarsılmaz olmasını arzulayıb.

Tədbir konsert proqramı ilə yekunlaşıb.

**XQ**

# Ukraynanın COP tərəfdaşlığı

**Azərbaycanın paytaxtında keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında Ukrayna nümayəndə heyəti tərəfdaşlarla yaşıl transformasiya və iqtisadi artım üzrə işləyəcək.**



Bunu Ukraynanın ətraf mühitin mühafizəsi və təbii sərvətlər naziri Svetlana Qrinçuk "Ukrayna – COP29 İqlim Konfransında" forumunda deyib.

"Tammiqyaslı müharibəyə baxmayaraq, biz dünyaya iqlim dəyişiklikləri ilə bağlı hökumət siyasətindəki dəyişikliklər barədə məlumat verə bilərik. İqlim Çərçivə Qanunu təsdiq edilib. O, 2050-ci ilə qədər iqlim neytrallığına nail olmaq məqsədimizi qarşıya qoyub. Bu, Avropa İttifaqının özü üçün müəyyən etdiyi müddətlərə uyğundur. Bu o deməkdir ki, biz yaşıllığın bərpası və layihələrimizin maliyyələşdirilməsi yolunda mövqeyimizi gücləndiririk", – deyə S.Qrinçuk bildirib.

Nazirin sözlərinə görə, Bakıda keçirilən COP29-un mövzusu iqlim gündəmində gənclərin roludur. Keçən il COP28 zamanı Ukrayna Uşaqlar, Gənclər və İqlim Fəaliyyəti üzrə Beynəlxalq Bəyannaməyə qoşuldu və indi bu istiqamətdə işi gücləndirəcək.

**XQ**

# Azərbaycan Minsk Kinofestivalında

**Azərbaycan noyabrın 1-dən 8-dək Minskdə "Keyfiyyət nişanlı kino" devizi altında keçirilən XXX Minsk Beynəlxalq "Listapad" Kinofestivalında təmsil olunur. Yubiley film festivalı Belarus kinosunun 100 illiyi və festivalın 30 illiyinə həsr olunub.**




Azərbaycanı kinofestivalda "Gənclərin kinosu" müsabiqəsinin münsiflər heyətinin sədri kimi prodüser, rejissor, ssenarist Cavid İmamverdiyev təmsil edir. Onunla birlikdə filmləri İsveçrədən olan rejissor və sənədli film prodüseri Domeniko Lukkini və belaruslu rejissor Kirill Xaletski qiymətləndirəcək.

Bildirilir ki, festivala artıq 112 ölkədən 2200-dən çox müraciət daxil olub. Tamaşaçılara dünyanın müxtəlif yerlərindən ən yaxşı filmlərin daxil edildiyi yeddi müsabiqə proqramı təqdim ediləcək.

# Ölkəmiz Beynəlxalq Kitab Sərgisinin fəxri qonağıdır

**Azərbaycan İstanbulda keçirilən 41-ci Beynəlxalq Kitab Sərgisində ilk dəfə "Fəxri qonaq" qismində iştirak edir.**



Bu il ilk dəfə olaraq İstanbul Kitab Sərgisində Mədəniyyət nazirinin müavini Fərid Cəfərov, 10-dan çox azərbaycanlı yazıçı, o cümlədən Xalq yazıçıları Elçin və Çingiz Abdullayev, eləcə də 25 Azərbaycan nəşriyyatı iştirak edir.

Azərbaycan stendində həmçinin Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən hazırlanmış nəşrlər də sərgilənəcək. Noyabrın 4-dək davam edəcək sərgidə fond tərəfindən hazırlanan "Səninləyik Türkiyə", "Mövlud", "Mən burdayam, İlahi" və TÜRKSOY-un ərsəyə gətirdiyi "Aşıq Mikayıl Azaflı" seçmə şeirləri ictimaiyyətə təqdim olunacaq.

Açılış mərasimində Azərbaycanın incəsənət xadimlərinin ifasında milli musiqilərimiz təqdim edilib, Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasından epizodik səhnə nümayiş olunub. Qiraətçilər tərəfindən dahi şairimiz Məhəmməd Füzulinin qəzəlləri səsləndirilib.

Qeyd edək ki, TÜYAP sərgi təşkilatçılığı şirkəti ilə Türkiyə Nəşriyyatçılar İttifaqının əməkdaşlığı nəticəsində ərsəyə gələn sərgidə bu il mindən artıq yerli və xarici yayım evi iştirak edir. Bu il "Uşaqlıq şənlikdir" şüarı altında keçirilən sərginin "Fəxri yazıçısı" Türkiyənin uşaq və gənclik ədəbiyyatına böyük töhfə vermiş yazıçı Yalvaç Uraldır.

**XQ**

# Heydər Əliyev Mərkəzində italiyalı heykəltaraşın sərgisi

**Noyabrın 1-də Heydər Əliyev Mərkəzində tanınmış italyalı monumental heykəltaraş Lorenso Kuinnin (Lorenzo Quinn) "Təbiətdə tarazlıq" sərgisinin açılış mərasimi keçirilib.**





Sərginin Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində təşkil olunması təsadüfi deyil. Belə ki, "Təbiətdə tarazlıq" ("Equilibrium in Nature") ekspozisiyası ictimaiyyətin diqqətini bir daha ekoloji məsələlərə yönəldir.

Bakı sərgisinin konsepsiyasının əsasını ətraf mühitin dərk olunması, təbiətə qayğı ideyası təşkil edir.

Sərginin açılışında Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov, mədəniyyət naziri Adil Kərimli, rəsmi qonaqlar, diplomatlar, tanınmış incəsənət xadimləri və digər şəxslər iştirak ediblər.

Azərbaycan Prezidentinin köməkçisi Anar Ələkbərov qısa müddət ərzində öz sərgisinin Azərbaycanda keçirilməsi üçün göstərdiyi dəstəyə görə Lorenso Kuinnə təşəkkürünü bildirib. O, Heydər Əliyev Mərkəzində cari il ərzində bir neçə italyan heykəltaraş və rəssamın təqdimatlarının keçirildiyini bildirib, hazırkı sərgidə çox gözəl heykəltaraşlıq nümunələrinin nümayiş olunduğunu deyib.

Anar Ələkbərov L.Kuinnin əsərlərinin COP29 tədbiri çərçivəsində Azərbaycana gətirildiyini, yaxın günlərdə ölkəmizdə keçiriləcək COP29 konfransına gələn qonaqların da bu incəsənət nümunələrini bəyənəcəyinə ümidvar olduğunu bildirib. O, Mərkəzdə Lorenso Kuinnin 15 əsərinin nümayiş olunduğunu deyib, sərginin gələn il mayın 11-dək davam edəcəyini vurğulayıb.

"365 Art" şirkətinin təsisçisi, sərginin kuratoru Olqa Daniele tədbirin yüksək səviyyədə təşkilinə görə Heydər Əliyev Mərkəzinə minnətdarlığını bildirib.

Lorenso Kuinn Bakının çox gözəl şəhər olduğunu deyib, paytaxtımızda keçiriləcək COP29-a çox az vaxt qaldığını bildirib: "Biz Yer kürəsini sevməliyik. Necə ki, ana övladına o cür yanaşır, biz də elə yanaşmalıyıq", - deyə Lorenso Kuinn diqqətə çatdırıb.

Daha sonra qonaqlar heykəltaraşlıq nümunələrinə baxış keçiriblər.

İlk olaraq "Sevgi birliyi" əsərinə baxış olub. Həmin kompozisiya dünyaya qarşılıqlı sevgi və dəstək çağırışıdır. Eksponatlar arasındakı "Tanrının əli" ("Hand of God") heykəltaraşlıq nümunəsi müəllifin şedevrlərindən hesab olunur. Lorensonun Bakıya gətirilən digər işi isə "Birlikdə" ("Together") adlanır. Məhz bu kompozisiyanın Gizada nümayişi ilə ilk dəfə müasir incəsənətin piramidaya yaxın olmasına icazə verilmişdi

Müəllifin Bakıda sərgilənən digər əsəri isə "Təbiətin gücü"dür ("Force of Nature"). Əsər kövrək, lakin çox güclü qadın obrazını təcəssüm etdirir. Burada ana təbiətin özü canlandırılır.

Xatırladaq ki, Lorenso Kuinnin əsərləri 2025-ci il mayın 11-dək Heydər Əliyev Mərkəzinin parkında və foyesində təqdim ediləcək.

**XQ**

# Polis Akademiyasında elmi-praktik konfrans



**Daxili İşlər Nazirliyinin Polis Akademiyasında "Zəfər Günü - milli qürur və şərəf tariximiz" mövzusunda elmi-praktik konfrans keçirilib.**

Konfransda "Azərbaycan Hakimlər İttifaqı" İctimai Birliyinin, Vəkillər Kollegiyasının Rəyasət Heyətinin, Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının, DİN-in Daxili Qoşunlarının Hərbi İnstitutunun, bir sıra dövlət qurumları və ali təhsil müəssisələrinin nümayəndələri, kursant və tələbələri iştirak ediblər. Rusiyanın bir sıra xüsusi təyinatlı ali təhsil müəssisələrində və Türkiyə Milli Polis Akademiyasında təhsil alan azərbaycanlı kursantları və başqaları onlayn formatda konfransa qoşulublar.

Konfrans iştirakçıları Akademiyada Ulu öndərin abidəsi önünə gül dəstələri qoyaraq, onun, Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Azərbaycanın Dövlət Himni səsləndirilib.

Akademiyanın rəisi, polis general-mayoru Canpolad Daanov çıxış edərək Zəfər Gününün tarixi əhəmiyyətini vurğulayayıb.

Kursantların iştirakı ilə "Zəfər Günü"nə həsr olunmuş yürüş keçirilib. Yürüş zamanı "Şanlı zəfərimiz əbədidir" fləşmobu nümayiş olunub.

**XQ**

**Geosiyasət**

# Türkiyə–Ermənistan münasibətləri: real imkanlar və süni maneələr



**II Yazı**

Ermənistanın 1991-ci il Müstəqillik Aktında və 1995-ci il Konstitusiyasında Türkiyənin bir çox ərazilərinə iddiaları qalmaqdadır və dövlət səviyyəsində Türkiyənin bəzi Şərqi Anadolu vilayətləri "Qərbi Ermənistan" adlandırılır. Üstəlik, hətta Türkiyədən qondarma "erməni soyqırımı"nı tanıması siyasəti davam etdirilir. Ayrıca Ermənistanın gerbində Türkiyənin Ağrı dağının (ermənilər Ararat dağı adlandırırlar) təsvir olunması da İrəvanın başqa bir ölkəyə ərazi iddiası olaraq dilə gətirilməkdədir. Ermənistanda istər Azərbaycan, istərsə də Türkiyə ilə barışığa gedilməsinə qarşı çıxan radikal qüvvələrin də mövcud olması da nəzərdən qaçırılmamalıdır. Bu radikal qüvvələrə fikirlərini ifadə etmək imkanları yaradılır.

2023-cü ildə Antalya Diplomatiya Forumunda Türkiyə ilə Ermənistan arasında diplomatik münasibətlərin qurulması və sərhədlərin açılması ilə bağlı məsələlər də müzakirə edilmişdi. Türkiyə təmsilçisi, keçmiş səfir Sərdar Kılıç Rubinyanın üzünə deməyə məcbur olmuşdu ki, neçə aylardır görüşmək təklifini Ermənistan geri çevirir. Məgər bu onun göstəricisi deyilmi ki, Ermənistan sülh danışıqlarını manipulyasiya etməyə çalışır? O zaman Ermənistan nümayəndəsi Türkiyənin şərtlərinin olduğu bəhanəsini dilə gətirmişdi.

Əlbəttə, Türkiyə tərəfindən bu illər ərzində şərt olaraq heç bir şey səsləndirilməmişdi. Amma Ermənistan Türkiyənin Şərqi Anadolu ərazilərinə iddialardan və "soyqırımı" ideologiyasından vaz keçmədiyi ortadadır, Ağrı dağının rəsmi dövlət gerbindən çıxarılmamışdır, Ermənistanın himnindəki türkləri hədəf edən "düşmən" kəlməsi hələ də səsləndirilir. Bunların özü Ermənistanın bütün media qurumlarında artıq müzakirə mövzusu olaraq davam etdirilir, orta məktəblərdə dərs vəsaiti kimi tədris olunan "Erməni tarixi" kitabının adı "Ermənistan tarixi" olaraq dəyişdirilsə də, onun içərisindəki düşmənçilik ibarələri qalmaqdadır.

Türkiyə ilə münasibətlərin normallaşdırılması Ermənistanın əlindədir. Barışıq ərəfəsində Ermənistan rəhbərliyi yuxarıda qeyd olunanları nəzərə alacaqmı? Belə bir istək varmı? Paşinyanın "Ermənistan gerbindəki Ağrı dağının rəmzinin bizə nə dəxli var?" sualı ölkədə narazılıqla qarşılansa da, gerçəyi ifadə edirdi. Paşinyan, həmçinin bəyan edib ki, 1915-ci ildə ölənlərin sayı ilə bağlı məsələlər mübahisəlidir. Onun 1915-ci il hadisələri ilə əlaqədar "həyatını itirənlərin ad və soyadlarını müəyyənləşdirməyə çağırması" bütün dünyaya yaydıqları 1,5 milyon erməninin öldürülməsi iddiasını sual altında qoyur. Digər mühüm hadisə isə Paşinyanın bu il aprelin 24-də 1915-ci il hadisələri üçün "soyqırımı" deyil, "mets yeğern" ( "böyük fəlakət") sözünü işlətməsi olub. Bütün bunlar Türkiyə ilə münasibətlərin qurulması prosesində əngəlləri minimuma endirmək cəhdləridir, amma normallaşma üçün yetərli deyil.

Bir önəmli məqam da vurgulanmalıdır. Artıq danışıqlar iki ölkə arasında aparılır və vastəçilərin olmaması da müəyyən ümidlər yaradır. Məlumdur ki, 2024-cü ilin yanvarından Ermənistan tərəfində Markara sərhəd qapısının təmiri və xidmətə hazır vəziyyətə gətirilməsi istiqamətində işlər aparılır. Paşinyan bu məntəqəyə səfər edib və işlərin gedişatı ilə tanış olub. Elə burada da ilk dəfə Türkiyə–Ermənistan nümayəndələrinin görüşü keçirilib. Artıq bu, o deməkdir ki, Ermənistan ikitərəfli danışıqlar variantını qəbul edib. Moskva və Vyana danışıqlarından sonra tərəflərin bu dəfə üçüncü ölkə əvəzinə iki ölkə arasında sərhədi seçməsinin xüsusi mənası var. Çünki Türkiyə əvvəlki Moskva və Vyana danışıqlarını İrəvanın bu prosesi üçüncü ölkələrdə keçirmək təklifini qəbul etmirdi. Antalya Diplomatik Forumunda Sərdar Kılıç "İrəvanda görüşərik" işarəsini vurmuşdu. Türkiyə bu işə üçüncü ölkənin müdaxiləsini məqbul etmir. Tez-tez vurğulanır ki, danışıqlar İrəvanda və ya Ankarada davam etdirilməlidir. Bu baxımdan danışıqların üçüncü ölkə əvəzinə iki ölkənin sərhədində baş tutması tərəflərin bu məsələdə razılığa gəldiyinin mühüm göstəricisi idi.

Həmin görüşdə münasibətlərin tam normallaşması yolunda Akyaka-Axurik dəmir yolu layihəsinin həyata keçirilməsinə dair razılığın əldə olunduğu da anlaşılır. Akyaka-Axurik dəmir yolu sərhəd qapısı Türkiyə tərəfdən Qarsa, Ermənistan tərəfdən isə Şiraka bağlıdır və Türkiyə-Ermənistan sərhədinə yaxın ərazini əhatə edir. Akyaka–Axurik sərhəd qapısı yenidən dəmir yolu nəqliyyatına açılarsa, əvvəllər aktiv olan, lakin bir müddət boş qalan bu dəmir yolu yenidən fəaliyyətə başlayacaq, hər iki tərəfdə iqtisadi inkişafa səbəb olacaq .

Görünən odur ki, 2020-ci ildə baş verən İkinci Qarabağ müharibəsindən sonra, xüsusən də 2023-cü ildə Azərbaycan ərazilərinə tam nəzarəti ələ keçirdikdən sonra artıq Azərbaycanın maraqları ilə bağlı Türkiyə-Ermənistan dialoquna mane olan heç bir səbəb qalmayıb. Xüsusən də Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımağa və sülh sazişi imzalamağa hazır olduğunu bildirdikdən sonra məsələnin maneəsiz davam etməsinə ümidlər artır. Xüsusən, Qazanda BRICS zirvəsində Ərdoğanın Paşinyanla görüşündə irəliyə addımlar atılması üçün yeni perspektivlər açıldı.

Türkiyənin maraq dairəsində olan məsələlərdən biri Zəngəzur dəhlizinin açılmasıdır. 2020-ci il 9 noyabrda imzalanan "üçtərəfli Bəyanat"da Rusiya Federal Təhlükəsizlik Xidmətinin nəzarəti ilə Azərbaycanın Qərb bölgələrini Naxçıvana, oradan da Türkiyəyə uzanacaq maneəsiz keçidin açılması ilə bağlı Ermənistanın öhdəliyi yerinə yetirməməsi hələ də sülhün əldə olunmasına mane olur . Bu illər ərzində bu ərazidə dəyişikliyin İranın "qırmızı xətt"i anlayışını da əsas götürərək kommunikasiya xəttlərinin açılmasına qarşı İrəvanın direniş göstərməsi Türkiyə ilə Ermənistan arasında əlaqələrin qurulmasında əsas maneədir. Ermənistan bu maneələri də aşmalıdır.

Bölgədə marağı olan imperialist güclərin müdaxilə etməsinə Ermənistan imkan verməməklə öz tarixi şansını qaçırmamalıdır . Xatırladaq ki, ABŞ və Aİ son zamanlar Ermənistan vasitəsilə İran və Rusiyaya müəyyən mesajlar verməyə çalışıblar. O da məlumdur ki, indiki məqamda Qərb Ermənistanın region dövlətləri, xüsusilə də İranla münasibətlərinə yumşaq baxmır. İran da Qərbin yardım və təlimlərlə bölgəyə daxil olmaq siyasətindən narahatdır. Bu səbəbdən İran "3+3" platforması çərçivəsində Ermənistan və bölgə ölkələrin də daxil olduğu regional iqtisadi inkişaf prosesini dəstəkləyir. Ermənistan bu prosesin bir parçası olmağa məcburdur.

Erməni türkoloq Ruben Safrastyan deyir: "Azərbaycanla, daha sonra Orta Asiya ilə birbaşa quru əlaqəsi Ankara üçün strateji əhəmiyyət kəsb edir. Odur ki, heç bir görünən nəticə olmadan Ermənistan–Türkiyə prosesini təxirə salmaq Türkiyənin milli və strateji maraqlarına uyğun deyil, Türkiyə üçün bu, rasional və səmərəli qısamüddətli taktikadır, hələ o konkret nəticələr verməsə də, Ermənistanın direnişinin heç bir anlamı olmamaqdadır".

Naxçıvana uzanacaq yol əsas layihə – Orta Dəhlizin reallaşması üçün ən uyğun variant olduğu dəfələrlə Ermənistanın diqqətinə çatdırılıb, bu layihə bu və ya başqa şəkildə Türkiyə tərəfindən dəstəklənməkdədir. Ermənistan Türkiyə ilə əlaqələr qurmaq istəyir, amma belə məqamları nəzərə almır, özünə də faydalı olacağı həmin xəttin açılmasına qeyri-müəyyən yanaşma sərgiləməkdə davam edir. Deməк, Ermənistanın ayrı hesabları var. Daha çox Qərb ölkələrinin müdaxiləsinə bel bağlayır. Qərb dünyasının Cənubi Qafqazı yeni mübarizə meydanına çevirmək arzusunda olması da barışığa mane olduğunu anlamır.

Bir çox ölkələr Ermənistanı silahlandırmaqdan, region dövlətlərinə qarşı təxribatlar törətməkdən çəkinmirlər. Maraqlısı odur ki, bu siyasət Aİ-yə üzv dövlətlərin bəziləri tərəfindən də Cənubi Qafqazda Ermənistanın əli ilə həyata keçirilir. Fransanın bu məsələdə atdığı son addımlar o həddə çatıb ki, silahlandırılma ilə müəyyən məqsədlərin həyata keçiriləcəyinə erməni xalqı belə həvəsləndirilir. Revanşist qüvvələr fəallaşırlar. Lakin praqmatik düşüncəli bəzi erməni ziyalıları gərginliyin qalmasını Ermənistanın təhlükəsizliyi üçün təhdid hesab edirlər. Qonşularla normal münasibətin alternativinin olmadığını dilə gətirirlər.

Şübhəsiz ki, Ermənistanla Türkiyə arasında münasibətlərin normallaşmasına kömək edən bəzi amillər də var. Bunlardan birincisi Qərbin, xüsusilə ABŞ-nin, bəzi aparıcı Avropa dövlətlərinin, Aİ və NATO strukturlarının son zamanlar bəyan etdikləri mövqe dəyişikliyidir. Ərdoğan Türkiyəsi təkcə qlobal strateji və hərbi-siyasi məsələlərdə deyil, həm də Qərblə münasibətlərdə açıq şəkildə konstruktiv mövqe tutur, həmçinin regional geosiyasətlə, xüsusən də Ukrayna və Yaxın Şərqlə bağlı məsələlərdə aydın siyasi iradə sərgiləyir. Türkiyə-Ermənistan münasibətlərinin tənzimlənməsi Ankaranın Vaşinqton və Brüssellə danışıqlarının gündəmindəki məsələlərdən biridir, baxmayaraq ki, bu, ən vacibi deyil.

Ermənistan və Türkiyə rəsmilərinin və ekspertlərinin tez-tez nikbin bəyanatlarına baxmayaraq, iki ölkə arasında münasibətlərin yaxşılaşdırılması perspektivləri qeyri-müəyyən olaraq qalır. Nəticə etibarı ilə, Alican – Markara sərhəd xəttində beşinci görüş münasibətlərin normallaşması və regiona sülhün gətirilməsi istiqamətində mühüm mərhələ sayıla bilər. Bundan sonra da Türkiyə–Ermənistan arasında normallaşma prosesinin Azərbaycanla koordinasiyalı şəkildə davam edəcəyi şəksizdir. Bu reallığı Ermənistan qəbul etmək məcburiyyətindədir.

*Qfi a ÇAXMAQLI,*
*XQ-nin Türkiyə müxbiri*

# FHN-in maarifləndirmə aksiyası

**Fövqəladə Hallar Nazirliyinin aidiyyəti qurumları fövqəladə hallarla bağlı davranış qaydaları barədə əhalinin maarifləndirilməsi məqsədilə silsilə tədbirləri davam etdirirlər.**

Belə ki, FHN-in Dövlət Yanğın Nəzarəti, Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət xidmətlərinin mütəxəssislərinin də iştirakı ilə Sumqayıt, Gəncə, Qarabağ, Aran, Şimal, Şənub, Muğan, Şimal Qərb regional mərkəzləri tərəfindən 20-dək tədris müəssisəsində, müxtəlif idarədə və təşkilatlarda maarifləndirmə tədbirləri keçirilib.

Məqsəd baş verə biləcək təbii və texnogen xarakterli fövqəladə hadisələrlə bağlı zəruri davranış qaydaları barədə vətəndaşlara müvafiq biliklərin verilməsi olub.

Tədbirlərdə fövqəladə halların təsnifatı, ölkəmiz üçün xarakterik olan fövqəladə hallar, o cümlədən yanğınların başvermə səbəbləri və bu zaman zəruri davranış qaydaları barədə ətraflı məlumat verilib, FHN-in "112" qaynar telefon xəttinin təyinatı izah olunub, sularda təhlükəsizliklə bağlı məsələlər diqqətə çatdırılıb və ilkin yanğınsöndürmə vasitələrindən istifadə qaydaları əyani şəkildə nümayiş etdirilib.

**XQ**



# Azərbaycanda ÜDM 77 milyard dollara çatacaq

## *BVF-nin qənaəti ciddi əsaslara söykənir*




**Prezident İlham Əliyevin son illərdə sosial–iqtisadi çağırışları nəzərə alınaraq ölkədə islahatlar daha da sürətləndirilib. Bu islahatlar məzmununa görə məqsədyönlü və konkret strateji hədəfə doğru hesablanıb. Genişmiqyaslı yeniliklər respublikada yüksək dayanıqlı və inklüziv iqtisadi artımın təmin edilməsi, iqtisadiyyatın daha da şaxələnməsi, özəl investisiyaların və təşəbbüslərin yüksək səviyyədə təşviqi üçün əlverişli zəmin yaradıb.**

Azərbaycanın sosial–iqtisadi sahələrdə əldə etdiyi uğurlar, rəqabətədavamlı, innovativ iqtisadi sistemin formalaşdırılması istiqamətində atılan ardıcıl addımlar dünyanın nüfuzlu təşkilatlarının, aparıcı iqtisadi–maliyyə institutlarının, iqtisadi azadlıq səviyyəsini tədqiq edən mərkəzlərin diqqətindən də kənarda qalmır və yüksək qiymətləndirilir.

Beynəlxalq reytinq agentliklərinin proqnozları da təsdiqləyir ki, Azərbaycan artıq iqtisadi cəhətdən azad ölkədir. Respublikada əlverişli biznes, investisiya mühiti mövcuddur. Eyni zamanda, hökumət vergi gəlirlərində və kapital xərclərində, habelə milli valyutanın məzənnəsi ilə bağlı təsirli nizamlayıcı addımlar atmaqla mövcud valyuta ehtiyatlarının azalmasının qarşısını alır. Bu isə liberal iqtisadi islahatların, düşünülən, elmi əsaslara malik inkişaf konsepsiyasının həyata keçirilməsi, siyasi iradə nəticəsində mümkün olur və bütün bunlar dövlətimizin dünyanın inkişaf etmiş ölkələri səviyyəsinə çatmaq əzmindən, Azərbaycanın uğurlu gələcəyindən xəbər verir.

Fikrimizin təsdiqi üçün diqqəti Beynəlxalq Valyuta Fondunun "Dəyişən geoiqtisadi landşaftda naviqasiya"adlı yeni hesabatına yönəltmək istərdik. Hesabatda Azərbaycanda nominal ÜDM-in 2023-cü ildəki 72,4 milyard dollardan 2024-cü ildə 75,6 milyard dollara, gələn il isə 77 milyard dollara qədər artacağı proqnozlaşdırılıb.

Yeri gəlmişkən, ÜDM-in artımını qeyri–neft–qaz sektorunun inkişafı şərtləndirib. Başqa sözlə, respublikada artımın əsas mənbəyini qeyri–neft–qaz sektoru və qeyri–neft–qaz idxalı təşkil edib. Şübhəsiz ki, bu məsələdə xarici investisiyaların, qabaqcıl texnologiyaların və idarəetmə təcrübəsinin də rolu mühüm önəm daşıyıb. Ölkədə bərqərar olmuş siyasi və makroiqtisadi sabitlik, investorların hüquqlarının etibarlı qorunması, əlverişli coğrafi mövqe, zəngin təbii ehtiyatlar, yüksək ixtisaslı işçi qüvvəsi Azərbaycanı xarici sərmayələr üçün ən cəlbedici ölkələrdən birinə çevirib.

Beynəlxalq Valyuta Fondu enerji qiymətlərinin aşağı düşməsi fonunda neft ixracatçıları arasında xarici balansların azalacağını gözləyir, bununla belə, orta cari hesab profisiti bu il ÜDM-in 0,8 faiz həcmində qalacaq, ortamüddətli perspektivdə isə kəsirlə əvəzlənəcək. Bu proqnoz apreldəki gözləntilərlə müqayisədə ÜDM-in 1,5 faiz bəndi artımını, Qazaxıstanda daha yüksək neft gəlirlərini və dividend repatriasiyasının azalmasını əks etdirir.

Buna baxmayaraq, dövlət borcu ÜDM-in 20 faizi və ya ondan aşağı səviyyədə qalır ki, bu da bu ölkələrin sabit fiskal mövqeyindən xəbər verir. Proqnozlara görə, 2024-cü ildə Azərbaycanda dövlət borcunun ÜDM-ə nisbətinin 20,5 faiz, 2025-ci ildə isə 20,3 faiz olacağı gözlənilir.

Yeri gəlmişkən, xatırladaq ki, cari il iyulun 1-nə olan məlumata görə, Azərbaycan Respublikasının dövlət borcu (daxili və xarici dövlət borcu) 25 milyard 686 milyon manat və ya 2024-cü il üzrə 121 milyard 343 milyon manat məbləğində proqnozlaşdırılan Ümumi Daxili Məhsulun (ÜDM) 21,2 faizini təşkil edib. Maliyyə Nazirliyinin açıqladığı "2024-cü ilin I yarımili üzrə dövlət borcuna dair statistik bülleten"də bildirilir ki, ümumi dövlət borcunun 9 milyard 114 milyon manatı (5 milyard 361 milyon dollar) və ya 35,5 faizi xarici dövlət borcunun, 16 milyard 572 milyon manatı və ya 64,5 faizi daxili dövlət borcunun payına düşür.

Bu ilin 1 iyul tarixinə xarici dövlət borcu ilin əvvəli ilə müqayisədə mütləq ifadədə 1 milyard 100 milyon dollar və ya 17 faiz azalıb. Bunun da əsas səbəbi imzalanmış kredit sazişləri çərçivəsində 2024-cü ilin ilk 6 ayı ərzində xarici dövlət borcu üzrə vaxtı çatmış əsas borc ödənişlərinin, o cümlədən beynəlxalq maliyyə bazarlarında 2014-cü ildə yerləşdirilmiş istiqrazlar (avrobond) üzrə 900 milyon dollar məbləğində ödənişlərin həyata keçirilməsi olub. 2024-cü ilin 1 iyul tarixinə xarici dövlət borcunun ÜDM-ə nisbəti ilin əvvəli ilə müqayisədə 1,4 faiz bəndi azalıb.

"Azərbaycan 2030: sosial–iqtisadi inkişafa dair Milli Prioritetlər"də uzunmüddətli dövrdə iqtisadiyyatın daxili və xarici təsirlərə dayanıqlığının gücləndirilməsi, makroiqtisadi sabitliyin daha da möhkəmləndirilməsi üçün qarşıya bir sıra mühüm vəzifələr qoyulub. Həmin məqsədlər sırasında yeni reallıqlara uyğun büdcə qaydasına əsaslanan fiskal çərçivə formalaşdırılmasına xüsusi yer verilib.

Bundan başqa sənəddə şaxələnmiş iqtisadiyyatın dayanıqlılığı üçün qeyri-neft sektorunun payının, eləcə də dövlətin valyuta ehtiyatlarının artırılması, intizamlı borclanmanın təşkil edilməsi kimi mühüm əhəmiyyətli istiqamətlər vurğulanıb. Milli Prioritetlərdə bütün bunların reallaşdırılması üçün xarici valyuta ehtiyatlarının dayanıqlı səviyyədə saxlanılması məqsədilə Dövlət Neft Fondundan transfertin dövlət büdcəsində payının tədricən azaldılması, məcmu borcun makroiqtisadi sabitliyə, o cümlədən dövlət büdcəsinin sabitliyinin gerçəkləşdirilməsi zəruriliyi bildirilib.

Milli Prioritetlərdə olduğu kimi, digər sənədlərdə də bildirilir ki, daxili borcun idarə edilməsi ölkədə maliyyə bazarlarının inkişafını dəstəkləməli, xarici dövlət borcunun dayanıqlı səviyyəsi qorunmalı, dövlət şirkətlərinin borclanmalarına nəzarət gücləndirilməli və bu əsaslarda dövlət və kvazi–dövlət borcunun idarəedilməsi təşkil olunmalıdır.

Bütün bunlar nəzərə alınaraq ölkədə son illərdə istər daxili, istərsə də xarici borcun qarşılanması üçün makroiqtisadi sabitliyin qorunması, qiymətlərin aşağı və sabit olması məqsədilə bir sıra tədbirlər həyata keçirilib. Bu sahədə idarəetmənin institusional çərçivəsi təkmilləşdirilib və maliyyə bazarlarının səmərəli fəaliyyəti təmin edilib. Belə bir şəraitdə isə iqtisadi proqnozlar özünü doğruldub, ən başlıcası isə əhalinin yığımları dəyərsizləşmədən xilas olunub və investisiya arımı reallaşıb.

Proqnozlara görə, Azərbaycanda orta illik inflyasiyanın isə 2023-cü ildəki 8,8 faizə qarşı 2024-cü ildə 2,1 faiz olacağı gözlənilir. Qlobal tendensiyalara uyğun olaraq, Qafqaz və Mərkəzi Asiya neft ixracatçıları arasında ümumi baza inflyasiyasının 2024-cü ildəki 7 faizdən ortamüddətli dövrdə 5,2 faizə enəcəyi proqnozlaşdırılır. Azərbaycanda 2024-cü ilin əvvəlində idxal inflyasiyasının təsirinin azalması səbəbindən inflyasiyanın əhəmiyyətli dərəcədə zəifləməsi müşahidə edilir.

Ekspertlər bildirirlər ki, inflyasiyanın azalması cari ilin əvvəlindən davamlı prosesə çevrilib. Ticarət tərəfdaşları üzrə inflyasiyanın nisbətən azalması, dünya əmtəə bazarlarında qiymətlərin enməsi, profisitli tədiyə balansı şəraitində valyuta bazarında tarazlığın qorunması, manatın nominal effektiv məzənnəsinin möhkəmlənməsi, hökumət tərəfindən həyata keçirilən antiinflyasiya tədbirləri inflyasiyaya azaldıcı təsir göstərib.

Bundan əlavə, qlobal əmtəə, enerji və ərzaq qiymətlərində azalmanın davam etməsi ölkəyə inflyasiya idxalını məhdudlaşdırmaqla inflyasiyaya azaldıcı təsir göstərir. Qiymətlərin zəruri gündəlik tələbat məhsulları üzrə daxili istehsalın təşviqi, eyni zamanda, ölkədə qiymətlərin bazar prinsipləri əsasında formalaşmasını qorumaqla işgüzar fəallığa və əhalinin sosial rifahına inflyasiyanın təsirlərini minimallaşdırmaq məqsədilə Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında", eləcə də "İnflyasiya və qiymətlər üzrə monitorinqin gücləndirilməsi istiqamətində əlavə tədbirlər barədə" sərəncamlarında nəzərdə tutulan kompleks tədbirlərin icrası da inflyasiyanın azalmasını şərtləndirir.

# Slovakiya da Azərbaycandan qaz almaq istəyir

**Slovakiya qaz təchizatı mənbələrinin şaxələndirilməsi, o cümlədən Azərbaycandan "mavi yanacağ"ın idxalı imkanlarının öyrənilməsi üzərində fəal işləyir. Bu barədə Slovakiyanın İqtisadiyyat Nazirliyi məlumat yayıb.**

Bildirilib ki, Azərbaycan rəsmiləri ilə, o cümlədən Avropaya qaz ixracının genişləndirilməsi ilə bağlı danışıqlar Slovakiyanın ölkəni yeni enerji mənbələri ilə təmin etməyə sadiq olduğunu göstərir. Hazırda Slovakiyanın yeraltı anbarlarının qazla dolu olduğunu bildirən mənbənin məlumatına görə, ölkə qonşu dövlətlərin qaz sistemlərinə qoşulub. "Bu, alternativ mənbələrdən və qaz çatdırılması marşrutlarından istifadə etməyə imkan verir ki, bu da Bratislavanın Ukrayna ərazisindən çatdırılan Rusiya qazından sırf asılı olmamasına imkan yaradır. Slovakiyanın İqtisadiyyat Nazirliyi digər maraqlı tərəflərlə birlikdə təbii qaz da daxil olmaqla enerji mənbələrinin şaxələndirilməsi istiqamətində əhəmiyyətli addımlar atıb", – deyə məlumatda vurğulanıb.

Xatırladaq ki, Ukrayna vasitəsilə Rusiyadan qaz tranziti üzrə müqavilənin müddəti 2024-cü ilin sonunda başa çatır. Rusiyadan Çexiya və Slovakiyaya Ukrayna vasitəsilə qaz tranziti "Qardaşlıq" qaz kəməri vasitəsilə həyata keçirilir. Ötən il Slovakiyada istehlak edilən qazın ümumi həcmi 4,23 milyard kubmetr təşkil edib.




Yeri gəlmişkən, Azərbaycan qazının Avropaya tədarükü Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan Trans-Adriatik Boru Kəməri (TAP) vasitəsilə 2020-ci ilin sonunda başlayıb. İlk vaxtlardan Yunanıstan, İtaliya, sonra isə Bolqarıstan, Rumıniya və Macarıstan ölkəmizdən qaz alıb. Bu ildən isə Serbiyanın da bu siyahıya daxil olması ilə Azərbaycanın ixrac coğrafiyası bir qədər də genişlənib.

Hazırda kəmərin ötürücülük qabiliyyəti ildə 12 milyard kubmetr qaz təşkil edir. 2027-ci ilin sonunadək isə bu həcmin 20 milyard kubmetrə çatdırılması nəzərdə tutulur. Məlumat üçün bildiririk ki, TAP-ın ümumi uzunluğu 878 kilometr təşkil edir ki, bunun da 550 kilometri Yunanıstanın şimal hissəsindən, 215 kilometri Albaniya ərazisindən, 105 kilometri Adriatik dənizinin dibi ilə, 8 kilometri isə İtaliya ərazisindən keçir

Energetika Nazirliyinin məlumatına görə, bu ilin yanvar-sentyabr aylarında Azərbaycandan Avropaya 9,4 milyard kubmetr qaz ixrac olunub. Hesabat dövründə ölkəmizdən Türkiyəyə 7,3 milyard kubmetr, Gürcüstana isə 1,7 milyard kubmetr qaz ixrac edilib. İlin 9 ayında Trans-Anadolu Qaz Boru Kəməri ilə Türkiyəyə 4,2 milyard kubmetr qaz nəql olunub. Ümumilikdə isə, 2024-cü ilin 9 ayı ərzində xaricə qaz satışı ötən ilin müvafiq dövrü ilə müqayisədə, təqribən, 4,2 faiz artıb.

Yaxın illərdə isə Azərbaycan qazının Avropaya nəqlinin iki dəfə artırılması nəzərdə tutulur. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, 2027-ci ilin sonuna qədər Avropaya qaz ixracı 16 milyard kubmetrə çatdırıla bilər. Bunun üçün isə ölkəmizin imkanları yetərincədir. Belə ki, Energetika Nazirliyinin proqnozlarına əsasən, 2030-cu ildə Azərbaycanda əmtəəlik qaz hasilatı 45 milyard kubmetrə qədər artacaq. Bu həcmə nail olmaq isə çox realdır. Çünki yataqlar işlənir, zəruri sərmayələr qoyulur. Eyni zamanda, həmin resursların Avropaya nəqli üçün Cənub Qaz Dəhlizinin genişləndirilməsi, eləcə də yeni interkonnektorların inşası nəzərdə tutulur.

# Mərkəzi Bankın iqtisadi artım gözləntiləri

**Azərbaycan Mərkəzi Bankının sədri Taleh Kazımov keçirdiyi mətbuat konfrasında ölkədə iqtisadi artımın 2024-cü ildə 3,9 faiz, 2025-ci ildə isə 3,3 faiz olacağının gözlənildiyini bildirib. Eyni zamanda, qeyri–neft–qaz sektorunda bu il 6,5 faiz, gələn il isə 5,1 faiz artım ptoqnozlaşdırıldığı vurğulayıb.**



T.Kazımov ölkədə inflyasiyanın güclənməsini xarici ticarət tərəfdaşları ölkələrində inflyasiya templərinin yüksək olması, azalmanı isə manatın nominal effektiv məzənnəsinin artması ilə əlaqələndirib.

O, rəhbərlik etdiyi qurumun illik inflyasiya proqnozuna düzəliş etdiyini xatırladaraq cari il üçün inflyasiya proqnuzunun 0,3 faiz azaldılması ilə 5,1 faiz, gələn il üçün isə inflyasiya proqnozunu 0,3 faiz artırılması ilə 5,8 faizə çatdırıldığını vurğulayıb.

# İstehlakçıların hüquqları necə qorunur?

**Bu ilin yanvar-sentyabr aylarında İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə istehlakçı hüquqlarının müdafiəsi və istehlak bazarına nəzarət sahəsində 5 min 597 müraciət daxil olub.**



Xidmətindən aldığımız məlumata görə, müraciətlərin 2 min 868-i qeyri-qida, 2 min 291-i xidmət, 275-i qida, 99-u dərman vasitələri və tibbi avadanlıqlar, 64-ü isə digər məsələlərlə bağlı olub. Bildirilib ki, qurum istehlakçıların hüquqlarının etibarlı müdafiəsini təmin etmək istiqamətində tədbirləri davam etdirir.

# Azad olunmuş ərazilərdə sahibkarlıq fəaliyyəti

**Cari ilin 1 oktyabr tarixinə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 5005 mikro, kiçik, orta və iri sahibkarlıq subyekti, 93 min 386 fərdi sahibkar fəaliyyət göstərib.**




Dövlət Statistika Komitəsinin məlumatına görə, mikro sahibkarlıq subyektlərinin sayı Qarabağ iqtisadi rayonu üzrə 3 min 875, Şərqi Zəngəzur iqtisadi rayonu üzrə 851 olub. Bu da ölkə üzrə ümumi sahibkarlıq subyektlərinin müvafiq olaraq 2,2 faizi və 0,5 faizi deməkdir.

İndiyədək Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə 240 kiçik, 28 orta və 11 iri sahibkarlıq subyekti qeydə alınıb.

Ötən ayın əvvəlinə Qarabağ iqtisadi rayonunda 87 min 510, Şərqi Zəngəzur iqtisadi rayonunda isə 5 min 876 fərdi sahibkar fəaliyyət göstərib.

# Sığorta bazarı 10 faiz böyüyəcək

**"Azərbaycan Sığortaçılar Assosiasiyası" (ASA) İctimai Birliyinin İcraçı direktoru Elmar Mirsalayev qəzetimizə müsahibəsində bu il ölkədə sığorta haqlarının 1,4 milyard manat (ötən illə müqayisədə 10 faiz çox) olacağının proqnozlaşdırıldığını bildirib.**




E.Mirsalayev xatırladıb ki, "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası"nda və "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində sığorta sektoru üçün böyümə hədəfi 10 faiz müəyyən edilib: "Sektor artıq 2-ci ildir ki, bu hədəf minimumunu üstələyir. Belə ki, 2022-ci ildə bazar böyüməsi 15 faiz, 2023-cü ildə isə 26 faiz olub".

Xatırladaq ki, 2023-cü ildə Azərbaycandakı 20 sığorta şirkətinin xətti ilə 1 milyard 222,537 milyon manat (2022-ci ilə nisbətən 25,9 faiz çox) sığorta haqqı toplanılıb.

# Viləşçay su anbarında yenidənqurma

**Viləşçay su anbarında müəyyən təmir işləri həyata keçiriləcək. Layihə çərçivəsində su anbarının tikinti-istismar sukeçirici qurğusunda (qülləli suburaxıcı qurğu) təmir-bərpası işləri aparılacaq. Bu barədə məlumat dövlət satınalmalarının vahid internet portalında yer alıb.**



Artıq Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyindəki Tikilməkdə Olan Obyektlərin Müdiriyyəti bununla bağlı hazırlıqlara başlayıb. Təmir-bərpa işlərinin icrası üçün 6,4 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***




**Dünya əhalisinin evi sayılan Yer kürəsi son dərəcədə ciddi ekoloji problemlərlə üz-üzədir. Hazırda əksər dövlətlərin siyasətində canlı aləmin təhlükəsizliyinin təmin olunması, sosial yaşayışın yaxşılaşdırılması və təmiz ekoloji mühitin yaradılması məsələləri yer alır. Ekoloji həssaslıq ətraf mühitin qorunması strategiyası, insanların sağlam mühitdə yaşamasının təmin edilməsi, meşə və yaşıllıq massivlərinin salınması Azərbaycan dövlətinin də bu sahədə siyasətinin tərkib hissədir. Əbəs yerə deyildir ki, BMT-nin İqlim dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cü sessiyasına – COP29 kimi mötəbər tədbirə ölkəmiz evsahibliyi edir. Bununla yanaşı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilmişdir.**

# İslam və ekologiya

2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etməkdə, COP29 kimi mühüm tədbiri öz öhdəsinə götürməkdə məqsəd ətraf mühitin qorunması istiqamətində əhəmiyyətli addımların atılması ilə yanaşı, Yer kürəsini bütün ölkələrlə birlikdə qorumaqdan ibarətdir.

Bildiyimiz kimi, dünya adlı evimizdə bütün canlı varlıqlar bir-biri ilə əlaqəlidir. Ali varlıq olan Adəm övladı təbiəti qorumaq, ona qayğı göstərmək məsələsində böyük məsuliyyət daşıyır. Çünki təbiət Allahın yaratdığı insana verdiyi əvəzsiz nemətdir. Bütün dinlərdə təbiətin mühafizəsi ön plandadır. Bəzi qədim inanclarda təbiəti canlı olmaqla yanaşı, müqəddəs varlıq kimi qələmə verirdilər. Buna misal olaraq havanın xoş keçməsi, yağışın yağması üçün mürəkkəb dini ayinlər mövcud idi.

Monoteist dinlərin ən qədimi hesab edilən Yəhudiliyin müqəddəs kitabı olan Tövratda ağacların kəsilməsinin qadağan edilməsi (20:19), dənizdəki balıqların, göydəki qanadlı məxluqlara, ev heyvanlarının, Yer üzündəki bütün heyvanların qorunması və onlara qayğı göstərilməsi tələb edilmişdir (Yaradılış 1:26-28). Dini bayramlardan hesab edilən yanvar ayının son, fevralın əvvəli ağacların yeni ilinin qeyd edilməsidir. Həmçinin hər altı ildən bir qeyd edilən şabbat ili və şənbə mərasimində təbii sərvətlərdən az istifadə edirlər. Hazırda eko-yəhudilik anlayışı dünyada ekosistemin qorunmasına böyük töhfələr verir. Bu sistemdə dünyanı təmin etmək, dayanıqlı və orqanik kənd təsərrüfatı məhsullarını, yenilənə bilən enerji, tullantıların azaldılması, suya qənaət, heyvan və biomüxtəliflkiyə qayğı və başqa mühüm işlər daxildir.




Ən böyük səmavi din olan xristianlıqda müqəddəs Bibliya və İsa Məsihin (ə.) təlimlərinə əsaslanaraq ekologiya mühüm yer tutur. Müqəddəs Bibliyaya görə, insan yer üzünün qəyyumudur. Həzrət İsanın (ə.) təlimləri insanın təbiətlə əlaqəsi sevgi və ədalətlə davranışları öyrədilir. İsa (ə.) suyun üzərində gəzir (Matta, 22), insanların qidası üçün balıqların sayını çoxaldır (Yəhya, 6: 1-14),fırtınanı sakitləşdirir. Bu müqəddəs kəlamlar insan və ətraf mühit arasında harmoniyanı, qarşılıqlı əlaqələri ifadə edir.

Xristianlarda ekoloji inkişaf müəyyən mərhələlərdən keçmiş, ilk kilsədən müasir teoloqlara qədər zamanla formalaşmışdır. Bu formalaşmaya yaşıl məbədlərin yaradılması, ekologiyadan ədalətli istifadəsi üçün dini liderlər, o cümlədən Papa Fransisk təsir etmişdir. Dini liderlər çıxışlarında bu istiqamətdə görülən işlərə xüsusi ilham vermiş, xristian əxlaqını əks etdirən təbliğatlar aparırlar. Göylər Allahın şanını, səma isə Onun gördüyü işi bildirir (Məzmur,19:1).

İslam dini də ekosistemə qayğı anlayışını daha geniş və inteqrasiya olunmuş formada təqdim edir. Bu dinin əsasını təşkil edən Qurani-Kərimdə və İslam peyğəmbərinin (s.) kəlamlarında ətraf mühitin müqəddəsliyi və ekoetika məsələlərində müsəlman əxlaqının hansı səviyyədə olduğunu görürük. Allah-Təala Yer planetinin xəlifəsi olan insanı (Bəqərə 30, Hud 61) yaşadığı yerdə fitnə-fəsad törətməkdən çəkindirir (Bəqərə 205, Rum 41, Qəsəs 77). Quran ayələrindən anlaşılır ki, insanların hazırki fəaliyyəti, müharibələr ekosistemə böyük ziyan vurur. Yuxarıda qeyd etdik ki, Quranın təbirincə, insan Allahın Yerdəki xəlifəsidir, xəlifə olaraq məsuliyyəti böyükdür. O, Yer planetinin flora və faunasının qorunmasına cavabdehdir. Quranın ən-Nəhl (bal arısı) və əl-Ənam (mal-qara) surələrində bitki həyatının müxtəlifliyi, canlıların bir-biri ilə bağlı olmasından, ağac və yaşıllıqların həyatı təmin etməsindən bəhs edir. Göydən faydalı yağışın nazil olması, ildırımın çaxması, gecə-gündüzün növbələşməsi, suyun müqəddəsliyindən, heyvanlara qayğı, ağac əkmək, ağacları kəsməmək, əsassız olaraq canlı öldürməmək kimi ekosistemin qorunması kimi ayələri görürük (Bəqərə 22, Nəhl 5). İslam Peyğəmbərinin (s.) kəlamlarında "axar çayın kənarında olsanız belə dəstamaz alarkən suyu israf etməyin (Sunən ibn Macə).

Hələ İslamın ilk illərində (VIII – XIV) böyük bir yaşıl inqilab yaşanmışdır. Həmin illərdə kənd təsərrüfatında suvarma, əkin, məhsulun yığılması sahəsində böyük təcrübələr qazanmışlar. Bu gün də İslam ölkələri "Yaşıl dünya" təcrübəsini dəstəkləyir və bu işlərdə fəal iştirak edirlər.




İslam dünyasının bir parçası sayılan Azərbaycan da iqlim dəyişikliyi ilə bağlı qlobal dialoqun əsas iştirakçılarından biridir. Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda ekoloji tarazlığın bərpası istiqamətində mühüm tədbirlər görülmüşdür. Uzun illər işğal altında olan torpaqlarımız ermənilər tərəfindən ekoloji terrora məruz qalmışdır. Bu gün cənab Prezidentin nəzarəti altında həmin ərazilərdə bərpa işləri aparılır.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın bir gündə 650 min ağacın əkilməsi təşəbbüsü ölkəmizdə onun səyi ilə ekologiyanın sağlamlaşdırılması, yeni yaşıllıqların salınması istiqamətində aparılan işlərin məntiqi davamıdır.

Azərbaycanın dini konfessiya nümayəndələri Qafqaz Müsəlmanları İdarəsi sədrinin rəhbərliyi ilə ölkəmizə qarşı törədilən etnik təmizlənmə, Xocalı soyqırımı, mina terroru, vətənmizin ekologiyasına vurulan ziyanlar barədə dəfələrlə dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, dünya dini mərkəzlərinə bəyanat və müraciət ünvanlamışlar.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına uyğun olaraq ölkədə fəaliyyət göstərən dini icmaların təşkilatçılığı ilə ağacəkmə kampaniyaları təşkil edir.

COP29 çərçivəsində dini liderlər Bakı və işğaldan azad olunmuş ərazilərdə 5-6 noyabr tarixlərində bir araya gələrək ekosistemə dinin nəzəri məsələlərini müzakirə edəcəklər. Qafqaz Müsəlmanları İdarəsi sədrinin Misir Ərəb Respublikası müftisinin müşaviri İbrahim Nəcm ilə həmmüəllif olduğu "Dinlər və ekoetika", həmçinin Şeyxülislam Allahşükür Paşazadənin müəllifliyi ilə ərsəyə gələn "Yaşıl dünya – İlahi nemət" kitabları ekoloji böhranla mübarizə aparan təşkilatlar üçün dəyərli vasitədir. Qeyd edək ki, "Dinlər və ekoetika", "Yaşıl dünya – İlahi nemət" kitabları Azərbaycan və ingilis dillərində nəşr edilmişdir.

Beləliklə, Azərbaycan ətraf mühitlə bağlı mövcud olan problemlərin həllində bütün sahələri əhatə edərək faydalı işlər görməkdədir. Əqidəsindən asılı olmayaraq azərbaycanlılar ekoloji məsələləri gündəlik həyatlarına daxil etmişlər. İnanclılar da öz növbəsində ənənəvi təlimlərə əsaslanaraq, Allahın bütün yaratdıqlarına olan qayğını teoloji əxlaq olaraq həyata keçirirlər.

*Samid QULİYEV,*
*Qafqaz Müsəlmanları İdarəsinin əməkdaşı, teoloq*

# Bakıda Davamlı İnnovasiya Forumu da keçiriləcək

**Noyabrın 13-14-də COP29 çərçivəsində Kembric Davamlılıq Liderliyi İnstitutu və "Climate Action"ın birgə əməkdaşlığı ilə 16-cı dəfə Davamlı İnnovasiya Forumu keçiriləcək.**




Bu barədə institutun saytında məlumat verilib. Bildirilib ki, forum biznes, hökumət, şəhərlər, maliyyə və vətəndaş cəmiyyəti də daxil olmaqla, bütün sektorlardan qlobal davamlılıq liderlərini bir araya gətirəcək. Tədbirin məqsədi iqlim dəyişikliyi ilə mübarizədə daha irəli getmək üçün transformativ yenilikləri və real tədbirləri təşviq etməkdir.

Qeyd olunub ki, forum iqlim liderləri, yenilikçilər və sahə mütəxəssisləri ilə əlaqə qurmaq üçün geniş şəbəkələşmə imkanları təqdim edir və COP çərçivəsində iştirak üçün ideal bir fürsətdir.

Forumda çıxış edəcək şəxslər arasında Kaliforniya Ətraf Mühiti Qoruma katibi Yana Qarsiya, Bezos Yer Fondunun icraçı direktoru Andryu Stir və ABŞ Enerji Departamentinin icraçı ticarət direktoru Vanessa Çanın da adı var.

# Qazaxıstan mediası ekoloji savaşın önəmindən yazıb

**"Uzun müddətdir ki, böyük neft və qaz ehtiyatları ilə tanınan Azərbaycan son vaxtlar yaşıl enerjiyə keçidini sürətləndirib. Ölkə qlobal dekarbonizasiya məqsədlərinə cavab verən dayanıqlı enerji infrastrukturunu inkişaf etdirmək məqsədilə neft ixracından əldə edilən gəlirlərdən istifadə edir".**




Bu barədə "Kazinform" beynəlxalq informasiya agentliyinin "Neft dollarlarını yaşıllaşdırmaq: resursla zəngin ölkələr təmiz enerjini necə inkişaf etdirir" sərlövhəli məqaləsində deyilir. Agentlik qeyd edir ki, dünyada yaşıl enerjiyə keçidin sürətləndiyi bir vaxtda bir çox ölkələr davamlı təcrübələri inteqrasiya etmək və qazıntı yanacaqlarından asılılığı azaltmaq üçün unikal yanaşmalar tətbiq edir. Azərbaycan, Norveç, Birləşmiş Ərəb Əmirlikləri, Braziliya və Qazaxıstan kimi neft və qaz ölkələri coğrafi, iqtisadi və siyasi amillərlə formalaşan fərqli strategiyaları təmsil edir.

Məqalədə neft hasil edən ölkələrin yaşıl enerjinin inkişafına investisiyaları araşdırılır. Azərbaycanla bağlı hissədə qeyd olunur ki, respublika müstəqillik əldə etdikdən sonra neft ixracı, xüsusilə də Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) hesabına xeyli sərvət toplayıb. 2023-cü ilə qədər ARDNF-də əsasən neft və qaz gəlirləri hesabına 53 milyard dollardan çox vəsait toplanıb. Əvvəlcə infrastrukturun inkişafı və sosial proqramlar üçün istifadə edilən bu vəsait indi ölkənin enerji kompleksinin şaxələndirilməsi məqsədilə qismən yaşıl enerji layihələrinə ayrılır.

Agentlik daha sonra yazır: "Azərbaycan neft sərvətinin artan hissəsini yaşıl enerji mənbələrinə sərf edir. Rəsmilərin dediyinə görə, külək, günəş və su elektrik enerjisinə sərmayələr də daxil olmaqla, bərpaolunan enerji layihələrinə 1,5 milyard dollardan 2 milyard dollara qədər vəsait ayrılıb. Məqsəd milli enerji balansında 2030-cu ilə qədər neft hesabına maliyyələşdirilən investisiyalar tərəfindən dəstəklənən bərpaolunan enerji mənbələrinin payını 30 faizə çatdırmaqdır.

Ölkənin qazıntı yanacaqlarından asılılığının azaldılmasında əsas rol oynayacağı gözlənilən 240 MVt gücündə Xızı Abşeron külək stansiyası və 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyası kimi irimiqyaslı bərpaolunan enerji layihələrinə əhəmiyyətli investisiyalar yatırılıb".

Yazıda qeyd edilir ki, Azərbaycan yaşıl enerji sahəsində "Masdar (BƏƏ) və "ACWA Power" (Səudiyyə Ərəbistanı) kimi şirkətlərin təcrübəsindən bərpaolunan enerji layihələrində istifadə etməklə onlarla əməkdaşlıq edir. Ölkə "ACWA Power"ın külək layihələrindən 2,5 GVt daxil olmaqla, ümumi gücü 7 GVt olan böyük günəş və külək elektrik stansiyalarının tikintisini planlaşdırır".

Materialın davamında diqqətə çatdırılır: "Azərbaycan, həmçinin Yaşıl Enerji Dəhlizi çərçivəsində Xəzər dənizi vasitəsilə Avropaya yaşıl enerji ixrac etmək planlarını hazırlayır. Respublika 2027-ci ilə qədər səkkiz günəş və külək elektrik stansiyasının tikintisi də daxil olmaqla 2,8 milyard dollar dəyərində enerji layihələrini həyata keçirməyi planlaşdırır.

Bundan əlavə, Azərbaycan Qazaxıstan və Özbəkistanla bu dəhliz üzrə müştərək müəssisənin yaradılması barədə razılıq əldə edib. Azərbaycan, Gürcüstan və Avropa arasında yaşıl enerjinin nəqli üçün Qara dəniz kabel layihəsi hazırda texniki-iqtisadi əsaslandırma mərhələsindədir və əsas nəticələrin Bakıda COP29-da təqdim olunacağı gözlənilir".

Məqalədə vurğulanır ki, BMT-nin qarşıdan gələn iqlim dəyişikliyi konfransı - COP29 Azərbaycana böyük imkanlar yaradır.

Kazinform qeyd edir: "Yaşıl enerji layihələrinə və bərpaolunan enerji mənbələrinə sadiqliyini nümayiş etdirən Azərbaycan yeni beynəlxalq investisiyalar almağa və qlobal maliyyə institutları ilə əməkdaşlığı gücləndirməyə ümid edir".

# Aİ səfiri COP29 məkanında

**Avropa İttifaqının (Aİ) Azərbaycandakı səfiri Peter Mixalko "X" sosial şəbəkəsindəki hesabında COP29 iqlim konfransının keçiriləcəyi Bakı Olimpiya Stadionunda olması ilə bağlı paylaşım edib.**




Paylaşımda iqlim konfransının başlanmasına 10 gün qaldığı, COP29-un iqlim dəyişikliyi ilə mübarizəyə həsr ediləcək ən böyük qlobal platforma olacağı qeyd edilib.

# Konfrans qonaqlarına 16 nəqliyyat qovşağı xidmət göstərəcək

**İqlim konfransı günlərində tətbiq olunacaq nəqliyyat planının təqdimatına dair brifinqdə COP29 Nəqliyyat Departamentinin rəhbəri Orxan Mahmudlu sessiya iştirakçılarını gedəcəkləri ünvana çatdırmaq üçün 16 nəqliyyat qovşağının yaradıldığını deyib.**



O. Mahmudlu bildirib ki, qovşaqlar hotellərin və iştirakçıların yerləşdirildiyi yaşayış komplekslərin olduğu sahələrdə fəaliyyət göstərəcək. Bu, əsasən Bakı və Abşeronu əhatə edəcək. Qovşaqlar vasitəsilə hava limanına və konfransın keçirildiyi məkana daşımalar da həyata keçiriləcək.

# COP29 zolaqlarında hərəkət

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının iştirakçılarının rahat hərəkəti üçün çəkilən COP29 zolaqlarından xüsusi taksilər də istifadə edə biləcək.**

Bu fikri Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi İdarə Heyətinin sədri Anar Rzayev COP29 günlərində tətbiq olunacaq nəqliyyat planının təqdimatına dair brifinqdə səsləndirib. O deyib ki, bu nəqliyyat vasitələri qırmızı rəngli, elektrik mühərrikli taksilərdir. Bununla belə, vətəndaşların və tədbir iştirakçılarının konfrans günlərində istifadə edəcəkləri adi taksilərin COP29 zolaqlarına daxil olmasına məhdudiyyət tətbiq ediləcək.




*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*




# Qlobal iqlim konfransı keçirmək Azərbaycanın gücünü və nüfuzunu nümayiş etdirir

**Hazırda dünya özünün yeni inkişaf dövrünü yaşayır. İnkişaf prosesi isə yüksək texnologiyalardan nə qədər asılı olsa da, insan şüuruna, onun intellektual səviyyəsinə və digər dəyərlərə daha çox ehtiyac duyur. Uzun illərdir sənayedə, aqrar sahədə, mədənçıxarmada və başqa sahələrdə sürətli inkişafa nail olan bəşəriyyət ətraf mühitə vurduğu ziyanın fərqində deyil. Bununla da təbiətdə enerji resursları azalır, ekologiyaya ciddi zərbələr vurulur.**




Bu səbəbdən də son illər ekoloji problemlərin həllinə diqqət getdikcə artırılıb. Ekoloji tədbirlərin əsas məqsədi isə gələcək nəsillərin ehtiyaclarının təmin edilməsi üçün ekosistemlərin, iqtisadi potensialın qorunması və təbii ehtiyatlardan səmərəli istifadə etməklə davamlı inkişafa nail olmaqdır.

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra digər sahələrdə olduğu kimi, ətraf mühitin mühafizəsi ilə bağlı müstəqil siyasətini formalaşdırmağa başlayıb. Ümummilli liderimiz, suveren Azərbaycanımızın qurucusu Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə ekoloji problemləri daim diqqət mərkəzində saxlayıb. Təsadüfi deyil ki, Ümumilli lider bu barədə deyib: “Təbiət Allah tərəfindən yaradılıb. Onu qorumaq isə bizim müqəddəs vəzifəmizdir… Hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir. Əgər kimsə sağlam ağacı kəsirsə o, nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o, öz ailəsinə, özü-özünə xəyanət edir. Ona görə də siz hər bir ağacın qorunması uğrunda mübarizə aparmalısınız”.

1995-ci il noyabr ayının 12-də qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiyasında ilk dəfə olaraq “Hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır” (39-cu maddə) maddəsi öz əksini tapıb. Bu maddənin icrası üçün Azərbaycan Respublikasının Milli Məclisi ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən istifadə olunması ilə bağlı çoxsaylı qanunlar qəbul edib.

Hazırda Azərbaycan Respublikası beynəlxalq iqtisadi və siyasi münasibətlər sisteminin aparıcı qüvvəsinə çevrilib. Ölkəmiz müəllifi olduğu layihələr, ortaya qoyduğu təşəbbüslər və uzunmüddətli iqtisadi inkişaf perspektivləri ilə yüksək potensiala malik olduğunu sübut edib. Ötən müddətdə regional, milli və beynəlxalq mahiyyətli layihələrin reallaşmasına verilmiş töhfələr milli iqtisadiyyatımızın etibarlılığının bariz nümunəsidir.

Yeri gəlmişkən, tarixən insanların ətraf mühitə, təbiətə və iqlim sisteminə təhdid olacaq təsirinin minimuma endirilməsi öz aktuallığı ilə seçilib. Uzun illər beynəlxalq miyqasda ölkələrin dövlət siyasətinin də mühüm tərkib hissəsini təşkil edən bu vacib məsələ bütün dünya ölkələrini vahid komanda şəklində birləşməyə sövq edir. Elə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası da bu məqsədlə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində qəbul olunub. Onu da qeyd edək ki, COP (Conference of Parties) termininin ingilis dilindən tərcüməsi Tərəflər Konfransı İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının həyata keçirilməsinə nəzarət edən yüksək qərarverici struktura çevrilib. Tərəflər Konvensiyasına üzv ölkələrin sayı 198-dir. Üzv ölkələrin yekdil qərarına əsasən, COP yığıncaqları hər il keçirilə bilər. COP-un ilk yığıncağı isə 1995-ci ilin mart ayında Almaniyanın Berlin şəhərində keçrilib. Elə qurumun katibliyi də Almaniyanın Bonn şəhərində yerləşir.

Yeni iqtisadi inkişaf mərhələsində BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) ölkəmizdə keçirilməsi xüsusi aktuallıq kəsb edir. Xatırladaq ki, həmin tədbirin Azərbaycanda keçirilməsi ilə bağlı qərar COP28-in 2023-cü il dekabrın 11-də Dubayda keçirilmiş plenar iclasında qəbul olunub. Dünya birliyinin bu mötəbər iqlim tədbirinin Azərbaycanda keçirilməsi ilə bağlı yekdil qərarı ölkəmizin iqtisadi qüdrətinin və beynəlxalq nüfuzunun məntiqi nəticəsidir. Məlum olduğu kimi, Azərbaycan Respublikası neft və qeyri-neft sektorlarının uzunmüddətli perspektivləri müstəvisində bir sıra regional, milli və beynəlxalq miqyaslı tədbirlərə uğurla ev sahibliyi edib. İqlim konfransının keçiriləcəyi günlərdə dünyanın diqqəti yenidən Azərbaycana yönələcək.

Eyni zamanda, beynəlxalq səviyyəli konfransa ev sahibliyinin Azərbaycan Respublikasına həvalə edilməsi ölkəmizin tarixi nailiyyəti kimi dəyərləndirilməlidir. Bu, hər şeydən əvvəl, Azərbaycanın “yaşıl iqtisadiyyat”a keçid sahəsindəki islahatlarının beynəlxalq iqtisadi münasibətlər sistemində dəstəklənməsi və bu sahədəki tənzimləmə tədbirlərinin sosial, iqtisadi və məntiqi davamı hesab olunur. Sözügedən proseslərin davamı olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2024-cü il ölkəmizdə “Yaşıl dünya naminə həmrəylik ili” elan olunması məhz həmin proseslərin zəruri davamıdır. Əslində, ölkəmizdə qeyri-neft sektorunun inkişaf perspektivlərinin müəyyən olunması sahəsində həyata keçirilmiş olan tədbirlər özünün sistemliliyinə, əlaqəliliyinə və səmərəliliyinə görə seçilir ki, burada da yeni uzunmüddətli prioritetlərin mühüm əhəmiyyətini qeyd etmək olar.

Ölkəmizin işğaldan azad edilmiş ərazilərinin də potensialından yararlanmaqla daha mütərəqqi nəticələrə nail olmaq mümkündür. Məlum olduğu kimi, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları, eləcə də Naxçıvan Muxtar Respublikası “yaşıl enerji” zonası elan edilib. Azad olunmuş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə “ağıllı şəhər”, “ağıllı kənd” kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur. “Yaşıl” enerji növlərinin yaradılması və təmiz enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Təsadüfi deyil ki, ölkəmiz elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir.

Yeri gəlmişkən, “Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın Milli Prioritetləri”ndə qeyd olunmuş 5 əsas istiqmətdən biri “təmiz ətraf mühit” və “yaşıl artım”la bağlıdır. Məhz buradan da aydın olur ki, ölkəmizdə bu sahə ilə bağlı proseslərin möhkəm hüquqi bazası yaradılıb. Bu da hazırkı mərhələ üçün olduqca aktuallıq kəsb edən COP29-un əhəmiyyətini artırır. Beləliklə, ölkəmiz yeni inkişaf mərhələsi üçün daha mühüm hədəflərin əlçatanlığını təmin edir.

*Aynur TURAN*

# 25 illik “yaşıl” keçid

## *Sıfır emissiya Azərbaycana 200 milyard dollara başa gələcək*

**Energetika nazirinin müavini, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının baş icraçı direktoru Elnur Soltanov Bakıda keçirilən “Gələcəyin sədaları: İqlim fəaliyyəti və qlobal məqsədlərə yönələn səylərin əlaqələndirilməsi” mövzusunda 5-ci Dayanıqlı İnkişaf Məqsədləri Dialoqunda 2050-ci ilə qədər sıfır xalis emissiyasını gerçəkləşdirmək üçün ölkəmizə 200 milyard dollar həcmində investisiya lazım olduğunu deyib.**

Onun sözlərinə görə, iqlim konfransında xalis sıfır yanaşması ilə bağlı əsasında böyük investisiyalar dayanan daha qətiyyətli qərarlar verilməlidir – başqa yolumuz yoxdur, əks təqdirdə dünyanı məhv etmiş olarıq. 2050-ci ilə qədər xalis sıfıra çatmaq üçün 40 gigavat/saatdan çox günəş və külək enerjisi lazımdır. Bu isə Azərbaycanda mövcud qoyuluş gücünün 5 qatıdır. 2050-ci ildə ölkənin elektrik enerjisi istehlakının 89 teravat/saata çatması gözlənilir. Hazırda bu göstərici 33 teravatdır, yəni üç dəfə artacaq.




E.Soltanov əlavə edib ki, investisiya baxımından əsas pay 24 faizlə elektrik enerjisi istehsalı sektoruna aiddir. İkinci yerdə ev və binalar, üçüncü yerdə isə neft və qaz sektorları gəlir ki, onlar, təxminən, emissiyaların 26 faizinə cavabdehdir. Dördüncü sektor nəqliyyat, beşinci sənaye, altıncı tullantı, yeddinci sektorisə kənd təsərrüfatıdır.

# Səhiyyə gücləndirilmiş rejimdə çalışacaq

**“Yeni Klinika”da COP29 çərçivəsində tibbi xidmətlərin təşkilinə həsr olunmuş brifinq və mediaturda səhiyyə nazirinin müavini Nadir Zeynalov, TƏBİB-in icraçı direktoru Vüqar Qurbanov, direktorun müavinləri, qurumun müşavirləri və struktur bölmə rəhbərləri, tibb müəssisələrinin rəhbər heyəti, eləcə də media nümayəndələri və ictimai xadimlər iştirak ediblər.**



TƏBİB-in icraçı direktoru Vüqar Qurbanov COP29 konfransı günlərində səhiyyə müəssisələrində yüksək səviyyəli tibbi xidmətlərin göstəriləcəyini diqqətə çatdırıb. Mühüm iqlim tədbirinin keçirilməsi üçün Azərbaycanın bütün dövlət və özəl qurumlarının üzərinə böyük məsuliyyət düşdüyünü vurğulayan icraçı direktorun sözlərinə görə, TƏBİB digər səhiyyə qurumları ilə yanaşı, zəruri tibbi xidmətləri keyfiyyətli şəkildə təşkil edib: “Bu istiqamətdə Səhiyyə Nazirliyi və COP29 Əməliyyat Şirkəti ilə də koordinasiyalı çalışmışıq. Tibb müəssisələrimiz zəruri tibbi xidməti təmin edə bilmək üçün hazır vəziyyətə gətirilib. “Yeni Klinika”nın təcili və təxirəsalınmaz tibbi yardım, uşaq təcili tibbi yardım, stasionar, reanimasiya şöbələri və əməliyyat otağı tibbi xidmətə zərurət ehtimalı nəzərə alınaraq tam səfərbər olunub. Yoluxucu xəstəliklər üçün Sabunçu Tibb Mərkəzinin nəzdində fəaliyyət göstərən Məhəmmədi modul tipli xəstəxanada 4-ü reanimasiya olmaqla, 14 çarpayı, böhran vəziyyətləri üçün 100 reanimasiya çarpayı olmaqla, 370 çarpayı ayrılıb. Mərkəzi Neftçilər Xəstəxanasında bütün zəruri tibbi avadanlıqlarla təchiz olunmuş yanıq şöbəsi yaradılıb. Zəhərlənmə ehtimalları üzrə Kliniki Tibbi Mərkəzin toksikologiya şöbəsində müvafiq tibbi xidmətin göstərilməsi üçün çarpayılar ayrılıb”.

TƏBİB rəhbəri, həmçinin qeyd edib ki, konfransın keçiriləcəyi günlərdə 60 briqada (həkim, orta tibb işçisi, sürücü daxil olmaqla) gücləndirilmiş iş rejimində fəaliyyət göstərəcək. COP29 iştirakçıları üçün ayrılmış otellərdə, həm də tədbirin keçiriləcəyi məkanda təcili və təxirəsalınmaz tibbi yardım briqadaları xidmət edəcək. Zəruri tibbi xidmətlərin göstərilməsi, çağırış ünvanlarına vaxtında çatmaq üçün 60 yeni ambulans ayrılıb ki, bunun da 3-ü elektromobildir. Onun sözlərinə görə, təcili və təxirəsalınmaz tibbi yardım xidməti göstərəcək heyət üçün təşkil olunmuş təlimlərdə 448 həkim, orta tibb işçisi və sürücü iştirak edib. Eyni zamanda, xarici qonaqlarla rahat kommunikasiyanı təmin edə bilmək üçün 331 nəfər ingilis dili kurslarına cəlb olunub.

Səhiyyə nazirinin müavini Nadir Zeynalov COP29 tədbiri günlərində tibbi xidmətin yüksək səviyyədə təşkil olunması üçün bütün səhiyyə qurumlarının koordinasiyalı şəkildə fəaliyyət göstərdiyini bildirib: “Həm TƏBİB-in, həm Səhiyyə Nazirliyinin tabeli tibb müəssisələri, həm də özəl xəstəxanalar olmaqla 9 xəstəxanada tibbi xidmətin təşkili üçün işlər görülüb. 10 minlərlə qonağın şəhərimizə gələcəyini nəzərə alaraq yaranmış təcili hallarla əlaqədar profilaktika istiqamətində də işlər görülüb. Xaricdən gələn şəxslər arasında epidemik xəstəlik daşıyıcıları da ola bilər. Bu məqsədlə Heydər Əliyev Beynəlxalq Aeroportunda termometrlər quraşdırılacaq ki, ilkin mərhələdə hərarət ölçülsün. Hətta, zəruri diaqnostik testlərlə təminatımız var. Hazırda poliklinikalarda qrip əleyhinə peyvəndlənmə də davam etdirilir. Bu da COP29 tədbirində vətəndaşlarımız arasında qripin ağırlaşmalarının və yayılmasının qarşısının alınmasına kömək edəcək. Nazir müavininin sözlərinə görə, mehmanxanalarda və ictimai iaşə obyektlərində də epidemik xəstəliklərin yayılmasının qarşısını almaq üçün dezinfeksiya işləri aparılacaq.

Sonda TƏBİB-in icraçı direktorunun müavini Araz Nəsirov həm xəstəxanalarda tibbi xidmətin təşkilindən, həm də təcili tibbi yardım briqadalarının təhkim olunduğu ərazilərdən bəhs edib. Qeyd olunub ki, “Heydər Əliyev Beynəlxalq Aeroportunda, Heydər Əliyev Mərkəzində, “Atletlər” kəndində, metronun “Koroğlu”, “28 May” və “Elmlər Akademiyası” stansiyalarında, eləcə də qonaqların məskunlaşdığı ərazilərdə tibbi xidmətin göstərilməsi üçün həkim məntəqələri təşkil edilib. Eyni zamanda, “103” Çağrı Xidmətində ingilis dilini bilən işçilərin növbəli fəaliyyəti təşkil olunub, Bakı Olimpiya Stadionuna ambulanslar təhkim edilib, COP29 Qərargahında növbətçilik təşkil olunub.

Brifinqdə media nümayəndələrinin çoxsaylı sualları cavablandırıldıqdan sonra iştirakçılar “Yeni Klinika”da yaradılan şəraitlə tanış olublar.

*Zərifə HÜSEYNOVA*
*XQ*

# Dəmir yollarında “təmiz” hədəflər

**“Azərbaycan Dəmir Yolları”nın (ADY) bütün strukturları qlobal iqlim konfransına hazırlıq çərçivəsində gücləndirilmiş iş rejiminə keçib. Belə ki, stansiya və vağzallarda xidmət göstərən əməkdaşların sayı artırılaraq əlavə işçi qüvvəsi cəlb edilib.**



Sərnişinlərlə birbaşa ünsiyyətdə olan 300-dən çox əməkdaş COP29 zamanı yüksək keyfiyyətli xidmət göstərmək üçün müştəri xidmətlərinə dair və ingilis dili üzrə təlimlərdə, həmçinin ətraf mühitin mühafizəsi mövzusunda seminarlarda iştirak edib.

Həmçinin sərnişinlər üçün COP29 tədbiri haqqında məlumatlılığın artırılması, həmçinin səyahət təcrübəsinin təkmilləşdirilməsi məqsədilə Abşeron dairəvi dəmir yolu marşrutu üzrə hərəkət–naviqasiya sistemləri, o cümlədən işarələr, monitorlar və s. quraşdırılıb. Eyni zamanda, Bakı Dəmiryol Vağzalı və Koroğlu dayanacağında mövcud turniket zallarının sahəsi genişləndirilərək keçid turniketlərinin sayı artırılıb, yeni monitorlar quraşdırılıb.

Bakı və Sumqayıt vağzallarında görmə məhdudiyyətli sərnişinlərin hərəkətini asanlaşdırmaq üçün taktil döşəmələr yenilənib. Fiziki məhdudiyyətli sərnişinlərin rahat hərəkətini təmin etmək üçün Bakı Dəmiryol Vağzalındakı liftə texniki baxış keçirilib. Bütün stansiya və vağzallarda panduslar yoxlanılıb və Biləcəri stansiyasında əlavə pandus quraşdırılıb. Həmçinin Gəncə və Qəbələ vağzallarında təmir–bərpa işləri həyata keçirilib. Bakı və Sumqayıt vağzallarında fəaliyyət göstərən tibb məntəqələrində gücləndirilmiş iş rejiminin tətbiqinə başlanıb.

Eyni zamanda, sərnişin daşımaları üçün istifadə edilən qatarların monitorları COP29 mövzusuna uyğun vizual materiallarla brendləşdirilib, qatarlarda əsaslı kimyəvi təmizləmə işləri həyata keçirilib. Sərnişinlərin mənzilbaşına vaxtında və təhlükəsiz çatdırılması üçün rezerv qatarlar ayrılıb.

COP29 tədbirinə hazırlıqların davamı kimi dəmir yollarının ətrafı və yaxın ərazilər tullantılardan təmizlənib, tullantılar çeşidlənərək aidiyyəti üzrə təhvil verilib. Yaşıllaşdırma işləri çərçivəsində dəmir yolları ətrafında yeni ağac zolaqları salınıb.

Sərnişindaşıma və yükdaşıma xidmətlərinin təkmilləşdirilməsi ilə paralel olaraq dəmiryol muzeyində də COP29 iqlim sammitinə hazırlıq üçün tədbirlər görülüb. Muzeyə 3 dildə danışan bələdçilər cəlb edilib. Xarici qonaqlar üçün məlumat əlçatanlığını təmin etmək üçün 60-a yaxın eksponat haqqında məlumatların QR kod vasitəsilə əldə edilməsi təmin edilib. Muzeyin daxili konstruksiyası yenilənib, “zaman qatarı” guşəsi hazırlanıb, həmçinin yenilənmiş kino zalda bir neçə dildə dəmir yolları haqqında sənədli filmlərin nümayişinə başlanıb.

# Çağrı Mərkəzi fəaliyyətə başladı

**İqlim konfransına hazırlıq prosesinin tamamlanması ərəfəsində konfrans iştirakçıları üçün məlumat dəstəyinin təmin edilməsi məqsədilə COP29 Çağrı Mərkəzi fəaliyyətə başlayıb.**



COP29 Azərbaycan Əməliyyat Şirkətindən bununla bağlı verilən məlumatda qeyd edilib ki, iqlim konfransları tarixində ilk dəfə məhz Bakıda yaradılan Çağrı Mərkəzinin məqsədi burada iştirakçıların müxtəlif istiqamətlərlə bağlı sorğularının operativ geçəkləşdirməkdir.

Noyabrın 1-dən fəaliyyətə başlayan Çağrı Mərkəzi iştirakçıların akkreditasiya və Yaşıl Zona biletləri, nəqliyyat, qonaqlama xidmətləri, sağlamlıq, təhlükəsizlik, logistika kimi bir sıra mövzularda müxtəlif sorğularını cavablandırır, konfrans və əlaqəli məkanlarda əlçatanlıq xidmətləri haqqında məlumatlandırır.

Çağrı Mərkəzi ənənəvi zəng xidməti ilə yanaşı, müxtəlif rəqəmsal platformalar vasitəsilə də əlaqə yaratmaq imkanına da malikdir. Belə ki, iqlim konfransı ilə əlaqədar hər hansı sualı olan şəxslər COP29-un rəsmi internet səhifəsi üzərindən canlı çat, WhatsApp və Telegram üzərindən isə birbaşa əlaqə və ya yerli zənglər üçün ödənişsiz olan *1029 qısa nömrəsinə zəng edərək məlumat ala bilərlər. Bundan əlavə, ilkin mərhələdə Çağrı Mərkəzi, həmçinin İnteraktiv Səsli Cavab Sistemi və Chatbot kimi özünəxidmət vasitələri ilə də məlumatlandırma xidmətlərini göstərəcək.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

Günün ağrıları

# Toy və yas mərasimləri

## *Ənənə, yoxsa mafiyanın cazibəli tələsi?*

**– İçəri girib ata-anamı otaqda bihal vəziyyədə görəndə dalağım sancdı. Divanda oturub dinib-danışmadan gözlərini tavana zilləmişdilər. Otağa dərin bir sükut çökmüşdü. Bəd xəbər eşidəcəyimə şübhə yoxdu. “Nə olub, nə baş verib?” – deyə soruşanda da dinmədilər, elə ki, səsimi ucaldıb sualı təkrarladım, anam stolun üstünə işarə elədi. Ora baxcaq mənim də nitqim qurudu və onların yanında bihal yerə çökdüm.**

cibindədir, operator səni ön planda çəkirsə, bax, gör də, neynirsən. Birdimi, ikidimi..?

Hamı ürək bulandıran belə toylardan dad eləyir, amma heç kəs də ayağını məlum “cığır”dan kənara qoymaq istəmir. Hətta gün çörəyinə möhtac olandan da soruşanda





Stolun üstündə 3 toy dəvətnaməsi vardı. Tanışım nəql elədiyi bu epizoda bir qədər yumor qatsa da, reallıqdan da uzaq deyildi. Toy dəvətnamələri alanda dərdə-qəmə batanları azmı görmüşük? Qaşlar çatılır, sifətin mimikası dəyişilir, içəridən, hardasa ürəyin dərinliklərindən bir ah qopur. Nədəndi bu ah, axı səni toya, yeni ailə quran gənclərin xoş gününə çağırıblar, sevinmək, şadlanmaq əvəzinə nədir sənin dərdin?

Ritorik sualın cavabı bəllidir, səni elə bir yerə dəvət edirlər ki, aldığın əmək haqqının bir hissəsini üzərində “Oğlan evi”, yaxud “Qız evi” yazılmış qutuya salmalı olacaqsan. Toy bahalı şadlıq sarayında keçirilirsə, qiymətlər məlumdu, bir yerin qiyməti azı 100 manat. Orta statistik ailə ayda azı 3, ildə isə 20 dəfə toya gedir. Hər getdiyi toya isə minimum 50 manat ödəyir. Bu zaman ailə aylıq gəlirinin 34 faizini toya ödəmiş olur. Buna görə də əksəriyyət toy dəvətnaməsi alanda sevinə bilmir. “Toy olsun, bayram olsun, həyat firavan olsun” – deyə oxuyuruq, qol götürüb oynayırıq da, amma ay ərzində 3-4 toydan sonra firavanlıq arxa plana keçir, axı...

### Şri Lankada toya getsəydim...

Nə etməli, çağırıbsa, getməlisən. Belə toylarda çətinlik həm də onda olur ki, gedirsən, toy sahibindən başqa heç kəsi tanımırsan. Neyləyəsən, kiminlə söhbət edəsən, nə qədər lal-dinməz oturasan? Bu yaxınlarda birinə getmişdim. Zala girdim, hamı nabələd. Şri Lankada toya getsəydim, bəlkə bir-iki nəfər tanıyardım, burada tanış yox. “Bəlkə yanlış toya gəlmişəm” düşüncəsiylə bəy-gəlin tərəfə baxıram, gəlin yerindədir, məni də toya o, dəvət edib.

Lap tutaq ki, hamı tanış-bilişdir, əyləşib bir masa arxasında, zalın yüksək səs akustikası hal-əhval tutmağa imkan verəcəkmi? Musiqi, çalıb-oxumaq başladısa, söhbət bitdi, giriş yeməyə.

Masanın üstündə nələr yoxdur, bircə quş südü çatışmır ki, alkoqollu içkilər olan yerdə ona ehtiyac yoxdur. Vur ki, vurasan. Filan qədər pul salırsan toya, heç olmasa, bir hissəsi yeyib-içməklə kompensasiya edilsin. Toyların birində məhdud hərəkətli qonağa söz verdilər. Əziyyət çəkib ayağa qalxmasın deyə, masabəyi mikrofonu əyləşdiyi yerdə ona təqdim elədi. Qonaq qəfil sözvermədən özünü itirdi, çünki yeməyin şirin yerindəydi, ovurdları küftə kimi şişmişdi. Udmaq da mümkün deyil, çıxarmaq da. Bir tərəfdən də video-kamera üzərinə tuşlanıb, məclis əhli ona baxır. Elə o vəziyyətdə də boğuq səslər çıxardı, bilinmədi sağlıq dedi, ya qəfil başının üstünü kəsdirən masabəyiyə, ya bu epizodu geniş planda çəkən operatora söydü.

Pəhriz saxlayanlar, içməyənlər isə bu imkandan məhrumdur, ağıza bir-iki tikə qoyandan sonra daha getmir, doyublar. Toy isə hələ təzə başlayıb, masaların üstü hələ əl dəyməmiş fərqli yeməklərlə doludur. Ardı da gəlir. Bir adam nə qədər ət yeyə bilər? Uzaqbaşı 250–300 qram. Amma süfrəyə baxanda görürsən ki, ətlə yanaşı, toyuq, qril, balıq, soyutma və ardı-arası kəsilməyən kabablar, üstəlik sonda plov və onun da içində yenə ət gətirilir. Müxtəlif salatlar, meyvələr, tortlar, içkilər hamısı yekunda bir mədəyə gedir. Axşam orada nəyin baş verəcəyi bəlli deyil. Dəfələrlə baş verən qida zəhərlənmələri, içilən araqdan sonra itirilən iş qabiliyyəti, başağrıları, ürək bulanmaları. Ay ərzində 3–4 toya getmək kifayət eləyir ki, vücudun əndazədən çıxaraq zorla nəfəs alasan. Sağında-solunda azmı görürsən belə adamları?

Eyforiyadan vəcdə gəlib, hələlik vecinə deyil, bir istəyi var, istəyir hamı desin ki, onun oğlunun toyunda yemək-içmək sel kimi axırdı, quş südü-can dərmanı istəsəydin, “yoxdu” sözü yox idi, beş-altı bərkgedən müğənni vardı.

Beləliklə, yorğanın uzunluğunu unudur, sonra da ayağını uzadıb rahatlanmaq istəyəndə görür ki, səhv eləyib.

### Mentalitet qulları

Əhalinin böyük əksəriyyəti ürək bulandıran belə toyların əleyhinədir. Təbii, mühafizəkarlar, mentalitet qulları da var. Onların ilk sözü budur ki, toylar xalqımızın milli-adət ənənəsidir, minillik tarixi var, milli-mənəvi dəyərləri qorumaq isə hər birimizin borcudur.

Əcaba, özgə millətlər toy eləmirmi, şad günündə dost-tanışı çağırıb yeni ailə quranlara səadət, xoşbəxtlik arzulamırmı? Hamısında var. İnkişaf etmiş xarici ölkələrdə evlənmə kimə bəlli deyil: ailələrin tanışlığı, nikah, ailə və dostlarla kiçik mərasim, bal ayı və normal həyata dönüş.

İtalyan-amerikan yazıçı Mario Püzonun “Xaç atası” romanında (həmçinin bu roman əsasında çəkilmiş filmdə) don Vito Korleonenin evində onun qızı Konni və Karlo Rissinin toy məclisi təsvir olunur. Qonaqlar yeyib-içir, şənlənirlər. Ona görə şənlənirlər ki, bir azdan durub toya ən azı 50-dən, 100-dən pul yazdırmayacaqlar. Onlar nəinki toya pul salmayacaqlar, əksinə, bu toydan yararlanacaqlar. Çünki xaç atası kimi tanınan Vito belə xırdaçılıqlardan uzaqdır. O, siciliyalıların adətinə uyğun olaraq toy əhlinin, dost və həmkarların xahişlərini dinləyib həllinə göstəriş verir. Xahişə gələnlər çox gözəl bilirdilər ki, toy yiyəsi öz qızının toyunda kiminsə sözünü yerə salmayacaq, problemin həlli kimdən asılıdırsa, ona “imtinaolunmaz təklif” verib məsələni yerindəcə həll edəcək. O toyda da rəqs edib, halay çəkir, sağlıqlar deyirlər. Sonra bəy gəlinlə çıxıb deyə-gülə evinə yollanır.

Bizdə gəlinaparma necədir? Qız adamı kəsir qapının ağzını, bəydən 200–300 almayınca gəlini buraxmır. Doğmasını, əzizini pul qarşılığında satmağa bənzəyirsə, kimə lazımdır bu adət? Təkcə qapının ağzı kəsmək deyil ki, küçədə də azyaşlıları buna vadar edənlər var. Bəyi oğurlayıb pul tələb etmək də var. Bütövlükdə belə adətlərə mentalitet qulu olmaqdansa, həmin əməlləri törədənləri ciddi qınamağın vaxtıdır.

### Hələ biri də çıxıb: Ciyərqapma!

Toydan bir gün əvvəl keçirilən mərasimdir, kəsilən malın içalatının yeyilməsinə xidmət edir. Yeyilsin, amma “qapmaq” nədir? İnsan övladı məgər bu qədər alçalıb ki, ciyəri qapır?

Hansını deyəsən: Bitmək bilməyən elçilik, həriverdi, nişanqoydu, xınayaxdı, qız toyu, oğlan toyu və sair məclislər. Sanki Hindistan milyarderi Mukeş Ambani oğlu Anand üçün toy hazırlıqlarındadır. Sosial şəbəkələrdə qeyd edildiyi kimi, 2 gəncin ailə qurmasına milyon dollarla xərc gedib, Anandla sevgilisi Radhikanın ilk izdivac məclisi olan gün evlənən başqa cütlüklər artıq oğul-uşaq yiyəsidirlər, amma Anand hələ gərdəyə girib Radhikaya “xoş gəlmisən” deməyib. İmkanı olanlar el qınağından çəkinməsələr, yəqin ki, milyarder Mukeş Ambani kimi oğluna toy eləyər. Şifahi xalq ədəbiyyatında təsvir olunan toylar kimi. Nağıl, ya dastan qəhrəmanı əzab-əziyyətli yollardan keçərək yarına qovuşur, mərhəmətli padşah, o da olmayanda bəyin yeddi arxa dönəni müqəddəs əzabkeşlərin vüsala qovuşması üçün 40 gün-40 gecə toy eləyir, hamı yeyib-içir. İş-güc tökülüb qalır. Budurmu mentalitet?

İndiki dövrdə toya kimi müsibətləri qoyuram bir qırağa. Tutaq ki, qız ərə veririk. Öncə oğlanın nəslini araşdırma, arvadların tanışlığa gəlməyi, kişili-arvadlı elçilik, nişan bazarlığı, nişan, qurbanlıq, qızın ad günü, söz-söhbət (baldız göz süzdürüb), ev bəzəmə, gəlinliyin seçilməsi, xına (10 barmağını havaya tutub xınalı gəzmə, ovuca baş hərf yazılma, qızın başına fırlanma), toy (dünyanın xərci, 85 cür təam, heç vaxt üzünü görmədiyin adamların “ot duşi” şıdırğı oynamağı). Və nəhayət, 5 il sonra: oğlan tərəf hələ də toy xərclərini, qız tərəfi cehizin kreditini ödəməkdədir.

### Saturn planetinə sarı tuşlanan klarnet

Siyahı uzundur, sadalamıram. Qoy birini də deyim, ürəyimdə qalmasın. Çağırıblar ciyərqapmaya, həyətə girirsən – nağaraçalan yeriyir qabağına, çomağı nağaraya elə vurur ki, dərisi çırılacaq, adama elə gəlir ki, həmin anda ona nəmər verməsən 2-ci çomaq təpənə enəcək. Klarnetçalan klarneti Saturn planetinə sarı tuşlasa da, gözü sənin cibindədir, operator səni ön planda çəkirsə, bax, gör də, neynirsən. Birdimi, ikidimi..?

Hamı ürək bulandıran belə toylardan dad eləyir, amma heç kəs də ayağını məlum “cığır”dan kənara qoymaq istəmir. Hətta gün çörəyinə möhtac olandan da soruşanda deyir ki, el-obadan ayıbdır, qohum-əqraba mənə nə deyər?

Toylardakı vəhşi israfçılığın qarşısının alınmasını hamı istəyir, lakin bir araya gələ bilmir. Elə isə, məsələ niyə inzibati metodlarla həll olunmur? Toyların tənzimlənməsi üçün bir qərar və ya sərəncam kifayətdir. Nədən bu qərar verilmir? Nə üçün hamını narahat edən bu məsələdə əhalinin deyil, kimlərinsə himayə etdiyi şadlıq sarayı və restoranların sahibinin mənafeyi qorunur? Onların varlanması üçün milli-mənəvi dəyərlər nə üçün ayaq altına atılmalıdır?

### Bu sualların cavabı varmı?

Əgər yadınızdadırsa, pandemiya dövründə bu məsələ qərar və sərəncamlarla çox gözəl həll olunmuşdu. Hər şeyin ölçü-biçisi vardı, hamı da razılıq edirdi. Toyların tənzimlənməsi üçün yeni bir pandemiya gözləməliyikmi?

Son illər tikilən şadlıq saraylarının, restoranların sayı yağışdan sonra göbələk kimi artmaqdadır. Təbii ki, onların sahibləri bu yolda xəclədiklərini tez bir zamanda qaytarmaq istəyirlər. Onlar buna iaşə xidmətini müasir tələblər səviyyəsində qurmaq hesabına yox, əsasən, toyların məkanı kimi nail olmağa üstünlük verirlər. Toy mafiyası əsasən, bu yerlərdə formalaşır. Təbliğat elə aparılır ki, əhalinin böyük əksəriyyəti könüllü olaraq toy mafiyasının toruna düşür. İmkanı olan da, olmayan da bu axınla getmək məcburiyyətindədir. Toyla bağlı sifariş verəndə, istər-istəməz, toy sahibinə növbənöv çeşiddə yeməklər təklif olunur. Nəticədə şadlıq evləri toyun təşkilinə çəkilən xərcin maya dəyərindən qat- qat artıq pul qazanırlar. Qazanan mafiya olur, itirdiklərimiz isə milli dəyərlərimiz.

### Hələ yas mərasimləri

Hardasa toyları bir təhər ötüşdürmək olar. Çünki toylar əvvəlcədən planlaşdırılır, hazırlıq görülür. Yas isə qəfildən baş verən bir hadisədir. Dünyasını dəyişmiş insanların yaxınları yas mərasimi zamanı bilmir ki, öz əzizlərinin itkisinə yansın, yoxsa qonaqların yemək məclisinin dərdini çəksin. Çünki yas mafiyasının təbliğatı nəticəsində hüzr mərasimləri banket tədbirlərinə dönüb. Yas sahibi borca da girmiş olsa, təki el qınağına hədəf olmamaq üçün ehsan vermək məcburiyyətindədir.

Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabinin vəsiyyətnaməsində belə bir istək vardı: “Mənim həyat yoldaşım Hənifə xanım yas mərasimimə və dəfnimə xərclənəsi pulu xalq təhsilinə sərf etməyə borcludur”.

Ehsan vermək istəyən, qoy, o xərcləri savab qazanacağı bir işə yönəltsin, qarın doyurmağa yox. Yas yeri yeyib-içmək yeri deyil.

### İstək olan yerdə

Bu problemin aradan qalxması üçün ciddi qanun qüvvəyə minməli, toy və yas mafiyasına son qoyulmalıdır. Eldən gələn nümunələr də var. Məsələn, Şərur rayonunun Mahmudkənd kənd əhalisinin birgə qərarı ilə ötən ilin sentyabrından yas mərasimlərində ehsan verilməsi qadağan edilib. Kənd ərazisində 3, 7 və 40 mərasimlərində ehsan verilmir. Başsağlığına gələnlər üçün yalnız çay süfrəsi açılır. Həm də qəti qərara alınıb ki, kənd sakinlərindən hər hansı biri bu qaydanı pozarsa, həmin şəxsin keçirdiyi mərasimdə sakinlər iştirak etməyəcək.

Deməli, istək olan yerdə toylardakı israfçılıq da aradan qaldırıla bilər. Bəs nə mane olur ?

Ölkə başçısının Naxçıvanda apardığı köklü islahatlar, Prezident xüsusi nümayəndəlik institutunun yaradılması, təhlükəsizlik və digər hüquq-mühafizə orqanlarındakı yenilənmələr, şəffaflıq mühitinin yaradılmasına doğru ciddi addımlar indi Naxçıvanda israfçılığın baş alıb getdiyi toyların, eləcə də yasların tənzimlənməsinə, istehlakçıların hüquqlarının pozulduğu iaşə obyektləri haqqında ölçü götürülməsinə böyük ümidlər yaradır. Bunu ən azından güman edirik.

***Hüseyn ƏSGƏROV,***
***yazıçı-publisist***

**Keçmiş XTQ zabiti, Qarabağ qazisi Zaur Bayram oğlu Muradov Vətən naminə sağlamlığını qurban verən minlərlə igid, cəsur oğullardan biridir. Amma onu digərlərindən fərqləndirən cəhət  fiziki olaraq dayandırmağa məcbur olduğu mübarizəsini qələmi ilə davam etdirməsidir.**

Hələ yeniyetmə vaxtı ilk oçerki Culfa rayonunda çıxan “Zəfər” qəzetində dərc olunan Zaurun taleyinə elə o vaxtdan zəfər yolçuluğu yazılıb.

Zaur 2001-ci ildə orduda vəzifə borcunu yerinə yetirərkən mina partlayışı nəticəsində ağır kontuziya alıb, gözlərini, bir neçə barmağını itirib, beynindəki çox sayda qəlpələrlə yaşayır. Nə qədər çətin olsa Zeynalabdin Tağıyevin mesenatlıq fəaliyyəti, blokadada qalan Naxçıvan əhalisinin əsrin əvvəllərində yaşadığı çətinliklər və s. kimi ən müxtəlif tarixi və real hadisələrdən söhbət açılır. Yazıçı, eyni zamanda, ordunun yaranma və inkişafının ilk dövrlərindəki təbəddülatlardan, fərdlərin milli mənlik şüurunun inkişafından inandırıcı dillə söhbət açır.

# Millət və ordu sevgisi ilə süslənən əsərlər

da, qələmə sarılaraq, insanın sınaqlara sinə gərməsi barədə maraqlı bədii əsərlər yazır. Kitablarında Milli Ordumuzun, xüsusi təyinatlılarımızın Qarabağ uğrundakı inadlı və fədakar mübarizəsindən məhəbbətlə bəhs edir. Zaur Bayramoğlu “Öz üzərində qələbə”, “Döyüşlə kəşfiyyat”, “Adını sən



qoy”, “Alabaş”, “Yolda”, “Qara mamba”, “Fədailər” kimi roman və povestlərin müəllifidir. Bu gün Azərbaycan Yazıçılar Birliyinin üzvü, Prezident təqaüdçüsüdür.

Fiziki mübarizəyə sağlamlığı imkan vermədiyi üçün, ordumuza, döyüş dostlarına qələmi ilə yararlı olmaq istəyən Zaur Bayramoğlunun yazıçılıq fəaliyyəti hər yöndən təqdirəlayiqdir. “Öz üzərində qələbə” əsərində bu barədə deyir: “...Əsgər olmanın, zabit olmanın bir şərəf işi olması və buna  yüksək sayğı günlük normaya çevrilməlidir. Bu yolda hər kəs əlindən gələni etməlidir. Mən artıq əlimə silah ala bilməsəm də, qələm mənim üçün bir silaha çevrilib və yazılarımla ordumuza yardım etməyi özümə borc bilirəm”.

Şəxsi həyat təcrübəsinə əsaslanan, qəhrəmanlıq salnaməmizin müxtəlif səhifələrini yazıb əbədiləşdirən Zaur Bayramoğlu özü qayğısız tələbədən XTQ-nin peşəkar zabitinədək çətin və şərəfli bir yol keçib. Onun real ədəbi qəhrəman obrazı gənclərimiz üçün əsl örnəkdir. Əsərlərində tarixi məlumatlara, hərb işinin reallıqlarına daha çox yer versə də, romantik məhəbbət səhnələrini, gənclərin özəl duyğu və düşüncələrini də süjet xəttinə qatmaqla, kitablarını daha da oxunaqlı edə bilir. Beləliklə, onun bir yazıçı kimi əsas qayəsi kişilik məktəbinin dərsləri vasitəsilə “poladın necə bərkidiyini” göstərmək, gənclərə vətənpərvərlik duyğusu aşılamaq, orduya, hərbçi peşəsinə sevgi hissini təlqin etməkdir.

Özünün və hərbçi həmkarlarının başına gələnləri bədii dillə yazan qazi-yazıçı millətin qan yaddaşını diri saxlamaq, şəhidlərin “qızıl qanları ilə suvardıqları” torpağı əsl Vətən kimi təqdim etmək, onların xatirəsini bədii obrazlar vasitəsilə yaşatmaq istəyir və buna nail ola bilir. Bəri başdan qeyd edək ki, onun XTQ əsgər və zabitlərinin peşəkarlığından, ölümün gözünə dik baxmalarından bəhs edən xatirə-yazıları daha təbii alınıb, maraqlı və son dərəcə oxunaqlıdır. Əl-əl gəzən əsərləri elə ilk səhifələrindəncə oxucunu öz aurasına alır, hər kəsin varlığına hakim kəsilir.

Zaur Bayramoğlunun Azərbaycanda nəşr olunmuş kitabları ilə yanaşı, qardaş Türkiyədə də əsərləri işıq üzü görüb. “Adını sən qoy” buna misal ola bilər. O, burada ənənəvi hərb mövzusundan kənara çıxır, olayları daha geniş aspektdə sərgiləyir. Toplu son 2 əsrdə Azərbaycan ərazisində baş verən müxtəlif hadisələri, o cümlədən, soydaşlarımızın dəfələrlə Qərbi Azərbaycandan deportasiya olunmasını, 20 Yanvar faciəsini, xüsusilə də Qarabağın 30 il davam edən işğalının müxtəlif yönlərini özündə əks etdirir.

Müəllif əsərlərində tarixi hadisələri bir tarixçi kimi, müharibə səhnələrini isə canlı şahid kimi işıqlandırması ilə fərqlənir. Məsələn, “Öz üzərində qələbə” kitabında çoxşaxəli mövzu qədim alban mədəniyyətinin və alban kilsəsinin tədricən erməniləşdirilməsindən başlanır. Ardınca Nargin adası ilə bağlı faciəli hadisələr, Hacı Zeynalabdin Tağıyevin mesenatlıq fəaliyyəti...

Əsərlərinin müəyyən səhifələrdə döyüş və kəşfiyyat əməliyyatları ən adi detallarınadək təsvir olunsa da, müəllifin bədii vasitələrlə zəngin olan təhkiyəsi oxucunu yormur, əksinə, hadisələrin dərinliyinə varmağa şərait yaradır. Bədii konflikt və kolliziyalar, dialoqların ustalıqla qurulması, uğurlu mövzu keçidləri yazıçının dil ehtiyatının zənginliyindən xəbər verir.

Bir növ öz əsərlərinin baş qəhrəmanı kimi gördüyümüz Zaur Bayramoğlu hələ II Qarabağ savaşından əvvəl qələmə aldığı “Döyüşlə kəşfiyyat” əsərində komandirin dilindən  deyirdi: “Mənə geri dönməyi deyil, verilmiş əmri yerinə yetirməyi, ailəsini, sevgilisini deyil, vətən uğrunda ölməyi düşünəcək əsgərlər lazımdır, çünki bu əməliyyata gedəcək əsgərlərin sağ-salamat geri qayıtma ehtimalı azdır... özünü şəhid olmağa hazır hesab etməyənlər bu əməliyyata getməməlidir...” Bu sözlər  44 günlük




Vətən müharibəsində, xüsusilə, Şuşanın yüngül silahlarla azad edilməsində hərbçilərimizin nümayiş etdirdikləri “ağlabatmaz” rəşadətin təməl daşı olub.

Durmadan Vətən sevgisini təbliğ edən, qəhrəman oğullarımızın hünərini dastanlaşdıran qazi-yazıçının arzuları gerçəkləşib. Qarabağı və Şərqi Zəngəzuru işğaldan tam azad etmişik. Artıq 4 ildir ki, dünyada real qalib xalq kimi tanınırıq. Bütün bunlara əvvəlcə öz cismi-canı ilə, sonra da qələmi ilə töhfələr verən Zaur Bayramoğlu bir gün belə dayanmadan müzəffər ordumuza mənəvi dayaq olmaqda davam edir.

Növbəti Zəfər bayramına bir neçə gün qalır. Bu ərəfədə mübariz qələm sahibi ilə əlaqə saxladıq. İstedadlı yazıçı dedi:

– Mənim üçün 2024-cü il də düşərli sayıla bilər. Belə ki, yaradıcılıq uğurlarıma görə Prezident təqaüdünə layiq görüldüm. Azərbaycan Prezidentinin və AYB-nin bu qayğısı məni daha da ruhlandırdı. İndi həm I, həm də II Qarabağ müharibəsində snayper kimi döyüşən xanım-döyüşçü obrazının və onun Laçının işğalı zamanı şəhid olmuş sevgilisi Elçinin taleyindən bəhs edən “Yalquzaq” romanını bitirmək üzrəyəm. Bununla paralel olaraq, Zəfər savaşına və ötənilki antiterror tədbirlərinə  həsr etdiyim 4 hissəli romanımın 2-ci hissəsi olan “Ölüm mələkləri” üçün material və faktlar toplayır, həmçinin “Zərifə” adlı başqa bir roman üzərində də işləyirəm. Bu il sosial şəbəkələrdə “Daş şabalıd” və “Fil ovçusu” adlı hekayələrim də yayımlanıb. Hazırda ordumuzun Vətən müharibəsindəki qəhrəman mübarizəsini əks etdirəcək yeni bir layihəyə başlamışam. Həmin layihənin ilk əsəri olan “Pusqu” povesti yaxın zamanlarda oxuculara təqdim olunacaq.

Bəli, fiziki olaraq işığa həsrət qalan qazi-yazıçı Zaur Bayramoğlu sanki qələmini fənər edərək, özünün vətən, millət və ordu sevgisinə işıq tutur.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Şagirdlərin elektron yerdəyişməsi

**Noyabrın 1-dən 2–11-ci sinif şagirdlərinin elektron yerdəyişməsi prosesinə start verilib. Şagirdlərin yerdəyişməsi prosesi “www.sy.edu.az” portalı vasitəsilə həyata keçirilir. Proses dekabrın 1-nə kimi davam edəcək.**

Elm və Təhsil Nazirliyinin mətbuat xidmətindən XQ-yə verilən məlumatda bildirilib ki, müxtəlif səbəblərdən 10-cu siniflərə qeydiyyat üçün gecikən şagirdlər də ümumi təhsil müəssisələrinə qəbul üçün “sy.edu.az” vasitəsilə müraciət edə bilərlər.

Məlumatda o da qeyd olunur ki, məktəbəhazırlıq qrupları və 1-ci siniflərin yerdəyişməsi prosesi isə 25 noyabrda ən aktiv ediləcək.

Qeyd edək ki, şagirdlərin elektron yerdəyişməsi sistemində 2024–2025-ci tədris ilində tətbiq edilən yeniliyə əsasən istifadəçilərin fərdi məlumatlarının təhlükəsizliyinin artırılması məqsədilə Azərbaycan vətəndaşları və ölkə ərazisində müvəqqəti və daimi yaşama icazəsi olan xarici ölkə vətəndaşlarının şəxsi kabinetə “istifadəçi adı və şifrə” ilə daxil olması məhdudlaşdırılacaq. Şəxsi kabinetə giriş yalnız Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən təmin edilən Vahid Giriş Sistemi  ilə həyata keçiriləcək.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

Təqdimat

# Mənalı ömrün nəğməli hesabatı

**Tanınmış dilçi alim, pedaqoq və şair Mahirə Nağıqızı Hüseynova bu-ilki ad gününü Beynəlxalq Muğam Mərkəzində təşkil edilmiş ədəbi-musiqili təqdimatla qarşıladı.**





Təntənəli məclisin iştirakçısı olan elmi-mədəni ictimaiyyətin təmsilçiləri, rəsmi qurumların nümayəndələri əvvəlcə Mahirə Nağıqızının elmi-bədii yaradıcılığını əks etdirən kitablarla və illüstrativ materiallarla tanış oldular.

Mərasimin aparıcısı filologiya elmləri doktoru, professor, Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi işlər üzrə prorektoru Mahirə Nağıqızının çoxyönlü elmi-pedaqoji və bədii yaradıcılığı, geniş ictimai fəaliyyəti barədə məlumat verdi. Sonra alimin zəngin və mənalı ömür yolunu əks etdirən videosüjet nümayiş etdirildi.

Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcması Qadınlar Şurasının sədri Məlahət İbrahimqızı Mahirə Nağıqızının ömür yolunun ictimai önəm daşıyan yönlərinə nəzər salaraq onun qadın hərəkatında, uzun illərdən bəri qaçqın taleyi yaşayan soydaşlarımızın Qərbi Azərbaycana qayıdışı ilə bağlı təşkilatlanmada təşəbbüskar və səmərəli fəaliyyətini vurğuladı. Mahirə xanımın incə ruhlu, yüksək amallı şeirlər müəllifi olduğunu xatırladan deputat qeyd etdi ki, onun poetik yaradıcılığında Vətən sevgisi, təbiət, məhəbbət və insanın ruhi-mənəvi dünyası aparıcı mövzulardır.



Azərbaycan Milli Elmlər Akademiyasının Prezidenti, akademik İsa Həbibbəyli isə fililoq alimin ana dili və ədəbiyyatımızın aktual mövzularında məhsuldar araşdırmalarından, Qərbi Azərbaycanın mədəni irsinin qorunub yaşadılmasında fəal iştirakından, elmi kadrlar hazırlığında fəaliyyətindən söz açdı. O, Mahirə xanıma yeni yaradıcılıq uğurları arzuladı və həsrətində olduğu Qərbi Azərbaycana qovuşmaq xoşbəxtliyi dilədi.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, professor Cəfər Cəfərov rəhbərlik etdiyi ali məktəbin yetirməsi olan Mahirə Nağıqızının sevimli müəllimi, unudulmaz dilçi professor, şair və ictimai xadim Həsən Mirzənin elm, sənət və məslək yolunu uğurla davam etdirdiyini söylədi. O qeyd etdi ki, orta məktəbdə müəllimlik fəaliyyətini sonrakı illərdə doğma universitetdə davam etdirən filoloq namizədlik və doktorluq dissertasiyaları müdafiə etmiş, dilçilik kafedrasında müdir, filologiya fakültəsində dekan işləmiş, hazırda prorektordur.

Azərbaycanda Atatürk Mərkəzinin rəhbəri, akademik Nizami Cəfərov Mahirə Nağıqızının milli dilçilik elminə verdiyi töhfələrdən, onun poetik dünyasında Ana, Ana dili və Ana Vətən anlayışlarının məfkürəvi təcəssümündən danışdı. O qeyd etdi ki, şairin yüksək mənəvi dəyərləri incələyən onlarca şeirinə mahnı qoşulub və buaxşamkı yaradıcılıq hesabatı da həmin nəğmələrlə müşayiət olunur.

Digər çıxış edənlər də Mahirə Nağıqızının ömür yolunun xalqımıza xidmətlə mənalanmış səhifələrini vərəqlədilər, onun elmi, bədii yaradıcılığının və ictimai fəaliyyətinin önəmini vurğuladılar.

Sonda həyat və yaradıcılığı barədə söylənən xoş sözlərə, yüksək qiymətə görə minnətdarlığını bildirən Mahirə Nağıqızı dedi:

– Bu axşam çox qürurluyam, eyni zamanda, həyəcanlıyam. Beynəlxalq Muğam Mərkəzində keçirilən yaradıcılıq gecəsi mənim hesabatım kimi qəbul edildi. Bu gün sözə, elmə verilən belə dəyər məni daha məhsuldar çalışmağa ruhlandırdı. Qərbi Azərbaycan İcmasının üzvü olaraq Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə qədim yurd yerlərimizə qayıtmaq uğrunda mübarizədə daha fəal iştirak edəcəyəm. Bundan sonra da gələcəyə böyük inamla yazıb-yaradacaq, tədqiqatlar aparacaq və sonrakı nəsillərin maariflənməsi üçün alimdən gələni əsirgəməyəcəyəm. Belə bir tarixi missiyaya xidmət etmək böyük şərəfdir.

Gecədə ölkənin ünlü sənətçiləri təqdimat qəhrəmanının seçmə şeirlərini və mahnı mətnlərinə qoşulmuş musiqi nömrələrini səsləndirməklə onun yaradıcılığı barədə təsəvvürü zənginləşdirdilər, mərasimə əlavə təntənə gətirdilər.

**Tahir AYDINOĞLU**
**XQ**

Həyatın içindən

# Səni gözləyirik, Süleyman dayı!

*Evlər böyüdü, ailələr kiçildi.*
*Kosmos yaxınlaşdı,*
*qohum-qonşu uzaqlaşdı.*
*Varlılar çoxaldı, mərhəmət,*
*vicdan və səmimiyyət azaldı.*

***(Sosial şəbəkədən)***



Siz nə fikirdəsiniz, doğrudanmı belədir? Mənə görə, tərəzinin həqiqət gözü daha ağırdır. Amma bu gün də elimizdə, obamızda yaxşılar, düzlər, mərhəmətlilər az deyil. Bəlkə də bu dünya o yaxşıların üzünə yaşayır? Ağıllı adamlardan kimsə belə deyib: "Üstümüzü torpaqla örtüb, bizi məhv etməyə çalışdılar, lakin toxum olduğumuzu unutdular".

Bəli, yaxşılıq, xeyirxahlıq, səmimiyyət bir toxumdur, hara düşdüsə daim cücərəcək, boy verəcək və heç vaxt yox olmayacaq.

Süleyman kişi kənd adamıdır. Bakıya yaxın rayonların birində yaşayır. Yaşı 80-ə az qalar. Amma gecəsi-gündüzü çörək qazanmaq üçün ora-bura qaçmaqla keçir. Nə qədər yorğun olsa da, üz-gözündən mehribanlıq, səmimiyyət yağır. Adam onunla danışanda sevinir. O kişi bizim məhəllənin sakinlərinin hamısını özünə yaxın, doğma bilir və çalışır ki, həyətimizdə keçirilən xeyir-şər məclislərində iştirak eləsin. Məhəllə uşaqları, qız-gəlinlər ona "Süleyman baba" – deyə müraciət edir, bəzən ürəklə süfrəyə dəvət edirlər.

Ağsaqqal illərdir ki, Texniki Universitetlə üzbəüz olan həyətimizdə süd, qatıq satır. Süleyman kişi kimin hansı mənzildə yaşadığını, hansı ailənin imkanlı, yaxud imkansız olduğunu da yaxşı bilir. O, satacağı məhsulları günaşırı çantalara yığıb, sübh çağı yola çıxır və səhər tezdən Bakıda olur. Sonra da birbaşa bizim məhəlləyə gəlir. Gətirdiklərini də əvvəlcə Ağabala kişinin meyvə-tərəvəz dükanının yanındakı ağacın altına yığır. Sonra onları bölüb ayrı-ayrı mənzillərdə yaşayan qonşulara çatdırır.

Səhər işə gedəndə bəzən həyətdə Süleyman kişi ilə qarşılaşıram. Salamlaşandan sonra, adətən, o, mənə mehribanlıqla: "Günün uğurlu olsun, oğlum!", – deyir. Onun bu sözləri mənə əlavə ruh verir.

Çox isti günlərdə də Süleyman kişi öz işindən qalmır. Belə çağlarda mənim ona yazığım gəlir. Çünki həmin günlərdə gətirdiyi süd-qatığın hamısını axşamadək sata bilmir. Buna görə də saatlarla Ağabala kişinin dükanı yanında dayanıb müştəri gözləyir. Həmin saatlarda Süleyman kişinin əhvalı dəyişir, şəhərin səs-küylü mühitindən bezir və darıxır.

Bir bazar günü Süleyman kişi bizim mənzilin qapısını döydü. Qapını açıb onu içəriyə dəvət elədim. Əvvəlcə girmək istəmədi. Dedi ki, mümkünsə, çölə çıx. Mən birtəhər onu evə gətirə bildim. Bir stəkan çaydan sonra keyf-halını soruşdum. İstədim ki, mətləbi özü açsın. Az keçmiş o, dedi:

– Səni oğlum bilib, məsləhətə gəlmişəm. Sizdən yuxarı mərtəbədə yaşayan Kərimağanın oğlu məndən 500 manat əlborcu alıb. Alanda demişdi ki, bir həftəyə qaytaracağam. Üstündən üç aydan çox keçib. Sonra eşitdim ki, oğlan çıxıb-gedib Moskvaya. Fikirləşdim ki, yəqin tezliklə qayıdar, ancaq qayıtmaq bilmir. Mənim də o pula ehtiyacım var. Sənə dediklərimi təklikdə Kərimağaya çatdırdım. O isə cavabında qırmızı-qırmızı dedi ki, oğluma böhtan atma, o, belə iş tutmaz... İndi elədiyim yaxşılığın peşimançılığını çəkirəm. Bilmirəm neynim. Bu həyətdə uşaqdan böyüyədək hamı məni tanıyır, hörmət eləyir. Mənə yaraşmaz ki, polisə şikayət verim. Kərimağa da orda-burda məni yalançı adlandırır. Halalca pulumu ala bilməsəm, hamıya deyəcək ki, gördünüz, Süleyman kişi yalan deyirdi. Axı, o pul mənim bir aylıq dolanışığımdı...

Əvvəlcə nə deyəcəyimi bilmədim. Sonra bildirdim ki, narahat olma, Süleyman dayı, heç kim sənin halal pulunu yeyə bilməz. Kərimağa ilə danışaram, yəqin ki, o məni başa düşər.

Süleyman kişi bir az dil-ağız eyləyib getdi. O, gedəndən sonra məsələni çözmək üçün yollar axtarmağa başladım. Çünki xeyli vaxtdır mənim Kərimağa ilə aram sərindi. Dəfələrlə krantı açıq qoyub bizi suya veriblər. Amma bir dəfə də olsun gəlib üzr istəməyiblər. Üstəlik, arvadı deyib ki, nə olasaq, quruyub gedəcək.

Onu da deyim ki, Kərimağa bizim binaya 5-6 il əvvəl köçüb. Bir neçə ay keçmiş olardı gördük ki, həyətin ortasına bir maşın kubik boşaldılıb. Səhəri gün fəhlələr asfaltı qoparıb beton tökməyə hazırlaşırdılar. Qonşulardan bir neçəsi ilə düşüb nə etdiklərini soruşduq. Usta dedi ki, burada maşın qarajı tikəcəyik, amma kim tikdirdiyini bilmirik. İşi dayandırdıq. Müxtəlif təşkilatlara zəng etdikdən sonra məlum oldu ki, 60 illik məhəllənin həyətində qaraj tikdirmək istəyən Kərimağa imiş... O vaxtdan Kərimağa mənə burnunun ucu ilə salam verur.

Texniki Universitetin qarşısındakı dayanacaqda avtobus gözləyirdim. Prospektin o tayında Süleyman kişi işıqforda dayanmışdı. Yaşıl işıq yanan kimi o, yanındakı yekə çantalardan birini götürüb yolu keçdu və dayandı. Hiss elədim ki, kişinin vəziyyəti o qədər də yaxşı deyil. Buna görə də onun yanına getdim. Sonra tez yolu keçib o biri çantanı götürüb geri döndüm. Mən ona çatar-çatmaz Süleyman kişi: "Allah səni minbudaq eləsin, ay oğul. Bir az soyuqlamışam, lap canımı dişimə tutub gəlmişəm..."

Mən ona dedim:

– Bəlkə beş-on gün dincələsən. Özünü çox yormusan.

Kişi üzümə fağır-fağır baxıb:

– Necə dincəlim, başına dönüm? Bəs yetimləri kim dolandıracaq? Nəvələrimdən biri tələbədi, ayda filan qədər xərci var. Arvad sağ olanda yenə köməyi dəyirdi. O da getdi, qaldım tək, – dedi.

Bir qədər söhbətləşdik. Məlum oldu ki, Süleyman kişinin yeganə oğlu avtomobil qəzasında həlak olub. İki oğul nəvəsi indi onun himayəsindədir.

O gündən xeyli keçib. Süleyman kişidən xəbər yoxdur. Həyətdə mənim kimi çoxları ondan nigarandır. Yeri yaman görünür...

Yolunu gözləyirik, Süleyman dayı!

***Səməd MƏLİKZADƏ***
***XQ***

# Onkoloqların Qarabağ aksiyası

**Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi və "Regional İnkişaf" İctimai Birliyinin birgə təşkilatçılığı ilə oktyabrın son günlərində işğaldan azad edilmiş ərazilərdə tibbi aksiya keçirilib.**




Səyyar xidmət onkoloji xəstəliklərin erkən diqanostikası, vaxtında dəqiq müayinə və müalicəsinin aparılması, eyni zamanda, öz doğma yurd-yuvalarına qayıdan vətəndaşlarımıza keyfiyyətli tibbi xidmət göstərilməsinə əlçatanlığın təmin olunması məqsədilə icra edilib.

Milli Onkologiya Mərkəzinin baş həkimi Azad Kərimli tibbi aksiya ilə bağlı XQ-yə bildirdi:

– Oktyabrın 30 Füzulidə, 31-də isə Zəngilanın Ağalı kəndində Milli Onkologiya Mərkəzi, Heydər Əliyev Fondu, "Regional İnkişaf" İctimai Birliyinin dəstəyi və TƏBİB-in bir qrup həkimlərinin iştirakı ilə tibbi aksiya təşkil olundu. Aksiyada vətəndaşlara TƏBİB-in həkimləri – kardioloq, nevropatoloq, pediatr və terapevt tərəfindən tibbi xidmətlər göstərildi. Milli Onkologiya Mərkəzindən isə mamoloq, 2 onkoloq, onkoginekoloq, bundan başqa, 2 nəfər USM, mamoqrafiya, rentgen, abdominal onkoloji müayinə mütəxəssisləri müayinələr apardılar.

Füzuli şəhərində müayinədən keçən 485 nəfərdən 5-də xərçəng xəstəliyinə şübhə aşkarladıq. Həmin o 5 nəfər qeydiyyata alındılar. Onlar Heydər Əliyev Fondu və "Regional İnkişaf" İctimai Birliyinin köməyilə Bakıya, Milli Onkologiya Mərkəzinə dəvət olunacaqlar. Onların əlavə müayinə və müalicələri mərkəzimizdə həyata keçiriləcək.

Zəngilanın Ağalı kəndində tibbi aksiyada 367 nəfərin müayinəsi həyata keçirildi. Müayinəyə gələnlərdə xərçəng xəstəliyi aşkar olunmadı. Xəstəliklə mübarizə aparan 1 nəfər xəstə vardı. O da bizim mərkəzdə qeydiyyatda olan xəstədir. Mütəmadi müayinəyə gəlir, lazım olan müalicələri alır. Buna baxmayaraq, 7 nəfərdə xoşxassəli törəmələr aşkarlandı. USM, mamoqrafiya, rentgen və abdominal müayinər nəticəsində qalxanvari vəzdə, ginekoloji baxımdan və kişilərdə prostat vəzisində törəmələr aşkar edildi. Biz həkimlər buna çox sevindik ki, yenicə doğma yurd-yuvalarına qayıdan sakinlər arasında elə bir ciddi onkoloji xəstəlik müəyyən edilmədi. Allah kimsəyə dərd-bəla, xəstəlik verməsin. Biz arzulamırıq ki, kimsə xəstə olsun, müalicəyə cəlb olunsun. Amma müayinə olunmaq, xəstəliyi varsa, vaxtında aşkar etmək insanın həyatda yaşama şansının artması deməkdir.

Aksiyanın təşkilində "Regional İnkişaf" İctimai Birliyinin əməkdaş və könüllüləri də yaxından iştirak etdilər. Vətəndaşların məlumatlandırılması, qeydiyyatı, müayinələrdə növbəliliyin təmin olunması və digər təşkilati işləri həyata keçiridlər.

**Z.HÜSEYN**
**XQ**

# Yorğa atlar Cıdır meydanında...

**Dünən Atçılıq Federasiyasının təşkilatçılığı ilə yorğa atların çempionatı keçirildi. Binə Atçılıq Mərkəzinin cıdır meydanında təşkil edilən yarışda müxtəlif bölgələrdən 50-dək yorğa at müxtəlif kateqoriyada yarışdı. Qaçışlar 1 200, 1 400, 1 600, 1 800, 2 000, 2 400 və 3 200 metr məsafələrdə, erkək, dişi və axta atlar arasında, eyni zamanda, atlar və ayrılıqda dayçalar arasında təşkil olunmuşdu.**



Yorğa atların çempionatı ilə yanaşı, cıdır mövsümünün bağlanışı ilə əlaqədar əlavə yarış da təşkil edildi. Qarabağ, Dilbaz və ingilis atlarının iştirak etdiyi və 4 qaçışdan ibarət turnir də maraqlı mübarizə şəraitində keçdi. Yarışlarda müxtəlif at növləri ilə ümumilikdə, 39 çapar bacarığını nümayiş etdirdi. 6 yaş və yuxarı yorğa atların 1600 metr məsafəyə qaçışı ilə başlayan ilk yarışın qalibi Sabirabad sakini Rəhman Nuriyevin Şimşək ləqəbli atı oldu.

Yarışla bağlı jurnalistlərə açıqlama verən Atçılıq Federasiyasının vitse-prezidenti Bəhruz Quliyev bildirdi ki, ümumilikdə 12 qaçış keçirilib. Bunlardan 4-ü cıdır, 8-i yorğa atların yarışlarıdır. B.Quliyev sonra qeyd etdi ki, federasiya ilbəil at yarışlarının sayını artırmağa çalışır. Qurum müasir atçılıq idman növləri ilə yanaşı, qədim atüstü oyunlara da (çövkən yarışları) xüsusi yer ayırır. Nəzərinizə çatdıraq ki, federasiya Türkiyədə keçirilən at yarışlarına da dəvət alıb. Ümumilikdə isə Rusiya, Türkiyə və başqa ölkələrdə keçirilən cıdır yarışlarına atlar göndərib. B.Quliyev sonda dedi: Qarabağda da çövkən yarışları keçirməyi planlaşdırırıq. Bu barədə Gənclər və İdman Nazirliyi ilə danışıqlar aparılıb. Düşünürəm ki, bu yarışlar 2025-ci ildə Şuşa və Xankəndidə reallaşacaq.

Hər iki yarışın sonunda qaliblərə diplom, kubok və müxtəlif mükafatlar təqdim olundu.

***Fidan SALMANOVA***
***XQ***



Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 243 (30647) 3 noyabr 2024-cü il, bazar

## İdman xəbərləri

### “Gəncə”nin 3-cü qələbəsi



**“Gəncə” bu mövsümdə Azərbaycan Basketbol Liqasında ardıcıl 3-cü qələbəsini qazanıb.**

Kollektiv 3-cü turda “Ordu” komandasını 82:61 hesabı ilə məğlub edib.

Qeyd edək ki, “Gəncə” ilk turda “Lənkəran”a 90:75, sonrakı mərhələdə isə “Quba”ya 90:62 hesabı ilə qalib gəlib.

### Ronaldo ilk “10-luq”dan kənarda




**Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyası ötən 10 ay ərzində ən çox qol vuranları açıqlayıb.**

Milli çempionatların yüksək liqalarında 2024-cü ilin ən yaxşı bombardirləri siyahısına Martin Kauteruççio başçılıq edir. Uruqvaylı hücumçu Perunun “Sportinq Kristal” klubunda 33 qola imza atıb. Çinli Vu Ley “Şanxay Port”dakı 32 qolu ilə 2-ci, Avropada ən yaxşı olan Viktor Qyokereş 3-cü yerdə qərarlaşıblar. “Sportinq”in isveçli forvardı 30 qola sevinib.

“Əl-Nəsr”in 21 qolunun müəllifi olan Kriştiano Ronaldo 17-cidir. Lionel Messi “İnter Mayami”dəki 20 qolla 29-cu pillədə yer alıb.

### “Formula 1”-in məşhur pilotu cərimələnib



**“Formula 1” üzrə dünya çempionatının iştirakçısı “Ferrari” pilotu Şarl Lekler 5 min avro cərimə edilib.**

Beynəlxalq Avtomobil Federasiyasının (FIA) mətbuat xidmətinin məlumatına görə, 27 yaşlı sürücü Meksika Qran-Prisi zamanı əsas yarışdan sonra keçirilən mətbuat konfransında nalayiq ifadələr işlədib.

Bundan əvvəl Sinqapur Qran-Prisində “Red Bull” komandasının sürücüsü Maks Verstappen analoji qayda pozuntusuna görə bir günlük ictimai iş cəzası alıb.

***LQ URBANOVA***
***XQ***

Maraq dünyamız

# “Boney.M” Moskvaya 11 tonluq yük və xüsusi təyyarə ilə gəlmişdi

## *Təyyarəni Londona SSRİ rəhbərinin özü göndərmişdi*





**Ötən əsrin 70-ci illərində biz bu Qərbi Almaniya sənətçisini Frenk Farian kimi tanıyırdıq. Yəni o, hər yerdə belə təqdim olunurdu. Çox sonralar isə Moskva qəzetləri yazdılar ki, əslində onun ad-soyadı Frans Röyterdir. Yeri gəlmişkən, səsi, ifası, adı və özü yarım əsrdən çox bütün dünyanı gəzən bu misilsiz rok – pop ifaçısı bu ilin yanvarında ABŞ-nin Florida ştatında dünyasını dəyişmişdir.**

... Alman–Sovet müharibəsi başlanandan cəmi iki ay sonra dünyaya gəlmiş bu adamın 37 yaşı olanda SSRİ rəhbəri Leonid Brejnev onun Moskvaya gətirilməsi üçün Londona xüsusi təyyarə göndərmişdi. Bu barədə bir az sonra söz açacağıq.

Xatırladaq ki, “Boney M” (Boni Em) – Almaniya Federativ Respublikasında 1975–1986-cı illərdə mövcud olmuş disko qrupdur. Elə ötən əsrdə deyirdilər ki, qrupun adı Avstraliya detektiv serialındakı qəhrəmanın adından götürülmüşdür. Gənc musiqi prodüseri Frenk Farian tərəfindən yaradılmış bu disko klubu cəmi 11 il fəaliyyət göstərsə də, səsi, sorağı hələ də kəsilmir.

Qeyd edilir ki, Frank Farian hələ bu qrupun yaradılmadığı dövrdə – 1974-cü ildə mövcud disko üslubu üzərində eksperiment apararaq yeni bir mahnı yazır. Qeyd etdiyimiz kimi, yeni mahnıya o zamanlar məşhur olan Avstraliya detektiv serialı qəhrəmanının adından istifadə edərək “Boney.M” adı verilir. Gözlənilməz uğur və televiziya şouları, konsert programlarına dəvətlər onu tez bir zamanda Karib qrupu qurmağa ruhlandırır. Kollektivə Maizie Üilliams, Sheila Bonnick, Natali və rəqqas Mayk daxil olurlar. Lakin bu, müvəqqəti variant idi. 1976-cı ildə qrupa Karib adalarından miqrantlar, yamaykalı vokalçı Liz Mitçel və Marsiya Barret, Montserrat adasından rəqqasə Meyzi Vilyams və Aruba adasından rəqqas Bobbi Farrel qatılırlar. Qərb tənqidçiləri “Boney. M” qrupunu tez-tez “qaradərili ABBA” adlandırırdılar. Çünki XX əsrin 70–80-ci illərində yalnız isveçli qrup “ABBA” “Boney. M”-lə məşhurluq yarışı apara bilirdi.

“Boney.M”-i Fariandan sonra Liz Mitçel və Marsiya Barret də ifa etməyə başladılar. Rəqqas Bobbi Farelin isə səsi disklərə yalnız XX əsrin 80-ci illərin əvvəllərində yazılmaga başladı. “Boney. M” kvarteti Amerikadan başqa, bütün dünyada fenomenal uğura imza atdı. 11 illik musiqi karyerasında kollektiv çoxlu musiqi mukafatları qazandı və bundan başqa dəfələrlə dünyanın müxtəlif ölkələrində albom satışlarına görə Ginnesin rekordlar kitabına düşməyi bacardılar. Qrupun 200 milyondan artıq albomu satılıb. Bu orijinal satış rəqəmidir. Onların pirat yolu ilə “kopyalanmış” 300 milyondan artıq albomu da satılıb. “Boney. M” kollektivi o zamanlar SSRİ-də konsertinə icazə verilən azsaylı Qərb qruplarından biri idi.

Yeri gəlmişkən, Rusiya mənbələrində oxuyuruq ki, “Boney.M” Qərbin rok və pop qrupları arasında SSRİ-nin “dəmir pərdə”sini yarıb keçən ilk Qərb ansamblı olmuşdur. Qeyd edilir ki, onlar Moskvaya Sov.İKP MK-nın baş katibi Leonid Brejnevin şəxsi razılığı ilə gəlmişdilər. Daha doğrusu, onları Londondan SSRİ paytaxtına gətirmək üçün Moskvadan xüsusi təyyarə göndərilmişdi.

Həmin təyyarə Britaniyadan Moskvaya “Boney.M”-lə bərabər bu kollektivin 11 tonluq avadanlıq və rekvizitlərini, eləcə də, Qərbin böyük jurnalistlər qrupunu gətirmişdi. Həmin jurnalistlər Qərb musiqiçilərinin Moskvada təşkil etdiyi 10 şounu “sözün həqiqi mənasında sensasiya” adlandırmışdılar.

Başqa sensasiya isə onların konsertləri üçün satılan biletlərin qiyməti ilə bağlı idi. Rus həmkarlarımız yazırlar ki, “Boney.M”-in konsertinin bileti SSRİ-dəki peşəkar fəhlələrin üç aylıq maaşı dəyərində idi. Qara bazarda isə həmin biletlərin qiyməti 10-20 dəfə baha idi. Üstəlik, Moskvadakı “Melodiya” firması bu ansamblın 100 min ədəd diskini buraxmış və həmin disklər bir gündə satılmışdı.

***İ.QAÇAYEV***

## XQ-nin rəsm qalereyası

### Zəhmətin əlvan tablosu

**Hörmətli oxucular! Bir neçə gün qabaq görkəmli fırça ustası, mərhum Xalq rəssamı Böyükağa Mirzəzadənin “Pambıq tarlasında” əsəri haqqında sizə qısa məlumat vermişdik. Bu dəfə rəssamın 1967-ci ildə yaratdığı “Çay yığan qızlar” adlı parlaq rəsminə nəzər salaq.**



Qeyd edək ki, kətan üzərində tablo yağlı boya ilə işlənib və burada əsasən “soyuq” rənglərdən istifadə olunub. Bu sənət nümunəsində əsas yeri yaşıl və qırmızı rəng tonları tutur və buradakı geyim və əşyaların rəng koloriti mövzu ilə ahəng yaradır.

Əsərdə cənub bölgəsində yerləşən kəndlərin birində gənc qızların çay yığımından bəhs olunur. Burada biz qızların necə böyük həvəslə çay yığımında çalışdığını görürük. Rəssamın əksər əsərlərində olduğu kimi, bu tablosunda da halal əməyə dərin rəğbəti hiss olunur.

Sonda bildirək ki, “Çay yığan qızlar” rəsmi hazırda Azərbaycan Dövlət Rəsm Qalereyasında qorunub saxlanılır.

***Leyla HADİ,***
***tələbə-jurnalist***



### Qubada tibbi fləş-mob

**Quba Tibb Kollecinin tələbələri və könüllülərin iştirakı ilə “İlk tibbi yardım həyat xilas edir” adlı fləş-mob təşkil olunub.**

Səhiyyə Nazirliyi tərəfindən təşkil olunan növbəti maarifləndirici aksiyanın məqsədi qəzalar, dəm qazından boğulma, epilepsiya tutmaları və digər hallar zamanı ilkin tibbi yardımın göstərilməsi qaydalarını əyani şəkildə nümayiş etdirilməsidir.

Tələbələrin və könüllülərin iştirakı ilə keçirilən fləş-mobda kollecin tələbələri tərəfindən müxtəlif təxirəsalınmaz vəziyyətlərdə ilk tibbi yardımın düzgün şəkildə göstərilməsi qaydaları əyani nümayiş etdirilib.

Aksiya zamanı arzu edənlərin arterial təzyiqi və nəbzi ölçülüb. Kollecin tələbələri, həmçinin ürəyin qapalı masajı və süni tənəffüs qaydalarını nümayiş etdiriblər. Sonra aksiya iştirakçılarına məlumatlandırıcı bukletlər paylanılıb.

Həmçinin “İlk tibbi yardımı öyrən - tətbiq et!” adlı viktorina keçirilib. Viktorina qaliblərinə müxtəlif hədiyyə və mükafatlar təqdim olunub.

Bundan əvvəl “İlk tibbi yardım həyat xilas edir” adlı fləş-mob Bakı, Gəncə və Mingəçevir şəhərlərində təşkil edilib.

***XQ***

## Gündüz yağmursuz, duman, külək, gecə yağış və külək

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, noyabrın 3-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq.**



Əsasən yağmursuz keçəcək. Lakin axşam buludluluğun artacağı, gecəyə doğru bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Arabir güclənən cənub-qərb küləyi əsəcək, günün ikinci yarısında güclü şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 11-14°, gündüz 16-20° isti olacaq. Atmosfer təzyiqi 756 mm civə sütunundan 764 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə və gündüz 65-75 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin günün ikinci yarısı şimal və qərb rayonlarından başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi, dağlıq və dağətəyi rayonlarda qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclü olacaq. Havanın temperaturu gecə 5-10° , gündüz 20-25° , dağlarda gecə 1-6°, gündüz 10-15° isti olacaq.

***QQ ASIMOV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Fəxrəddin Nəsibova əzizi

**OFELİYA NƏSİBOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4001
SİFARİŞ 2485
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00